


# İrəvanda yeni isterika dalğası

**Ermənistan parlamenti dünən keçirilən iclasında “Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin demarkasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın fəaliyyətinə dair Əsasnamənin təsdiq edilməsi haqqında” qanun layihəsini qəbul edib.**

*(ardı 4-cü səhifədə)*





# Xalq qəzeti

Xalqın qəzeti!

№ 234 (30638) 24 oktyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## “Ter-Petrosyanizm” və ya erməni həyasızlığının qürub notları

**Məlum olduğu kimi, bu il oktyabrın 16-da Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin ABŞ-nin “Newsweek” nəşrində məqaləsi yayımlandı. Məqalədə COP29 öncəsi Azərbaycanın iqlim böhranı ilə yanaşı, regional sülhə nail olmaq istiqamətindəki səylərinə və Ermənistanla ikitərəfli razılaşmaların əhəmiyyətinə diqqət çəkilmişdi.**



H.Hacıyev məqaləsində Ermənistan konstitusiyasında yer alan Qarabağ iddiasının və Qərb dövlətlərinin ölkəni silahlandırmasının sülh prosesinə əngəl törətdiyini vurğulamışdı. Dövlətimizin rəsmisi onu da bildirmişdi ki, 1996-cı ildə Ermənistanın o vaxtkı prezidenti ölkənin əsas qanununun Qarabağı Azərbaycan ərazisi kimi tanıyan beynəlxalq sənədin imzalanmasına imkan vermədiyini əsas gətirərək, ATƏT-in sammitinin yekun bəyannaməsini imzalamaqdan boyun qaçırmışdı. Yəni, keçmişin presedent mahiyyəti var və həm də bu səbəbdən hazırda Ermənistan konstitusiyasına dəyişiklik zəruridir. Dəyişikliyin olmaması isə sülh yolundakı başlıca maneədir.

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan liderinin BRICS sammitində iştirakı böyük məmnunluqla qarşılanıb





Səhifə ⇨ 2

## Təkqütblü dünyaya qarşı ədalət gözləntimiz

**Rusiya Prezidenti Vladimir Putin hələ 2024-cü ilin yanvarında BRICS-ə artan marağın səbəblərindən danışarkən demişdi ki, quruma üzv olmaq istəyənləri təşkilatın fəaliyyətinin əsasını təşkil edən prinsiplər cəlb edir. Rusiya lideri sözügedən prinsipləri də açıqlamışdı: “Bu, suveren bərabərlik, öz inkişaf yolunun seçiminə hörmət, maraqların qarşılıqlı nəzərə alınması, açıqlıq, konsensus, çoxqütblü dünya nizamı və qlobal maliyyə, ticarət sisteminin ədalətli modelini formalaşdırmaq istəyi, zəmanəmizin ən aktual problemlərinə kollektiv həll yollarının axtarışıdır”.**




Bu məqalədə Prezident Putinin dediyi məqamlardan söz açacağıq. Söz açacaq və məsələyə ölkəmizin BRICS-ə marağı kontekstində izah etməyə çalışacağıq. Yeri gəlmişkən, bu maraq özünü ən ciddi şəkildə göstərməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin təşkilatın XVI sammitinin keçirildiyi Kazana səfəri də bunu təsdiqləməkdədir. Ancaq hələlik BRICS-lə bağlı bəzi məqamları vurğulayaq.

Oktyabrın 22-də Kazanda öz işinə başlamış XVI BRICS sammitinin Rusiya üçün son dərəcə mühüm əhəmiyyəti var. Sammit istər diplomatik, istər mənəvi, istərsə də siyasi baxımdan Moskvaya çox böyük üstünlüklər qazandırır. Çünki tədbiri Ukrayna ilə müharibə səbəbindən dünyanı cənginə almış anti-Rusiya dalğasının qırılma nöqtəsi kimi də dəyərləndirmək mümkündür.

Bəli, sammitin miqyası və iştirakçı ölkələrin sayı Rusiyanın beynəlxalq arenadan təcrid olunmadığını göstərir. Üstəlik, onun qlobal tərəfdaşlığının genişlənməsi amili də var. Belə nəticəyə gəlmək mümkündür ki, anti-Rusiya demarşları uğursuzdur və ölkə çoxqütblü dünya nizamının qurulmasında mühüm pay sahibidir. Bunu rəqəmlər də təsdiqləyir.

*(ardı 5-ci səhifədə)*

## Seçkilərdən sonra Gürcüstanı nələr gözləyir?



Səhifə ⇨ 4

## Bakı konfransının əsas sənədləri




Səhifə ⇨ 10

# Cənub Qaz Dəhlizi enerji bazarına önəmli çıxışdır

**Əsrimizin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizi 4 seqmentdən – “Şahdəniz Mərhələ-II”, Cənubi Qafqaz Boru Kəməri, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Qaz Boru Kəmərindən (TAP) ibarətdir.**




CQD-nin 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı bu dəhlizin sisteminə vurulub. Beləliklə, Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qurulan “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarından birgə qaz hasilatına başlanılıb. Həmin il iyulun sonunda “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olunduğu vaxtdan isə hasilat tədricən artıb. Mövcud “Şahdəniz” qurğularının hasilat gücü gündəlik 56 milyon (ildə 20 milyard) standart kubmetr təşkil edib.

*(ardı 9-cu səhifədə)*



## Xəzər imdad diləyir

Səhifə ⇨ 10

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri

## Kazan Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfərə gəlib.**

Dövlətimizin başçısının təyyarəsini Kazan Beynəlxalq Hava Limanına enərkən hərbi helikopterlər müşayiət edib.

Kazan Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov qarşıladı.

## Azərbaycan Prezidentinin Kazanda Tatarıstan Respublikasının Rəisi ilə görüşü









**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.**

Dövlətimizin başçısını salamlayan **Rüstəm Minnixanov dedi:**

– İlham Heydər oğlu, fürsətdən istifadə edərək Rusiya-Azərbaycan münasibətləri çərçivəsində respublikamıza göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istərdim. Biz bunu çox yüksək qiymətləndiririk və əlbəttə ki, bizim Prezidentin belə bir dövlət səfərini həyata keçirdiyinə görə fəxr edirik. Həmin səfəri çox yaxşı işıqlandırdılar. Bu yaxınlarda Siz bizim rəhbəri təbrik etdiniz, çoxlu işgüzar məsələ var idi. BRICS-i bizə etibar ediblər. Vaxt tapıb gəlməyiniz və iştirak etməyiniz bizim üçün böyük şərəfdir. İcazə versəniz, həmkarlarımızla gördüyümüz işlərlə bağlı bəzi məsələləri məruzə etmək istərdim.

**Prezident İlham Əliyev dedi:**

– Rüstəm Nurqaliyeviç, sağ olun. Bir daha qardaş torpaqda olmağıma şadam. İlk növbədə, Sizi və Tatarıstan Respublikasının bütün sakinlərini bu əlamətdar hadisə - BRICS sammitinin, həmçinin "BRICS+"un keçirilməsi münasibətilə təbrik etmək istərdim. Bu, Rusiya Federasiyası rəhbərliyinin respublikaya, şəxsən Sizə, Tatarıstan vətəndaşlarına xüsusi münasibətinin təzahürüdür, həmçinin Tatarıstanın Sizin rəhbərliyinizlə nail olduğu potensialın göstəricisidir. Çünki belə bir irimiqyaslı sammitin keçirilməsi, əlbəttə ki, tədbirlərin, dövlət başçılarının ikitərəfli görüşlərinin təşkili üçün resursların, infrastrukturun, o cümlədən mehmanxana şəbəkəsinin olmasını tələb edir. Ona görə də əvvəlcədən səmimi təbriklərimi çatdırıram. Əminəm ki, hər şey ən yüksək səviyyədə keçəcək.

Əlbəttə, Tatarıstan ilə Azərbaycan arasında münasibətlər Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin mühüm tərkib hissəsidir. Siz də qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti bu ilin avqustunda Azərbaycana dövlət səfəri etdi. Bundan sonra da biz görüşmüşük. Beləliklə, ikitərəfli münasibətlərin dinamikası, o cümlədən Tatarıstan-Azərbaycan ikitərəfli formatı çox yaxşıdır. Bu gün onları müzakirə edəcəyik. Bizim yoldaşlarımız da görüşümüzə hazırlıqlı gəliblər. Zənnimcə, yaxın vaxtlarda yaxşı nəticələrin şahidi olacağıq. Fürsətdən istifadə edərək, bir daha təbriklərimi çatdırmaq və Sizin üçün münasib bir vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istəyirəm.

**Rəis Rüstəm Minnixanov:** Sağ olun. Biz həm işgüzar, həm də turistik baxımdan imkan taparaq dünya səviyyəli kompleksləri qiymətləndirdik və onlara heyran olduq. Mən hələ Bakını demirəm. Bakı bizim üçün işləri necə təşkil etmək, təcrübə toplamaq baxımından özlüyündə bir örnəkdir. Bizim artıq ziyarət etdiyimiz turistik dağxizək mərkəzi isə, əlbəttə, hamımızı valeh etdi. Bunun üçün Sizə çox sağ olun deyirik.

**Prezident İlham Əliyev:** Gələ bilərsiniz. Elə mövsüm də yenicə başlayır, gəlin. Yeri gəlmişkən, artıq ilk qar yağıb.

**Rəis Rüstəm Minnixanov:** Biz Sizin pərəstişkarınızıq.

**Prezident İlham Əliyev:** Sağ olun. Belə bir sürpriz haqqında təyyarədə öyrəndim. Sağ olun.

Azərbaycan Prezidentinin Tatarıstanın ali dövlət mükafatı ilə təltif olunması haqqında fərman oxundu: "Tatarıstan Respublikası Rəisinin Fərmanı ilə Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsinə görə Prezident İlham Əliyev "Dostluq" ordeni ilə təltif olunur".

**Rəis Rüstəm Minnixanov:** Bu, "Soller" şirkətidir.

**Prezident İlham Əliyev:** Bilirik.

**Rəis Rüstəm Minnixanov:** Həmin avtomobillərdən ən yaxşı yerlərdə istifadə etmək üçün xahiş etmişdik.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Rüstəm Nurqaliyeviç. Belə yüksək mükafata görə təşəkkür edirəm. Bu, mənim üçün həqiqətən də böyük sürprizdir. Bu barədə təyyarə Kazana enəndə öyrəndim. Tatarıstan Respublikasının yüksək ordeni ilə təltif olunmaq böyük şərəfdir. Bütün Azərbaycan xalqı adından, şəxsən öz adımdan bir daha Sizə təşəkkür edirəm. Elə təyyarədə Sizin Azərbaycana və Bakıya sonuncu səfərinizi xatırlayırdım. Siz həm Cəbrayılda, həm də Zəngilanda tatar icması ilə birlikdə Sabantuy bayramında iştirak edirdiniz. Hədiyyəyə görə də sağ olun. Biz onu elə Sizin olduğunuz həmin bölgələrə - Zəngilana, Cəbrayıla göndərəcəyik, orada onlara çox ehtiyac var. Bu mükafata görə Sizə bir daha təşəkkürümü bildirirəm.

## Dövlət başçımızın Kazanda "Sberbank"ın İdarə Heyətinin sədri ilə dialoqu



**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref ilə görüşü olub.**

German Qref rəhbərlik etdiyi bankın həyata keçirdiyi işlər, o cümlədən bankın maliyyə sektoru ilə yanaşı, rəqəmsallaşma həlləri vasitəsilə səhiyyə, sosial, təhsil və digər sahələrlə bağlı fəaliyyəti barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. O, Azərbaycanın sürətli iqtisadi yüksəlişini və sosial inkişaf meyillərini xüsusi qeyd etdi.

Görüşdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

## İlham Əliyev Serbska Respublikasının Prezidenti ilə görüşüb



**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub.**

Milorad Dodik Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə çatdırmağı xahiş etdi.

Milorad Dodik Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. O, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə təbriklərini çatdırdı.

"Siz suveren Azərbaycanın güclü Liderisiniz. Güclü Lider olmadan güclü dövlət də ola bilməz", - deyən Milorad Dodik Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurla inkişaf etməsini məmnunluqla qeyd etdi.

O, investisiyalar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu deyərək, Azərbaycanın yol infrastruktur şirkətlərinin Balkan regionunda uğurlu layihələr həyata keçirdiyini qeyd etdi və Bosniya və Herseqovinanın da bunda maraqlı olduğunu vurğuladı.

Prezident İlham Əliyev həm işğal, həm də işğaldan sonrakı dövrlərdə Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Bosniya və Herseqovinaya səfərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev enerji, nəqliyyat infrastrukturu və investisiyalar sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

# Azərbaycan və Laos prezidentlərinin görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 23-də Kazanda Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit ilə görüşü olub.**

Laos Prezidenti ölkəsi ilə Azərbaycan arasında yaxşı əlaqələrin olduğunu vurğulayaraq iqtisadiyyat, ticarət, investisiya, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızın inkişafı üçün əlverişli perspektivlərin mövcudluğunu qeyd etdi.

Thonqlun Sisulit hələ 1981-ci ildə Bakıda olduğunu məmnunluqla xatırlayaraq, ötən dövr ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini vurğuladı. O, sovetlər dövründə çox sayda laoslu mütəxəssisin Azərbaycanda təhsil almasına görə təşəkkürünü bildirərək, bu gün də həmin şəxslərin Laosda nazir, nazir müavini və digər rəhbər vəzifələrdə fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini qeyd edib.

Thonqlun Sisulit dövlətimizin başçısını Laosa səfərə dəvət etdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti dəvətə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadiyyat, ticarət,



enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün müvafiq işçi qrupunun yaradılması və mütəxəssislərdən ibarət hökumət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın təhsil sahəsində Laosa bundan sonra da dəstək göstərməsi imkanlarına toxundu.

Görüşdə gələn il Azərbaycan ilə Laos arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunacağı vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı qeyd edildi.

# Kazanda XVI BRICS Sammitinin keçirilməsi münasibətilə rəsmi ziyafət verilib

## *Prezident İlham Əliyev tədbirdə iştirak edib*





**Oktyabrın 23-də Kazanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından XVI BRICS Sammitinin keçirilməsi münasibətilə rəsmi ziyafət verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı "Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzinə gəldi.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi salamladı.

# Prezident İlham Əliyevin Kazanda Yeni İnkişaf Bankının prezidenti ilə görüşü



**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşü olub.**

Dilma Russeff Azərbaycanda COP29-un keçirilməsini xüsusi qeyd edərək, bu tədbirdə iştirak edəcəyini məmnunluqla vurğuladı. O, iqlim maliyyələşməsi mövzularının beynəlxalq maliyyə institutlarının diqqət mərkəzində olduğunu dedi və bu nöqteyi-nəzərdən Bakıda keçiriləcək COP29-un önəminə toxundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran əməkdaşlıq imkanları müzakirə edildi.

**AZƏRTAC**

# **Hikmət Hacıyev:** Azərbaycanın iqlimlə bağlı rolu regional sülh səylərinin bir hissəsidir

**Neft hasil edən dövlətləri uyğun olmayan ev sahibi kimi qiymətləndirmək ikiüzlü oyundur. Gələn ay Azərbaycan COP29-a ev sahibliyi edəcək və artıq 28-ci dəfədir ki, iqlim sammiti neft və qaz hasil edən ölkədə keçiriləcək.**

Bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Böyük Britaniyanın "Financial Times" nəşrinə açıqlamasında söyləyib. Hikmət Hacıyev qeyd edib ki, İsveçrə istisna olmaqla, bu konfransa ev sahibliyi edən ölkələrin hamısı hasilatla məşğuldur. İstisnasız olaraq, dünyanın bütün ölkələri qazıntı yanacağı istehlakçısıdır. Belə əsassız iddianın əvəzinə, bu ölkənin ev sahibliyi etmək üçün hansı yolu keçdiyini, nəyə nail olmağı planlaşdırdığını və bunun səbəbini soruşmaq daha məntiqli olardı.



Azərbaycan bu il iqlim konfransına ev sahibliyi edəcəyini əsla gözləmirdi; biz 30 ildir ərazimizin az qala beşdə birini işğal edən qonşu Ermənistan tərəfindən təklifimizə veto qoyulacağını gözləyirdik. Bununla belə, ötən ilin dekabrında gözlənilməz razılaşmaya əsasən, Ermənistan davam edən sülh danışıqlarının bir hissəsi kimi Azərbaycanın ev sahibliyini dəstəkləməyə razılaşdı. Danışıqlar davam edir və mühüm irəliləyiş əldə olunub. Sərhəd delimitasiyası komissiyaları fəal işləyirlər. Ermənistan komissiyası 1990-cı ildə post-sovet ölkələri arasında sərhədlərin suverenliyinə dair öhdəliyi təsbit edən Alma-Ata Bəyannaməsini bu yaxınlarda qəbul etdi. Çoxları COP-dan əvvəl rəsmi sülh sazişinin imzalanmasını istərdi, lakin danışıqlar otağında sazişi razılaşdıran iki tərəfin çox fərqli təklifləri var. Ermənistan konstitusiyasında hələ də Azərbaycana qarşı revanşist ərazi iddiası yer alır. Sülh sazişini yekunlaşdıra biləcəyimiz sürət daha çox Ermənistanın bu məsələni nə qədər tez həll edə biləcəyindən asılıdır. Bunu durğunluq adlandıran tənqidçilər özlərinə sual verməlidir ki, hələ də onlara qarşı ərazi iddiası irəli sürən keçmiş düşməni ilə sülh sazişi imzalaya bilərmi? Bununla belə, sazişin imzalanmasının COP-un başlayacağı vaxta qədər baş verib-verməyəcəyindən asılı olmayaraq, göstərilən səylər baxımından bu tədbir sülh konfransı olacaq.

Prezidentin köməkçisi vurğulayıb: "Builki COP-da qazıntı yanacaqlarından qlobal keçidi reallığa çevirmək üçün maliyyə məqsədinin – "Yeni Kollektiv Kəmiyyət Hədəfi"nin geniş təşviqinə diqqət yetiriləcək. Bundan əlavə, Azərbaycan neft və qaz hasil edən digər dövlətlərin və şirkətlərin sərmayə qoyacağını gözlədiyimiz iqlim fondu yaradıb. Azərbaycan neft və qaz istehsalçısı olan ölkənin bərpaolunan enerjiyə necə keçid edə biləcəyi örnəyini nümayiş etdirir. Biz təkcə regionun ən böyük bərpaolunan layihələrini həyata keçirmirik, həm də mədən yanacağından elektrik enerjisi ixracına keçid edirik.

Azərbaycan Aİ ilə tərəfdaşlıq şəraitində Xəzər dənizinin külək enerjisini qitə ilə əlaqələndirmək üçün Qara dənizin dibi ilə elektrik kabeli çəkilməsi layihəsini inkişaf etdirir. Xarici enerji bazarlarını hərəkətə gətirən tələbata təsir edə bilməsək də, təklif tərəfini yenidən formalaşdırırıq. Azərbaycan COP-a ev sahibliyi edir, çünki biz sülh yolu ilə gedirik. COP-da biz qazıntı yanacaqlarından bərpaolunan mənbələrə ədalətli keçidi maliyyələşdirmək üçün yeni fondların tərəfdarı olacağıq, bu dəyişikliyi artıq özümüzdə fəal surətdə davam etdiririk."

*

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa komissarı Nikolas Şmitin çərşənbə axşamı Strasburqda Avropa Parlamentində səsləndirdiyi əsassız ittihamlara və absurd çağırışlara cavab verib. Bu barədə o, "POLITICO"ya açıqlamasında danışıb.

"Avropa Parlamentindəki bəzi müzakirələr bizə absurd teatrını və ya sirki xatırladır. Dünya bu qurumda biabırçı korrupsiya əməllərini gördü. Azərbaycana qarşı bu cür əsassız iddialar səsləndirənlərin çoxu erməni lobbisi tərəfindən maliyyələşdirilir və Ermənistan hakimiyyətinin piar kampaniyasının tərkib hissəsidir", - H.Hacıyev deyib.

O, həmçinin Avropa İttifaqının İnsan Hüquqları üzrə Komissarına məsləhət də görüb:

"Başqalarına ağıl verməkdənsə, Avropa İttifaqında artan insan hüquqları problemlərinə ciddi yanaşsa daha yaxşı olar. Günahsız mülki azərbaycanlıları qətlə yetirmiş erməni hərbi cinayətkarların azadlığa buraxılması çağırışları nasist hərbi cinayətkarlarının azad edilməsinə bərabərdir".

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım,**

Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca sarsıtdı.

Biz bu xain terror aktını şiddətlə qınayır, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**Allah rəhmət eləsin!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 23 oktyabr 2024-cü il**

# Macarıstanın Baş naziri Zati-aliləri cənab Viktor Orbana

**Hörmətli cənab Baş nazir,**

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Qarşılıqlı inam və etimada əsaslanan və gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan-Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin bütün sahələrdə genişləndirilməsinə, o cümlədən strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə xüsusi önəm veririk. Ali səviyyədə qarşılıqlı anlaşma və fəal siyasi dialoqun mövcudluğu bunun üçün əlverişli zəmin və imkanlar formalaşdırmışdır.

Əminəm ki, Azərbaycan-Macarıstan dostluq münasibətlərinin və strateji tərəfdaşlığının möhkəmləndirilməsi və inkişafı yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvilərdə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 21 oktyabr 2024-cü il**

# Hökumət rəsmiləri yağışın fəsadları ilə bağlı toplaşdı



**Oktyabrın 23-də Nazirlər Kabinetində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə son günlər Bakıda və Abşeron yarımadasında normadan artıq yağıntı ilə müşahidə olunan qeyri-sabit hava şəraiti, intensiv yağıntının törətdiyi fəsadların araşdırılması və nəticələrinin aradan qaldırılması, gələcəkdə belə halların baş verməsinin qarşısının alınması ilə bağlı məsələlərə həsr olunmuş iclas keçirilib. İclasda aidiyyəti qurumların rəhbərləri iştirak ediblər.**

Baş nazir Əli Əsədov yağıntıların normadan artıq olması kimi obyektiv səbəblə yanaşı, subyektiv səbəblərin də mövcudluğunu vurğuladı, müvafiq infrastrukturun tam gücü ilə işləməməsinin bir sıra ciddi fəsadlar və itkilərlə nəticələndiyini bildirdi.

Hazırda ziyan dəymiş infrastrukturun fəaliyyətinin bərpası üçün zəruri tədbirlərin görüldüyü, vəziyyətin araşdırıldığı və nəticələrin aradan qaldırılmasından sonra yekun qərarların qəbul ediləcəyi diqqətə çatdırıldı.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, daxili işlər naziri Vilayət Eyvazov, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov, Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və başqaları yağıntının fəsadları, onların ilkin məlum olan səbəbləri və aradan qaldırılması ilə bağlı məruzələrlə çıxış etdilər.

İclasda ən təxirəsalınmaz texniki məsələlərin həlli, bütövlükdə, Bakı şəhərinin infrastrukturuna dair məsələlər müzakirə edildi, müvafiq tapşırıqlar verildi.

Baş nazir hava şəraitinin törətdiyi fəsadların nəticələrinin aradan qaldırılmasının sürətləndirilməsinə, səbəblərinin tam araşdırılaraq təhlil edilməsinə, gələcəkdə bu cür hadisələr zamanı mümkün fəsadların qarşısının alınması üçün qısamüddətli və uzunmüddətli tədbirlərin görülməsinə, müvafiq infrastrukturun tam hazır vəziyyətə gətirilməsi üçün təxirəsalınmaz addımların atılmasına dair tapşırıqlar verdi.

Həyata keçiriləcək bütün tədbirlərin keyfiyyətlə və qısa zamanda başa çatdırılmasına aidiyyəti qurumların ciddi məsuliyyət daşıdığı diqqətə çatdırıldı.

**XQ**

# Zakir Həsənov Qırğızıstanda



**Qırğızıstanda rəsmi səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov həmin ölkənin müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov ilə görüşüb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Görüşdə ölkələr arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Görüşün sonunda "Azərbaycan Müdafiə Nazirliyi ilə Qırğızıstan Müdafiə Nazirliyi arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı" imzalanıb.

*

Səfər çərçivəsində general-polkovnik Z.Həsənov Qırğız Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov ilə birgə Bişkekdə "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib.

Abidə önünə əklil qoyulub, 1916-cı ildə baş vermiş faciə qurbanlarının xatirələrinə ehtiram nümayiş olunub.

# İrəvanda yeni isterika dalğası

(əvvəli 1-ci səhifədə)

Sənədin lehinə 67 deputat səs verib. Bitərəf qalan və əleyhinə səs verən olmayıb. Başqa sözlə desək, parlament müxalifəti layihə üzrə səsverməni boykot edib. Ali qanunverici orqanda təmsil olunan müxalifətçi “Hayastan” və “Şərəfim var” fraksiyaları sənədin gələcəkdə dövlət əleyhinə güzəştlərə haqq qazandırmaq məqsədi



daşıdığını bildirərək, müzakirə və səsvermədə iştirak etməyiblər.

Parlamentin xarici əlaqələr üzrə daimi komissiyasının rəhbəri Sarkis Xandanyan müxalifətin hərəkətlərini məsuliyyətdən yayınmaq cəhdi adlandırıb. “Müxalifət hər dəfə səs vermək, hətta, əleyhinə səs vermək əvəzinə, məsuliyyətli qərarlar qəbul etməkdən yayınmağa üstünlük verir” – deyə komissiya sədri bildirib.

Ermənistan baş nazirinin müavini, dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin demarkasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın həmsədri Mher Qriqoryan parlamentdə sənədi təqdim edərkən bildirib ki, gələcəkdə iki ölkə arasında dövlət sərhədi haqqında beynəlxalq müqavilə imzalanacaq.

Onu da qeyd edək ki, sentyabrın 26-da Ermənistan konstitusiya məhkəməsi SSRİ-nin dağılması zamanı, yəni 1991-ci ildə istifadədə olan xəritələrə istinad edərək, komissiyaların fəaliyyətinə dair əsasnamənin təsdiq edilməsi haqqında qanun layihəsinin əsas qanuna uyğunluğunu tanıyıb. Oktyabrın 21-də parlamentin xarici əlaqələr üzrə daimi komissiyası sənədi təsdiq edərək deputatların müzakirəsinə göndərib.

Bu istiqamətdə bir aya yaxındır davam edən müzakirələr Azərbaycanla bağlı hər bir məsələyə, necə deyərlər, ağına-bozuna baxmadan etiraz etməyi adət halına gətirmiş Ermənistan cəmiyyətinin radikal-revanşist kəsimi arasında yeni ciddi etiraz dalğasının baş qaldırmasına səbəb olub. Məsələn, müxalifətdə olan “Respublika” partiyasının yaydığı bəyanatda bildirilib ki, Ermənistandakı hakim rejim sərhəd təhlükəsizliyi komissiyalarının əsasnaməsini təsdiq etməklə Azərbaycanın göstərişi ilə həyata keçirilən (?), Ermənistanın ərazi bütövlüyünü pozan və növbəti ciddi ərazi güzəştləri riskini ehtiva edən (?) prosesi ört-basdır etməyə tələsir.

Qeyd edilib ki, 2020-ci ilin iyununda anti-konstitusion dəyişikliklər yolu ilə formalaşan konstitusiya məhkəməsinin çoxluğu bu il sentyabrın 26-da əsasnamədə nəzərdə tutulmuş öhdəliklərin əsas qanuna uyğun olması barədə qərar qəbul edib. “Paşinyan rejimi konstitusiya məhkəməsinin bu biabırçı qərarından, şübhəsiz ki, öz gələcək təslimolma siyasətini “legitimləşdirmək” üçün istifadə edəcək. Aydındır ki, Azərbaycan SSRİ-nin dağılması zamanı mövcud olan sərhədləri sonrakı demarkasiya üçün əsas kimi götürməkdən imtina etmək üçün zəmin hazırlayır. Vurğulamaq lazımdır ki, Alma-Ata Bəyannaməsi heç bir halda sərhədin demarkasiyası üçün əsas ola bilməz, çünki orada Ermənistan və Azərbaycan arasında mövcud sərhədlərin tanınması ilə bağlı heç nə yoxdur. Əgər Ermənistan hökumətinin məqsədi SSRİ-nin süqutu zamanı mövcud olan sərhədi demarkasiya üçün əsas kimi qəbul etməkdirsə, bunun üçün yeganə hüquqi əsas “Ermənistan SSR və Azərbaycan SSR-in ayrı-ayrı torpaq istifadəçiləri arasında sərhədlərin bərpa olunması haqqında” 1988-ci il 12 yanvar tarixli protokoldur” – deyə bəyanatda bildirilib.

“Hayakve” təşəbbüsünün həmtəsisçisi Avetik Çalabyan isə “Facebook” səhifəsində yazıb ki, baş nazirin müavini Mher Qriqoryan Ermənistan ərazilərinin Azərbaycana verilməsinə (?) və bu il Tavuşdan qoşunların birtərəfli qaydada çıxarılmasına gülünc arqumentlə haqq qazandırmağa çalışıb: “Cənab Qriqoryan deyib ki, bu işin əsasını SSRİ Silahlı Qüvvələri Baş Qərargahının 1976-cı il xəritəsi təşkil edir və onlar yalnız mövcud sərhədi bərpa edirlər, Ermənistanla Azərbaycan arasında yeni sərhəd çəkmirlər”. Daha sonra baş nazirin müavininə bir neçə sual ünvanlayan Çalabyan M.Qriqoryanın dövlət məmuru kimi öz səlahiyyət həddini aşdığını, heç bir qanuni əsas olmadan Ermənistan ərazisini Azərbaycana verdiyini (?) iddia edib.

Bildirib ki, “Hayakve” təşəbbüsü Qriqoryana qarşı cinayət işinin açılmasında, onun məhkəməyə gəlməsində və orada bu suallara cavab verməsində israrlıdır.

Bu istiqamətdə XQ-yə açıqlama verən **Dövlət İdarəçilik Akademiyasının mü-**



**şaviri, Bakı Politoloqlar Klubunun rəhbəri, politoloq Zaur Məmmədov** bildirdi ki, Ermənistan parlamentinin komissiyaların fəaliyyətinə dair əsasnamənin təsdiq edilməsi haqqında qanun layihəsini təsdiqləməsi, əslində, Ermənistanın dövlət maraqlarına uyğundur. Onun sözlərinə görə, məsələyə etiraz edən müxalifət partiyaları bu və ya digər şəkildə revanşist ambisiyalarını ortaya qoyurlar. Ermənistanın hazırkı hakimiyyəti çox yaxşı bilir ki, delimitasiya və demarkasiya rəsmi İrəvan üçün həyati vacib prosesdir: “Onlar bu gün əllərində olan tarixi torpaqlarımızı, yəni Qərbi Azərbaycanı saxlamaq üçün bu varianta əl atırlar. Əslində, Ermənistan rəsmiləri bir neçə dəfə eyham da vurublar ki, əsas məqsəd 29,7 min kvadratkilometrlik ərazini qoruyub saxlamaqdan ibarət olmalıdır”.

Etirazlara gəldikdə isə Z.Məmmədov qeyd etdi ki, bu etirazlar kütləvi deyil. Parlamentdəki 2-3 siyasi partiya tərəfindən qanunverici orqanda və ondan kənarda etirazçı çıxışlar edilir: “Amma real olaraq cəmiyyətin də bu məsələlərə münasibətinə baxsaq, o zaman deməliyik ki, münasibət həm də sosioloji sorğular vasitəsilə ölçülür. Son sosioloji sorğular göstərir ki, Ermənistanda müxalifəti təmsil edən siyasi partiyalara əhalinin rəğbətinin dərəcəsi üst-üstə götürdükdə heç 10 faizi belə keçmir. Belə olan təqdirdə Paşinyan iqtidarı çox yaxşı başa düşür ki, onlara alternativ yoxdur. Buna görə də həm daxili, həm də xarici siyasətlə bağlı istədikləri qanun layihələrini qəbul etdirə bilirlər. Amma burada bizi maraqlandıran, ölkəmiz üçün vacib məqam ondan ibarətdir ki, hazırda Rusiya və Ukrayna arasında davam edən müharibə, ABŞ-dəki prezident seçkiləri, yəni həm Cənubi Qafqaz ətrafında, həm də ümumilikdə, regionda baş verən proseslərin mürəkkəbliyi və hərənin, belə deyək, başının öz işinə qarışması Bakı və İrəvan arasındakı danışıqları, sülh müqaviləsinin imzalanması prosesini sürətləndirə bilərdi”.

Müsahibimiz təəssüflə bildirdi ki, Nikol Paşinyan bu boşluqdan istifadə etmədi və referendum keçirmədi. Halbuki, Paşinyan iyun ayında demişdi ki, Azərbaycanla ərazilərin mübadiləsinə dair razılaşma olarsa, Ermənistanda referendum keçirilməlidir. İndi Ermənistanda referendum keçirmək və xalqın bu və ya digər məsələlərə dair öz mövqeyini bildirməsi üçün ən münbit an idi. Əgər bu dövrdə referendum keçirilsəydi, o zaman Bakı və İrəvan arasında danışıqlarda yeni nəticələri də görə bilərdik. Odur ki, delimitasiya-demarkasiya məsələsi Ermənistan nöqteyi-nəzərindən maraqlı məsələ olsa da, rəsmi Bakı Azərbaycanın vacib və prinsipial əhəmiyyətli məsələlərilə bağlı bir neçə dəfə uğurlar qazansa da, əsas məsələ məhz sülh müqaviləsini imzalanması və Ermənistanın konstitusiyasında, habelə digər qanunvericilik aktlarında ölkəmizə ərazi iddialarından əl çəkməsidir. Buna isə Paşinyan getmədi. Nəticə də hər kəsin gözləri önündədir. Bu, belə deməyə əsas verir ki, Nikol yenə də şəxsi ambisiyalarını hər şeydən üstün tutur.

Z.Məmmədovun fikrincə, Paşinyan 2026-cı ildə keçiriləcək parlament seçkilərində qalib gəldikdən sonra arxayınlaşaraq 2027-ci ildə, guya, konstitusiyaya dəyişiklik və digər məsələləri həll etmək istəyəcək. Proses bu və ya digər şəkildə uzanır. Biz görürük ki, delimitasiya və demarkasiya prosesi də bir müddətdir staqnasiya (müəyyən sahələrdə, maliyyə bazarlarında və ya ümumilikdə iqtisadiyyatda durğunluq vəziyyəti–S.H.) vəziyyətində qalıb. Eyni zamanda, Zəngəzur dəhlizinin, digər nəqliyyat kommunikasiyalarının açılması, sərhədlərlə bağlı məsələ də indiyədək aydınlaşmayıb. Bütün bu məsələlərin kökündə isə Azərbaycana qarşı ərazi iddialarının hüquqi sənədlərdən çıxarılmaması dayanır.

**“Cənubi Qafqaz” politoloqlar**



**klubunun rəhbəri, siyasi icmalçı İlqar Vəlizadə** isə dedi ki, Ermənistan parlamentindəki diskussiyalar, ondan öncə bu məsələ ilə bağlı müzakirələr cəmiyyətdə delimitasiya və demarkasiya ilə bağlı birmənalı fikir formalaşmadığını göstərir. Yenə də revanşist qruplar, Qarabağ klanının tör-töküntüləri prosesi ləngitməyə çalışırlar: “Aydındır ki, Ermənistanla Azərbaycan arasında normallaşma prosesinin tərkib hissəsi olan komissiyaların əsasnaməsinin təsdiqi onlar üçün vasitəyə çevrilib. Onlar bu vasitədən istifadə edərək, Paşinyan iqtidarına təzyiq göstərmək, onu satqınlıqda ittiham etmək istəyirlər. İstəyirlər ki, son nəticədə bu ittihamlar, çağırışlar əsnasında özlərinin müxalif gündəliklərini tərtib və gərəkli olduqlarını cəmiyyətə sübut etsinlər. Məqsəd təxminən bundan ibarətdir. Onlar qismən də olsa, bu məqsədə çatmaq üzrədirlər. Çünki Ermənistan cəmiyyətində hələ də revanşist fikirlər hökm sürür. Bu şəxslər, siyasi dairələr revanşist fikirləri istismar edərək hələ də gündəmdə qalmağa müvəffəq olurlar və müəyyən destruktiv narrativləri yürüdə bilirlər”.

İ.Vəlizadənin sözlərinə görə, digər tərəfdən buna rəvac verən Paşinyan özü, hakimiyyət dairələridir. Çünki onlar bir tərəfdən sülhdən danışır, digər tərəfdən sülhlə bağlı real addımlar atmırlar. Delimitasiya və demarkasiya üzrə komissiyanın əsasnaməsinin təsdiq olunmasına dair qanun layihəsinin qəbul olunması heç də o demək deyil ki, Ermənistan sülhə can atır. Bu, sadəcə, məcburiyyətdən irəli gələn məsələdir. Ermənistan tərəfi delimitasiya və demarkasiya olunmuş dövlət sərhədinin legitimliyini təsdiq etmək, yəni öz addımlarını legitimləşdirmək üçün bunu edir. Sülhə can atdığı üçün etmir. Çünki sülhə can atsaydılar kompleks şəkildə fəaliyyət göstərərdilər. Yəni, militarizasiyadan əl çəkərdilər, sülh müqaviləsi ilə bağlı Azərbaycanın şərtlərinə əməl edərdilər. Biz isə bunu görmürük. Onlar yalnız epizodik halda müəyyən güzəştlərə gedirlər. Əslində, bunu güzəşt də adlandırmaq olmaz. Sadəcə, reallıqları qəbul edərək bu addımları atırlar: “Amma, ümumiyyətlə, onlar öz cəmiyyətlərinə kifayət qədər aydın izah etmirlər ki, sülh gündəliyi üzərində işləmək təkcə delimitasiya və demarkasiya üzrə əsasnaməni təsdiq etməkdən ibarət deyil. Bu, digər məsələləri əhatə edir ki, rəsmi İrəvan hazırda onları yerinə yetirməyə tələsmir”.

Politoloq hesab edir ki, revanşistlər də bundan istifadə edir, öz tələblərini irəli sürür və iqtidarın siyasətinə müəyyən dərəcədə müqavimət göstərirlər. Doğrudur, parlamentdə hakim partiyanın deputatlarının çoxluğu müxalifətin təşəbbüslərinin baş tutmasına imkan yaratmır. Amma bütün hallarda bu diskussiyalar özlüyündə çox narahatedicidir. Daha doğrusu, bu, əslində, bizi deyil, daha çox Ermənistan cəmiyyətini narahat etməlidir. Çünki bu müzakirələr revanşist qüvvələrin sayının və sıralarının çox olduğunu göstərir. Onlar müəyyən dərəcədə öz səslərini ucaltmağa, cəmiyyətin bəzi hissəsinin rəğbətini qazanmağa nail olurlar.

***Səxavət HƏMİD***
***XQ***

Onlayn müsahibə

# Seçkilərdən sonra Gürcüstanı nələr gözləyir?

**Gürcüstanda yeni parlament seçkilərinə cəmi bir gün qalır. Amma ölkədə seçki ilə bağlı ciddi narahatlıqlar səngimir. Seçki ərəfəsində ölkəyə qarşı Qərbdən də ciddi təzyiqlər artmaqdadır. Artıq Avropa İttifaqı Gürcüstanın təşkilata qəbul perspektivini artıq bloklayıb. ABŞ tərəfindən dəstəklənən ölkə müxalifəti isə seçkilərin nəticələrinin saxtalaşdırılacağını bəhanə gətirərək ölkədə qarışıqlıq yaratmağa meyillidir. Bəs bu vəziyyətdən Gürcüstan çıxa biləcəkmi?**



Bu və digər suallar ətrafında gürcü politoloq, siyasi elmlər doktoru İrakli Qoqava ilə söhbətləşdik.

**– Cənab Qoqava, necə hesab edirsiniz, Qərbin Gürcüstana təzyiqləri, doğrudanmı, demokratiya və insan haqlarının pozulması ilə bağlıdır?**

– İndi Qərbdə “demokratik” adlandırılan sistem skeptisizm yaradır. Bu, daha doğrusu, “fasad demokratiyasıdır” və Qərbin hakim elitasının maraqlarına xidmət edir. İdeoloji və siyasi təsirə nail olmaq üçün “demokratiya” adlanan nəsnənin təbliği ənənəvi cəmiyyət üçün bir vasitə kimi istifadə olunur. “Fasad demokratiyası” ideoloji təxribat məqsədi ilə yerli sistemlərə “özümüzünküləri” daxil etmək, cəmiyyətə yanlış göstərişlər vermək üçün istifadə olunur. Buna görə çoxlu pul xərclənir, daha çox faydalanan isə beşinci kolon olur.

Beynəlxalq hüquq-müdafiə təşkilatları və jurnalist birlikləri də Gürcüstan kimi ölkələrdə xarici dövlətlərin və qlobal elitaların maraqlarını təmin etmək üçün yalnız bir vasitədir. Ancaq bu cür təşkilatların lüstrasiyası çoxdan baş verib və onlara əhəmiyyət verməmək lazımdır. Biz özümüz də cəmiyyətin uzunmüddətli maraqlarından çıxış edərək, ölkələrimizdə insan hüquqları standartlarına riayət etməli, bəzi xəyali beynəlxalq reytinqlərə xüsusi önəm verməməliyik.

Gürcüstanda qəbul edilən “Xarici təsirlər haqqında”, eləcə də “Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında” qanunlar Qərbdə süngü ilə qarşılandı. Belə məlum oldu ki, Qərb ölkələri bizim ailə və mədəni dəyərlərimizə öz baxışlarını sırımağa çalışırlar.

Gürcüstanda insanların 80 faizdən çoxu ailə dəyərlərinə, adət-ənənələrə və mədəni koda sadiqdir. Qərb elitası isə ənənəvi dəyərlərə, mədəniyyətə və dinə yer olmayan qlobal dünya qurur. Varlılar qloballaşma və dünyanı bir mərkəzdən idarə etmək ideyasını çoxdan irəli sürürlər.




Dünyadakı geosiyasi vəziyyət şans verən kimi Gürcüstan mübarizəyə başladı. Bu, təkcə qlobal planlara qarşı deyil, həm də suverenlik uğrunda, Qərbdə bizə tətbiq edilən neokolonial modelə qarşı mübarizədir. Hesab edirəm ki, son nəticədə Gürcüstan Qərbi öz suverenliyinə hörmətlə yanaşmağa məcbur edəcək. Xammalımızı, ucuz işçi qüvvəmizi götürdükləri, bizi borc məngənəsinə saldıqları, hətta ideoloji kastrata, ruhsuz biokütləyə çevirmək istədikləri model artıq burada işləməyəcək.

**– İndiki vəziyyətdə Gürcüstan hansı inkişaf yolunu seçməlidir?**

– Gürcüstan Azərbaycana göz dikməlidir. Böyük Heydər Əliyev görkəmli siyasətçi idi, mən onu şəxsən tanıyırdım və çox hörmət edirdim. Hətta onun avtoqrafı olan bir kitabım da var. Yadımdadır, Heydər Əliyevlə görüşdə ondan kitab imzalamağı xahiş edəndə ayağa qalxdı və cibindən bir neçə qələm çıxarıb imzalamaq üçün qırmızı rəngli qələmi seçdi. Onun belə bir vərdişi məni təəccübləndirdi.

Heydər Əliyev böyük dövlət xadimi, geosiyasət patriarxı idi. O, Prezident İlham Əliyevin bu gün böyük həvəslə həyata keçirdiyi uğurların etibarlı əsasını qoydu. Çətin şəraitdə, Azərbaycan cəmiyyətinin vətəndaş müharibəsi astanasında olduğu, xarici təzyiqlərin artdığı bir vaxtda Heydər Əliyev ölkəni bu gün də davam edən düzgün müstəqil inkişaf yoluna çıxara bildi. Bu gün Azərbaycan güclü suveren dövlətdir və onun rəyi bir çox qüvvələr tərəfindən nəzərə alınır. Tarixi təcrübə göstərdi ki, Azərbaycanın seçimi düzgün olub.

Bu gün Gürcüstanın xarici siyasətini aşınmaya, deqradasiyaya doğru aparmaq istəyirlər. Rusiyaya qarşı geosiyasi mübarizədə bizdən qurban kimi istifadə etməyə çalışırlar. Bu, bizim yolumuz deyil. Gürcüstanı xarici işğaldan yalnız müstəqil siyasət xilas edə bilər.

Tarixdən də məlumdur ki, Böyük İpək yolu dövründə dövlətlərimiz – gürcü çarlığı, Şirvan, İrəvan, Qarabağ, Gəncə və digər xanlıqlar bölgədə mühüm rol oynamışlar. Bu yol hökmdarlara gəlir gətirir, müdafiə qabiliyyətini gücləndirməyə, dövlət aparatını saxlamağa imkan verirdi. XVI-XVII əsrlərdən beynəlxalq ticarət dənizə keçdi və İpək Yolu üzərindəki fəaliyyət zəiflədi. Bu, dövlət qurumlarımızın suverenliyini itirməsinin əsas səbəblərindən birinə çevrildi. İndi isə bunun əksi baş verir – əsas ticarət yolu yenidən qayıdır, o cümlədən, bizim regiona. Bu imkan 500 ildir ki, mövcud deyildi.

Amma əminəm ki, biz öz suverenliyimizi mütləq müdafiə edəcəyik. Biz beynəlxalq əməkdaşlığa tərəfdarıq, lakin suverenliyimizə və həyat tərzimizə hörmətlə yanaşırıq.

**– Gürcüstandakı seçkiqabağı mühiti necə qiymətləndirirsiniz? Yəni ölkədə sabitliyi pozmağa yönəlmiş cəhdlər bir nəticə verə bilərmi?**

– Gürcüstanda seçkiqabağı vəziyyət sakitdir, ölkədə sabitlik hökm sürür. Seçkilər zamanı nəyinsə baş verdiyini göstərmək məqsədilə informasiya mühiti yaratmağa və müşahidəçiləri buna inandırmağa cəhdlər edilir. Bu isə cəmiyyətdə isterika yaratmaq, insanları çaşdırmaq, seçkilərə qanunsuz təsir göstərmək və seçicilərin iradəsinin formalaşmasına müdaxilə etmək məqsədi daşıyır. ATƏT/DTİHB-in aralıq hesabatının dərc olunmasından sonra müxalifət üçün bu, böyük bir məyusluğa çevrildi. Məqsədli şəkildə informasiya səs-küyü yaradılır. Elə bir informasiya mühiti formalaşdırılır ki, müşahidəçilərdə Gürcüstanda xüsusi bir hadisənin baş verdiyi təəssüratını yaratsın, məsələn, inzibati resurslardan istifadə və ya zorakılıq metodlarına əl atılması kimi.

Amma etiraf etmək lazımdır ki, seçkiqabağı vəziyyətdə ciddi gərginliklər var. Gürcüstanda dövlət çevrilişinə hazırlıqlar davam edir. Son proseslərin təhlili və araşdırmalar bunu deməyə əsas verir. Bu gün Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili də “Gürcü Arzusu–Demokratik Gürcüstan” partiyasının mərkəzi qərargahında keçirdiyi brifinqdə deyib ki, xaricdən maliyyələşən qüvvələrin əcnəbi donorların köməyi ilə qeyri-konstitusion hökumət dəyişikliyinə hazırlıqları davam edir. Bəzi analizlər və müşahidələr bunu sübut edir. Bu, 2020-ci ildəki dövlət çevrilişi cəhdinin təkrarı olacaq. Belə cəhdlər oktyabrın 27-də gözlənilir.

Dünən hakim “Gürcü Arzusu–Demokratik Gürcüstan” partiyası Tbilisidə seçkiöncəsi izdihamlı aksiya keçirdi. Tbilisinin mərkəzindəki Rustaveli prospektində açıq havada baş tutan tədbirdə yüz mindən çox insan iştirak etdi.

Aksiyada partiyanın üzvləri və tərəfdaşı olan paytaxt sakinləri ilə yanaşı, regionlardan, eləcə də azərbaycanlı vətəndaşlarımızın yaşadıqları bölgələrdən gəlmiş insanlar iştirak etdilər, ölkənin milli maraqlarını fədakarlıqla müdafiə etmək əzmində olan hakim partiyaya dəstək verəcəklərini göstərdilər.

“Gürcü Arzusu–Demokratik Gürcüstan” partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili qərbli tərəfdaşların Gürcüstanın demokratiyadan geri çəkilməsi barədə bəyanatlarını şərh edərək bildirdi ki, bu gün Qərbin və xüsusən də Qlobal Müharibə Partiyasının Gürcüstana qarşı şantajı heç bir nəticə verməyib. Onların yalan və obyektivlikdən uzaq bəyanatları xalqda onlara qarşı qıcıq yaradıb. Vəziyyət artıq onların əleyhinə dəyişib.

İvanişvili vurğuladı ki, bizdə əsl demokratiya var. O, iqtidar partiyasının parlament seçkilərində uğur qazanacağına əminliyini ifadə etdi. Amma onu da bəyan etdi ki, bu seçkilərdən sonra ölkəni çətin günlər gözləyir. Çünki Qərbdən olan tərəfdaşlar “ikinci cəbhə” açmaq üçün yenidən Gürcüstanı müharibəyə sürükləməyə çalışacaqlar.

***Söhbəti qələmə aldı:***
***Paşa ƏMİRCANOV***
***XQ***

# Təkqütblü dünyaya qarşı ədalət gözləntimiz

## *Azərbaycanın BRICS-ə marağını şərtləndirən prinsiplərə baxış*

**(əvvəli 1-ci səhifədə)**




Nəzərə alaq ki, Kazan sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı qatılıb. Ən əsası isə toplantıda BMT-nin Baş katibi Antonio Quterreş iştirak edir. "Ədalətli qlobal inkişaf və təhlükəsizlik üçün çoxtərəfliliyin gücləndirilməsi" mövzusunda keçirilən sammiti Rusiya üçün önəmli edən daha bir fakt isə onun ölkənin müasir tarixində yüksək səviyyəli xarici qonaqların sayına görə ən irimiqyaslı tədbir olmasıdır.

Ümumən, 30-a yaxın ölkə quruma üzvlük və ya tərəfdaş dövlət statusu almaq istəyini bəyan edib. Həmin ölkələr sırasında Azərbaycanla yanaşı, Bəhreyn, Belarus, Pakistan, Əlcəzair, Qazaxıstan, Tailand, Kuba, Banqladeş, Boliviya, Venesuela, Vyetnam, Honduras, Zimbabve, İndoneziya, Çad, Küveyt, Mərakeş, Nigeriya, Nikaraqua, Seneqal, Suriya, Türkiyə, Uqanda, Şri-Lanka, Ekvatorial Qvineya, Eritreya və Cənubi Sudan yer alır. Məhz buna görə də hazırda Braziliyanın, Rusiyanın, Hindistanın, Çinin, Cənubi Afrikanın, Misirin, Efiopiyanın, İranın, Səudiyyə Ərəbistanının və BƏƏ-nin təmsil olunduğu təşkilatın Kazan sammiti dünya geosiyasətinin mərkəzi hadisəsidir.

Sammitdə regional münaqişələr, xüsusilə Yaxın Şərq və Ukrayna məsələləri diqqət mərkəzindədir. Fələstin və İsrail arasındakı münaqişə, Qəzza müharibəsi, İran və İsrail arasındakı qarşıdurmalar da həmçinin. Bu səbəbdən tədbiri hazırkı mürəkkəb dünya düzəninin müzakirə olunduğu alternativ platforma kimi dəyərləndirmək mümkündür. Bəs BRICS-i güclü edən nədir?

Məlum olduğu kimi, BRICS beş sürətlə inkişaf edən ölkədən ibarət olan bir qrupdur (Brazil, Russia, India, China, South Africa– BRICS). Braziliya kənd təsərrüfatı məhsulları ilə zəngindir, Rusiya dünyada ən böyük mineral resursların ixracatçısıdır. Hindistan ucuz intellektual resurslara, Çin isə ucuz əmək resurslarına malikdir. Cənubi Afrika Respublikasına gəldikdə isə ölkə təbii resurslarının çoxluğu ilə seçilir.

Əlbəttə, bu göstəricilərlə hesablaşmamaq mümkünsüzdür və deməli, BRICS-in dünyada söz sahibi olma üstünlüyü var. Ekspertlər də hesab edirlər ki, sırf iqtisadi blok kimi yaradılmış qurumun geosiyasi reallıqlara təsir qüvvəsi böyükdür. Bunu təşkilatın başlıca prinsipləri də təsdiqləyir. Belə ki, BRICS çətinliklərə qarşı müştərək həll yollarının axtarılması və mövcud böhranların idarə olunmasında kollektiv tədbirlərin həyata keçirilməsini prioritet sayır. Kazan sammiti də bu amillərin vurğulandığı və onlara nəzərən real mexanizmlərin işə salınması perspektivinin dəyərləndirildiyi mühüm platforma sayılır.

Eyni zamanda, o da vurğulanmalıdır ki, BRICS qarşılıqlı əlaqədə olan, bir-birinə kömək göstərən dövlətlər klubudur. Ən başlıcası isə üzv ölkələr bir-birinə qarşı sanksiyalar tətbiq etməmək kimi qeyri-rəsmi öhdəliklər götürürlər. Bu o deməkdir ki, onlar üçün başlıca prinsip qarşılıqlı şəkildə müstəqilliyin dəstəklənməsidir. Belə yanaşma isə anti-Qərb xarakteri daşıyır. Çünki Qərbin ənənəvi mübarizə üsullarından ən mühümü başqa dövlətləri özündən asılı hala gətirməkdir. Yeri gəlmişkən, 2023-cü ilin sonunda alıcılıq qabiliyyəti paritetində BRICS-in qlobal ÜDM-dəki payı rekord həddə - 35,7 faizə çatıb. Müqayisə üçün deyək ki, Dünya Bankının məlumatlarına görə, G7 ölkələrində bu göstərici üzrə 29 faiz azalma qeydə alınıb.

*

Azərbaycan və BRICS əlaqələrinə gəlincə, vurğuladığımız kimi, ölkəmiz artıq bu təşkilata üzvlük istəyini ifadə edib. Azərbaycan hazırda Kazan sammitində "BRICS+" və "Outreach" formatlarında iştirak edən ölkələrdən biridir. Onu da qeyd etdik ki, təşkilata yeni üzvlərin qəbulu məsələsi aktuallığını qoruyur və bu cəhət Kazan sammitinin gündəliyindən də görünür. Belə ki, toplantıda yeni üzvlər üçün "tərəfdaş dövlət" statusunun rəsmiləşdirilməsi nəzərdə tutulur. Bütün bunlar öz yerində, ölkəmiz uzun müddətdir ikili standartlar siyasətinə məruz qalır, onun təsirlərini üzərində hiss edir. İkili standartlar siyasəti isə özünü ədalətsiz yanaşmalarda göstərir. Bu o deməkdir ki, Azərbaycan BRICS-ə, ilk növbədə, ədalətli platforma kimi yanaşır. Yəni, ondan gözləntimiz budur.

İkincisi, ölkəmiz yeni dünya düzənində Cənubi Qafqaz üzrə başlıca aktordur. Belə bir missiya onun dünya siyasətindəki yeri və rolu ilə bağlı əlverişli perspektivlər açır. Ölkəmiz hər cəhətdən buna layiqdir. Ancaq haqqında söz açdığımız ikili standartlar siyasəti ədalətsizliyə, ayrı-seçkiliyə əsaslandığından, Azərbaycanın mövqeyi və statusu layiqincə dəyərləndirilmir. Deməli, rəsmi Bakının özünə daha faydalı və əlverişli düzən axtarması təbiidir.

Üçüncüsü, bildirdik ki, BRICS Qərbə, deməli, həm də ABŞ-yə qarşı olan platformadır. Ancaq belə yanaşma hərbi deyil, iqtisadi amillər üzərindədir. Təşkilatda mühüm rol oynayan ölkələrin isə dünya iqtisadiyyatındakı rolları böyükdür. Yəni, bu baxımdan da ölkəmiz üçün fayda var. Azərbaycan BRICS-də təmsilçiliklə çətinliksiz, bərabərhüquqlu şəkildə iqtisadiyyatını diferensiallaşdırmaq imkanına malikdir.

Dördüncüsü, iqtisadi əlaqələr həm də sabitlik və əminamanlıq deməkdir. Ölkəmiz Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsində maraqlıdır. Bu maraq üçün təminat lazımdır. Hesab edirik ki, BRICS-də təmsilçiliyin verdiyi təminatlar daha ciddidir. Prinsipcə, quruma daxil olan ölkələr Qərb imperializminə qarşı duruş gətirmək, təkqütblü dünyanın ədalətsiz əsaslarını sarsıtmaq istəyirlərsə, başqa yolları yoxdur. Onlar səmimi davranmalı və real əməkdaşlıq konturlarına üstünlük verməlidirlər.

***Ə.RÜSTƏMOV***
***XQ***

---

# "Ter-Petrosyanizm" və ya erməni həyasızlığının qürub notları

## *Bir daha Qarabağ avantürizmi və Ermənistan konstitusiyası barədə*

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, H.Hacıyevin fikrinə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın hazırda rəhbəri olduğu Erməni milli konqresi reaksiya verib. Reaksiyanın nədən ibarət olduğunu və oradakı müəyyən məqamları diqqətə çatdıracağıq. Amma onu deyək ki, 2022-ci ilin oktyabrında Praqada Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşü əsnasında baş nazir Nikol Paşinyan ilk dəfə ölkəmizin ərazi bütövlüyünü tanıdığını bəyan etmişdi. N.Paşinyan 2023-cü ilin yayında eyni fikri təkrarlamış və bu dəfə Qarabağ da daxil olmaqla, ölkəmizin ərazi bütövlüyünü tanıdığını dilə gətirmişdi. Maraqlıdır ki, həmin vaxt Nikola qarşı çıxan qüvvələr bildirmişdilər ki, onun yanaşması Ermənistanın konstitusiyasına ziddir. Çünki əsas qanun Qarabağı Azərbaycan ərazisi kimi tanımağa imkan vermir.

Onu da bilirik ki, Ermənistanın İstiqlaliyyət bəyannaməsində Azərbaycana və Türkiyəyə ərazi iddiası yer alıb. Ölkə konstitusiyası həmin sənədə əsaslanır. Bu günlərdə isə Ermənistanın konstitusiya məhkəməsi qərar çıxardı ki, İstiqlaliyyət bəyannaməsinin əsas qanunda yer almayan müddəaları etibarsızdır. Aydın idi ki, bu qərar Azərbaycanın Ermənistanın qanunvericilik sənədlərində qonşulara qarşı ərazi iddiasının aradan qaldırılmasını nəzərdə tutan tələbinə münasibət mahiyyətlidir. Guya, Bakının istəyi yerinə yetirilib. Mövcud məqam erməni hakim komandasının açıqlamalarından da duyulur. Onlar elə fon yaradırlar ki, sanki artıq Bakı – İrəvan sülhü baxımından heç bir manea yoxdur.

Əlbəttə, belə yanaşma spekulyativdir. Ona görə ki, ümumən söhbət İstiqlaliyyət bəyannaməsindən imtinadan getmir. Deməli, Konstitusiya məhkəməsinin həmin sənəddə yer alan, ancaq konstitusiyada olmayan müddəaları etibarsız sayması ilə bağlı mövqeyi heç nəyi dəyişmir. Mövcud səbəbdən Bakı məsələni konseptual şəkildə qoyur. H.Hacıyevin "Newsweek"dəki məqaləsində yer almış məqam da eyni konseptuallıqdan və prinsipiallıqdan qaynaqlanır. Elə isə keçək L.Ter-Petrosyanın Erməni milli koqresi tərəfindən yayılan bəyanatına.

**

Əlbəttə, H.Hacıyevin fikirlərinin Azərbaycanın aqressiv təbliğatının tərkib hissəsi kimi dəyərləndirilməsi üzərində dayanmayacağıq. Aydındır ki, bu deyim ikinci prezidentin rəhbərlik etdiyi partiyanın susqunluğu pozmaq, öz aləmində anti-Azərbaycan mövqeyini göstərmək məqsədli cılız yanaşmasıdır. Başlıca məqam odur ki, sənəddə L.Ter-Petrosyanın vaxtilə Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistanın baxışını ifadə etdiyi, buna əsasən, guya, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə statusunun təklif olunduğu fikri açıqlanıb. Halbuki reallıq başqadır.

Birincisi, sözügedən təklifi verən Azərbaycan dövləti olub. Yəni, rəsmi Bakı o zaman Qarabağa ölkəmizin tərkibində ən yüksək status verilməsini münaqişənin həll yolu sayıb. Bu da həqiqətdir ki, L.Ter-Petrosyan əvvəl buna razı olub. Ümumən, o, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsində Ermənistanı dəstəkləmədiyini yaxşı dərk etdiyindən, müəyyən güzəştlərə razı idi. Ancaq H.Hacıyev məqaləsində diqqəti məhz 1996-cı ilə yönəldir. O ilə ki, Ermənistanın ikinci prezidenti əvvəlki mövqeyini dandı və bunu ölkə konstitusiyası ilə izah etdi. Yəni, konstitusiyanın Qarabağı Azərbaycan ərazisi kimi tanımağa imkan vermədiyi ilə.

Digər tərəfdən, Qarabağa ən yüksək status təklifi ölkəmizdən gəlmişdisə, 1996-cı ilin ATƏT sammiti zamanı onun qəbul olunmaması qeydə alınıbsa, məntiqlə Bakı öz fikrindən daşına bilməzdi. Həm də o səbəbdən ki, işğala məruz qalmışdı və təcavüzün başa çatmasını nəzərdə tutan məsələ ilə razılaşmalı idi. Deməli, razılaşmayan tərəf Ermənistandır.

Ermənistan işğalçılıq siyasətindən əl çəkmədiyindən, 1996-cı ildən sonrakı danışıqlarda da real nəticə əldə olunmadı və nəhayət, 1998-ci ildə L.Ter-Petrosyan istefa verdi. Bu istefa təkcə birinci prezidentin yox, bütövlükdə dünya erməniliyinin mövqeyi idi. Çünki L.Ter-Petrosyan beynəlxalq arenada tükənmiş duruma düşmüş, ulu öndər Heydər Əliyevin diplomatik həmlələri qarşısında aciz qalmışdı. Avantürizmə isə yeni nəfəs verilməli idi.

Nəhayət, 1998-ci ildə L.Ter-Petrosyanın yerini Robert Koçaryan tutdu. O Koçaryan ki, bilavasitə Qarabağ klanının təmsilçisi idi və dünyanı, beynəlxalq hüququ heçə sayacaq qədər heç bir nizam-tərəzi tanımırdı. Yəni, Koçaryanın gəlişi Qarabağ avantürizmi naminə ən həyasız şəxsin "xidmətlərindən" bəhrələnməyə hesablanmışdı. Bu, dünya erməniliyinin və dəstəkçilərinin ortaq planı əsasında reallaşmışdı. Heç şübhəsiz, L.Ter-Petrosyan durumdan xəbərsiz deyildi. O, nəyə görə istefa verdiyini gözəl anlayırdı. Müasir müstəqil Ermənistan Qarabağ ambisiyası üzərində qərarlaşmış dövlət idisə, həmin ambisiyanın davamı birinci prezidentin hakimiyyətdə qalmasından üstün sayılırdı və sayıldı da.



Ancaq R.Koçaryanın prezidentliyinin ilk ili o qədər rəvan keçmədi. Məsələ ondadır ki, həmin vaxt Ermənistanın siyasi quruluşu dövlət başçısını böyük səlahiyyət sahibi kimi tanımırdı. Tanınma 1999-cu ilin parlament terrorundan sonra baş verdi. O terrordan sonra ki, orada Ermənistan parlamentinin spikeri Karen Dəmirçyan və ölkənin baş naziri Vazgen Sarkisyan qətlə yetirildilər. Hər iki şəxs Azərbaycana Qarabağ məsələsində güzəştlərin tərəfdarları qismində tanınırdı.

Ola bilər, L.Ter-Petrosyan istefa verməşdi ki, Dəmirçyan – Sarkisyan tandemi prosesi başa çatdırsın. Yəni, o, barış və güzəşt məsuliyyətini üzərindən atmışdı. Bəlkə də, öldürülməkdən qorxmuşdu. Nəzərə alaq ki, parlament terrorundan sonra Ermənistanda Qarabağ klanının mütləq hakimiyyəti yarandı. Nəticə etibarilə həm birinci prezidentin dövründəki sülh meyilləri, həm də sözügedən tandemin təsiri sayəsində Qarabağ danışıqlarındakı müsbət tendensiya tamamilə sıradan çıxdı. Sonra rəsmi İrəvanın danışıqlar adı ilə aşkar imitasiya dövrü başlandı. Bütün bunlardan da L.Ter-Petrosyan xəbərsiz deyildi. Deməli, hazırda onun partiyasının bəyanatı yalnız həyasızlıqdır.

Bəli, L.Ter-Petrosyanın Erməni milli konqresi bildirir ki, Ermənistan konstitusiyasında ölkə üçün 1991-ci ilin beynəlxalq səviyyədə tanınmış sərhədlərindən başqa heç bir sərhəd nəzərdə tutulmayıb və bu, Konstitusiya məhkəməsinin qərarı ilə bir daha təsdiqlənib. Diqqətə çatdırdıq ki, məhkəmənin qərarı siyasi manipulyasiyadır və səmimiyyət nümayişi deyil. Qərar, eyni zamanda, hazırda İrəvanın təbliğ etdiyi yarımçıq sülh gündəmini rəsmiləşdirməyə hesablanıb.

Sual olunur: Ermənistan konstitusiyasında ölkə üçün 1991-ci ilin beynəlxalq səviyyədə tanınmış sərhədlərindən başqa heç bir sərhəd nəzərdə tutulmamışdısa, o zaman nəyə görə Azərbaycan torpaqları işğala məruz qalmışdı? Bəlkə Ter-Petrosyan bir qədər əvvələ nəzər salsın? O, Qarabağın Ermənistana birləşdirilməsini nəzərdə tutan "Miatsum" deyilən avantüra barədə bilməmiş deyil. Doğrudur, avantüra başlayanda nə İstiqlaliyyət bəyannaməsi var idi, nə də Ermənistanın konstitusiyası. Dövlətin özü də mövcud deyildi. Bu, öz yerində. Ancaq bir məqam nəzərə alınmalıdır – Konstitusiyada birbaşa olaraq ərazi iddiasının təsbiti mümkün olmadığından, bu, özünü əsas qanunun söykəndiyi sözügedən bəyannamə məsələsində göstərdi. Necə deyərlər, keçəl Həsən, Həsən keçəl. Heç bir fərqi yoxdur.

Bəli, uzun müddət Ermənistan Qarabağdakı artıq canını tapşırmış separatçı qurumun hamisi rolunda çıxış etdi. Burada daha bir sual meydana çıxır: Nəyə görə rəsmi İrəvan həmin qondarma rejimin "müstəqilliyini" tanımadı? Səbəb aydındır. Çünki Ermənistan konstitusiyasının rəhbər tutduğu İstiqlaliyyət bəyannaməsi buna imkan vermirdi. Separatçı qurum, sadəcə, işğalı leqallaşdırmaq üçün vasitə idi. Ermənistan və havadarları uzun müddət məhz onu, necə deyərlər, gözə soxmaq istədilər. Çalışdılar ki, Azərbaycan və beynəlxalq ictimaiyyətin nəzərində tərəfə çevrilsin. Bu, baş versəydi və qondarma respublika dünya miqyasında tanınsaydı, onun sonradan Ermənistana birləşdirilməsi su içimi kimi asan olacaqdı. L.Ter-Petrosyan mövcud "ssenaridən" də xəbərsiz deyildi. Elə məhz buna görə sussa yaxşıdır. Çünki Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının səbəbkarlarından biri odur.

*

Oğru elə bağırdı ki, doğrunun bağrı çatladı, – deyiblər. Hazırda Erməni milli konqresinin H.Hacıyevin fikirlərinə münasibətdə ifadə etdiyi mövqe bu deyimi yada salır. Hələ L.Ter-Petrosyanın partiyası utanmaz-utanmaz "Newsweek" jurnalını "Azərbaycanın yalanlarını" yaymaqda günahlandırır. Ən maraqlısı isə budur ki, birinci prezidentin rəhbərlik etdiyi qurum baş nazir Nikol Paşinyanı H.Hacıyevin fikirlərinə cavab verməməkdə qınayır. Görəsən, birinci prezident öz yetirməsi olan Nikolu niyə ittiham edir? Axı Paşinyan iqtidarı mahiyyətcə erməni avantürizmini davamı naminə çalışır, ən ağlasığmaz metodlara əl atır. Yəni, siyasi karyerasının qürub dövrünü yaşayan Levonun cənfəşanlığına, susqunluğu pozmasına heç bir ehtiyac yox idi.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Milli Məclisin sədri Sahibə Qafarova TBMM-in sədrinə başsağlığı verib

**Milli Məclisin sədri Sahibə Qafarova Ankarada törədilmiş terror aktı ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşa başsağlığı verib.**

S.Qafarova TBMM sədrinə ünvanladığı məktubunda Türk Aviasiya və Kosmik Sənaye Şirkətində törədilmiş terror aktı nəticəsində insanların həlak olması xəbərindən sarsıldığını və terror aktını şiddətlə qınadığını bildirib.

Parlamentin sədri həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adından və Milli Məclisin deputatları adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib.

# XİN Türkiyədə törədilən terror aktını pisləyib

**Azərbaycan Xarici İşlər Nazirliyi Ankarada hərbi təyyarə və kosmik vasitələrin istehsalçısı olan TUSAŞ korporasiyasında baş verən terror aktını pisləyib. XİN "X" sosial şəbəkəsində bununla bağlı paylaşım edib:**

"Qardaş Türkiyədə Türk Aviasiya və Kosmik Sənaye Şirkətində törədilmiş terror aktını qətiyyətlə pisləyirik! Bu xain terror aktı nəticəsində şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirik! Azərbaycan hər zaman qardaş Türkiyənin yanındadır!", - paylaşımda deyilir.

XQ

# Ceyhun Bayramov braziliyalı həmkarı ilə görüşüb

**Oktyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının Kazan şəhərində keçirilən BRICS Sammiti çərçivəsində Braziliya Federativ Respublikasının xarici işlər naziri Mauro Vieira ilə görüşüb.**



Görüşdə Azərbaycan ilə Braziliya arasında ikitərəfli, çoxtərəfli əməkdaşlıq istiqamətləri, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işlərindən irəli gələn məsələlər müzakirə olunub.

İki ölkə arasında mövcud siyasi dialoqun daha da inkişafı istiqamətində qarşılıqlı səfər və təmasların artırılmasının əhəmiyyəti qeyd edilib.

Azərbaycan ilə Braziliya arasında mövcud ticarət dövriyyəsinin əməkdaşlığın daha da dərinləşdirilməsi üzrə prioritetlərə uyğun olmadığı, bu xüsusda iqtisadi-ticari əlaqələrin inkişafı istiqamətində mövcud imkanlardan istifadə olunmasının vacibliyi qeyd edilib.

COP29 çərçivəsində aparılan danışıqlar prosesi, irəli sürülən sədrlik təşəbbüsləri və prioritetləri, habelə hazırlıq işlərinin vəziyyəti barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov COP sədrliklərinin Üçlüyü ("Troyka") formatında əməkdaşlığın prosesin davamlılığının təmin olunması istiqamətində əhəmiyyətini vurğulayıb. COP29 sədrliyimizin əsas prioritetlərindən biri olan iqlim dəyişikliyi ilə mübarizəyə maliyyə vəsaitlərinin cəlbi istiqamətində əhəmiyyətli tərəqqinin əldə olunmasına dair ümidvarlıq ifadə edilib.

XQ

# Bakıda Qazaxıstan Respublikasının Müstəqillik Günü

**Dünən Bakıda Qazaxıstan Respublikasının Müstəqillik Günü qeyd edilib.**



Hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Sonra Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel açılış nitqi ilə çıxış edərək, ölkəsinin müstəqillik əldə etdiyi illər ərzində onun keçdiyi yoldan danışıb.

Səfir Qazaxıstan-Azərbaycan münasibətlərinə toxunaraq bildirib ki, strateji tərəfdaşlıq - müttəfiqlik səviyyəsinə yüksələn bu münasibətlərin daha da inkişaf etməsi üçün səylərini əsirgəməyəcəklər.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov Azərbaycan Hökuməti adından çıxış edərək deyib ki, müstəqillik illərində ölkələrimiz əhəmiyyətli uğurlara nail olaraq, öz regionunda mühüm dövlətlərə çevriliblər.

Sonda Qazaxıstanla əməkdaşlıqda xüsusi rolu olan şəxslər təltif olunublar.

XQ

# Türkiyədə qanlı terror

**Dünyanın diqqəti günün bir nömrəli hadisəsinə – Kazan şəhərində keçirilən BRICS sammitinə yönəldiyi bir vaxtda bir qrup kəmfürsət terrorçu Türkiyədə dövlət əhəmiyyətli strateji obyektə xaincəsinə hücum etdi.**




Türkiyənin daxili işlər naziri Əli Yerlikaya qanlı aksiya ilə bağlı açıqlamasında bildirib ki, Ankaradakı Türk Aerokosmik Sənayesi Anonim Cəmiyyətində törədilən terror aktında 4 nəfər həlak olub, 14 adam isə yaralanıb. 2 terrorçu hüquq-mühafizə orqanları tərəfindən zərərsizləşdirilib. Nazir baş verənləri terror aktı adlandırıb.

Hadisə ilə bağlı ölkə mediasında yayılan xəbərlərdə qeyd edilir ki, dünən saat 15:30-da bir qrup terrorçu Ankarada hərbi təyyarə və kosmik vasitələrin istehsalçısı olan TUSAŞ korporasiyasının binasına hücum edib. Xüsusi təyinatlıların zirehli texnikası qısa zamanda terror aktı baş verən əraziyə çatıb, helikopterlər havaya qaldırılıb. Yaralılara kömək etmək üçün Kahramankazana təcili tibbi yardım avtomobilləri gəlib. Ankara Baş Prokurorluğu terror aktı ilə bağlı cinayət işi açıb.

Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğan da Kazanda Rusiya Prezidenti Vladimir Putinlə görüşündə terror zamanı 4 insanın öldüyünü, 14 nəfərin yaralandığını deyib. Türkiyə lideri "X" sosial şəbəkəsindəki paylaşımında isə bildirib: "TUSAŞ-a qarşı terror hücumu millətin hüzurunu və "Tam müstəqil Türkiyə" anlayışının rəmzi olan müdafiə təşəbbüslərini hədəfə alan alçaq bir hücumdur".

Paylaşımda daha sonra deyilir: "Millətimiz bilməlidir ki, Türkiyəyə uzanan çirkli əllər mütləq qırılacaq. Təhlükəsizliyimizi hədəfləyən heç bir qruluş, heç bir terror təşkilatı, heç bir şər mənbəyi öz məqsədlərinə çata bilməyəcək. Hər cür terror təhdidlərinə və onların dəstəkçilərinə qarşı mübarizəmiz qətiyyətlə və çoxölçülü şəkildə davam edəcək. Xain terror aktında şəhid olan qardaş-bacılarımıza Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm".

Türkiyə XİN rəhbəri Hakan Fidan da X sosial şəbəkəsindən teror aktına münasibətini açıqlayıb: "Ankarada TUSAŞ-a qarşı törədilən alçaq terror aktında şəhid olan qardaşlarımıza Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. İstər daxildən, istərsə də xaricdən bütün terror ünsürlərinə və onları qidalandıran qüvvələrə qarşı qətiyyətlə mübarizəmiz davam etdirəcəyik. Qarşıdakı dövrdə də milli müdafiə imkanlarımızı gücləndirməyə davam edəcəyik və Türkiyəni hədəf alan qrupların və onların vəkillərinin ölkəmizlə bağlı məqsədlərinə çatmasına əsla imkan verməyəcəyik".

Artıq bir çox ölkə və təşkilat Türkiyədə baş verən terror aktını pisləyib. Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarına başsağlığı verib. BMT, NATO rəhbərliyi də Türkiyədə baş verən terror aktını qınayıblar.

Xatırladaq ki, TUSAŞ müəssisəsində PUA, təyyarə və helikopter istehsal olunur, Türkiyənin beşinci nəsil KAAN hərbi təyyarəsi yığılır. Burada 15 min insan çalışır. Ölkənin Silahlı Qüvvələri TUSAŞ məhsullarından antiterror əməliyyatları zamanı istifadə edir.

**S.ELAY**
**XQ**

# Gürcüstan xalqları seçkilərdə ölkənin maraqlarını qoruya biləcəklər

**Bu il oktyabrın 26-da qonşu Gürcüstanda parlament seçkiləri keçiriləcək. Seçkiöncəsi ab-havadan, ölkədəki gərgin mühitdən belə anlaşılır ki, bəzi xarici dairələr ölkədəki vəziyyəti qarışdırmaqda maraqlıdır.**



Gürcüstanda baş verənlər Azərbaycan ictimaiyyəti üçün də önəmlidir. Mövcud vəziyyət, seçkilərin pərdəarxası məqamları, soydaşlarımızın seçki prosesində iştirakı ilə bağlı BDU-nun professoru Həmid Vəliyevin XQ-yə açıqlaması:

– Bu gün Gürcüstan dövləti və xalqı taleyüklü tarixi hadisənin astanasındadır. Bir neçə gündən sonra ölkədə parlament seçkiləri keçiriləcək. Artıq dünyanın da diqqəti Gürcüstana yönəlib. Çünki bu seçkilər Gürcüstanla yanaşı, bölgə üçün də önəm daşıyır.

Gürcüstan regionun ən maraqlı ölkələrindən biridir. Qonşu ölkədə möhkəmlənmək istəyən qüvvələrin marağı da məhz bundan irəli gəlir. Ölkədə çoxlu siyasi partiya, hər birinin də öz marağı var. Amma bu partiyaların böyük əksəriyyəti Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Abxaziya və Cənubi Osetiya muxtar qurumları Gürcüstanın idarəçiliyindən çıxıb. Rusiya isə onların müstəqilliyini tanıyıb.

Gürcüstanda Mixail Saakaşvili dönəmində korrupsiyaya qarşı mübarizə ciddi məsələ kimi qoyuldu və bu sahədə irəliləyiş də əldə edildi. Sonra o, ölkəni tərk etməyə məcbur oldu. Onun partiyası fəaliyyət göstərsə də, cəmiyyətə təsiri olmadı. Bu gün Gürcüstan siyasətçiləri arasında istər Rusiyaya, istərsə də Qərbə meyilli qüvvələr mövcuddur və gərginlik də onların arasındadır. Lakin mən bir Gürcüstan azərbaycanlısı olaraq deyə bilərəm ki, seçkilərə Qərb ölkələrinin təsiri güclü ola bilməz. Qərb, həqiqətən, Gürcüstanın maraqlarını qorumuş olsaydı Abxaziya və Osetiya məsələsi bu qədər uzanmazdı. Qərb siyasətini, əsasən, vədlər üzərində qurur. Gürcü xalqı bunu yaxşı bilir və Qərbə o qədər də inanmır.

O ki qaldı azərbaycanlıların seçkiöncəki durumuna, burada da hakimiyyətdən gözləntilər var. Vaxtilə Gürcüstanda 175 azərbaycandilli məktəb var idi, bu gün onların sayı azalmışdır. Amma belə məsələlər azərbaycanlıların ayıq-sayıq olmasına, siyasi proseslərdən kənarda qalmalarına gətirib çıxarmamalıdır. Azərbaycanlılar belə taleyüklü məqamda seçkilərdə mütləq yüksək fəallıq göstərməlidirlər. Gürcüstanda hadisələrin məcrasından çıxması ölkəmiz üçün də ağır nəticələrə bilər. Soydaşlarımızı seçkilərdə Gürcüstanın həqiqi marağını qorumağa çağırıram. İnanıram ki, Gürcüstan xalqları seçkilərdə ölkənin həqiqi maraqlarını qoruya biləcəklər.

**Hazırladı:**
**Anar ƏLİ**
**XQ**

# Xəzər Dənizi üzrə YSİQ-nin 9-cu iclası

**Oktyabrın 22-23-də Astanada Xəzər Dənizi Məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun 9-cu iclası keçirilib.**

Danışıqlarda Azərbaycanın (rəhbər – S.Şərifov), İranın (rəhbər – Ə.Cahangiri), Qazaxıstanın (rəhbər – Z.Amanjolova), Rusiyanın (rəhbər – M.Petrakov) və Türkmənistanın (rəhbər – M.Atacanov) nümayəndə heyətləri iştirak ediblər. İclasa Qazaxıstan nümayəndə heyətinin rəhbəri Z.Amanjolova sədrlik edib. Tərəflər Xəzər dənizində düz çıxış xətlərinin çəkilməsi metodikasının müzakirəsini davam etdiriblər.

İclas çərçivəsində tərəflər Xəzər dənizində əməkdaşlığın icmalını həyata keçirib, Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Türkmənistanda növbəti görüşünə hazırlıq məsələlərini, habelə beştərəfli sənəd layihələri üzrə danışıqlar prosesinin gedişatını müzakirə ediblər.

Nümayəndə heyətləri görüşün yüksək səviyyədə təşkilinə görə Qazaxıstana minnətdarlıqlarını bildiriblər. YSİQ-nin növbəti iclası diplomatik kanallarla razılaşdırılacaq tarixlərdə Türkmənistanda keçiriləcək.

XQ

Qardaşlıq ünvanları

# Özbək ali məktəblərində Azərbaycan dili layihələri

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində bu ölkənin ali təhsil ocaqlarının professor-müəllim heyəti ilə görüş keçirilib.**




Toplantıda Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan Milli Universiteti, Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Özbəkistan Dövlət Dünya Dilləri Universiteti, Termez Dövlət Universiteti və Kokand Dövlət Pedoqoji İnstitutunun nümayəndələri iştirak ediblər. Görüşün məqsədi bu ali məktəblərdə Azərbaycan dilinin tədrisi və təbliği ilə bağlı müxtəlif layihələrin, mühazirələrin, açıq dərslərin həyata keçirilməsi üçün atılacaq addımları müzakirə etmək olub.

Mərkəzin direktor müavini Nadir Əlimirzəyev iştirakçıları salamlayaraq fəaliyyətləri haqqında ətraflı məlumat verib. O, Azərbaycan və özbək xalqlarının qədim köklərə malik olduqlarını və bu köklərə əsaslanan qardaşlıq münasibətlərinin bu gün də yüksək səviyyədə olduğunu qeyd edib.

Dünya Dilləri Universitetində pedaqoqların və kadrların yenidən hazırlanması və onların ixtisaslarının artırılması mərkəzinin şöbə müdiri Adolat Kenjayeva gələcək əməkdaşlıqdan böyük məmnunluq hissi keçirdiyini, Azərbaycanın mədəniyyəti, tarixi, incəsənəti barədə burada aldıqları məlumatların onlar üçün çox faydalı olacağını vurğulayıb. Digər iştirakçılar da görüşün onların Azərbaycan haqqında məlumatlarının daha da genişlənməsinə imkan yaratdığını bildiriblər.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Mətanət Xudiyeva 2023-cü ildən Azərbaycan Mədəniyyət Mərkəzinin özbək ali məktəblərində Azərbaycan dilinin tədrisi layihəsi barədə məlumat verib.

Qonaqlar Mədəniyyət Mərkəzində fəaliyyət göstərən Heydər Əliyev Muzeyi, Azərbaycan–Özbəkistan Dostluq Muzeyi, Azərbaycanın Dövlətçilik Tarixi Muzeyi və Xalça muzeylərinə baxıb, orada olan eksponatlarla, hər iki ölkənin tarixi və mədəniyyətini əks etdirən kitablarla, musiqi alətləri, milli geyimlər və s. ilə yaxından tanış olublar.

Professor-müəllim heyətinə Mədəniyyət Mərkəzi tərəfindən hazırlanan "Azərbaycanı tanıyaq" adlı videoçarx da təqdim olunub.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin Türküstan müxbiri**

**Daşkənd**

# Dövlətçilik məsuliyyəti



II MƏQALƏ

**Dünyanın müasir problemlərinin heç birini güc vasitəsilə həll etmək mümkün deyildir.**

**Fidel Kastro RUS**

## AMEA nümunəsi

AMEA-nı yeniləşmə nümunəsi kimi göstərməkdə məqsəd bu elm məbədi barədə  hansısa fikir formalaşdırmaqla qətiyyən bağlı deyildir. Sadəcə olaraq, AMEA elmi yeniləşmə konsepsiyasını həqiqətən hazırlamışdır və orada dövlətçilik məsuliyyəti ilə əlaqəli məqamlar da az deyildir. Hər şeydən öncə, bu təşkilatın yeniləşmə kursunun ana xəttini və strateji məqsədini Azərbaycanın dövlət və cəmiyyət kimi strateji inkişafında elmin rolunu tələb olunan səviyyəyə yüksəltmək təşkil edir.

İkinci məqam ondan ibarətdir ki, ölkənin ali elmi təşkilatı yeniləşməni bütün sferalarda elmi yaradıcılığa və elmi fəaliyyətin təşkilinə dövlətçilik kontekstində yeni məzmun verən əsas amil kimi qəbul edir. Məsələn, elmi yaradıcılıqda Azərbaycanın fikir tarixində, müxtəlif sosial-humanitar elm sahələrində dövrləşdirmənin müəyyən edilməsinə azərbaycançılıq məfkurəsi və müstəqil dövlətçiliyin inkişafı kontekstində araşdırılması prizmasından yanaşılır. Bununla yanaşı, beynəlxalq elmi əməkdaşlığa da ilk növbədə Azərbaycan mədəniyyətinin və elminin aktual məsələləri kontekstindən baxılır. Bu cür yanaşma öz növbəsində iki miqyasın uyğunlaşdırılmasını tələb edir.

Birincisi, miqyas Azərbaycanın milli fikir tarixinin Azərbaycan dövlətçiliyinin ənənəsi və azərbaycançılıq məfkurəsinin təntənəsinin sintezindən ibarətdir.

İkincisi miqyas isə dövrləşdirmə konsepsiyalarının Türk dünyasının ümumi dəyərləri və bütövlükdə müasir dünyanın elmi tərəqqisi ilə bağlı müəyyən etdiyi kriteriyaların sintezi ilə bağlıdır. Dünya miqyasında elmi tərəqqinin keriteriyaları isə konkret olaraq, BMT-nin 2030-cu ilə qədər strateji inkişaf konsepsiyasının 17 istiqaməti ilə bağlılıqda götürülür.

Bununla da AMEA-nın yeniləşmə kursu milli-regional-qlobal miqyasların qarşılıqlı əlaqəsində dövlətçiliyin əsas götürülməsi şərti ilə əhatəli konseptual proses kimi xarakterizə oluna bilər. Bu konsepsiyanı reallaşdırmaq üçün AMEA prezidenti yüksək zəhmət və çalışqanlıq nümunəsi göstərir. AMEA kollektivinin əksər qismi də bu nümunəni götürərək böyük zəhmət sərf edir.

## Digər nümunələr

Ölkə miqyasında götürəndə AMEA yeganə dövlət təşkilatı deyildir ki, yüksək dövlətçilik məsuliyyəti ilə yeniləşir. Azərbaycanın təhlükəsizlik orqanları, ayrı-ayrı nazirlikləri, müxtəlif icra orqanları eyni dərəcədə dövlətçilik məsuliyyətini dərk edərək çalışırlar. O cümlədən, Azərbaycan KİV-də milli, dövlətçi və azərbaycançı mövqeyi olan çox orqanlar vardır. Bəzi KİV təmsilçilərinin düzgün istiqamət seçməməsinə baxmayaraq, azərbaycançı və dövlətçi media vasitələri dominantlıq təşkil edirlər.

Azərbaycan təhlükəsizlik orqanlarının gecə-gündüz səmərəli çalışmasını kim inkar edə bilər? Və ya Azərbaycan Ordusunun qəhrəmancasına ərazilərimizi işğaldan qurtarmasını görməmək olarmı? Minlərlə Azərbaycan müəlliminin orta və ali məktəblərdə fədakarcasına çalışmasını necə qiymətləndirməmək olar? Məhz Azərbaycan elm və təhsil sistemi vətənpərvər, çalışqan, azərbaycançı və dövlətçi məmur, nazir, millət vəkili, alim, müəllim, əsgər yetişdirməmişdirmi? Bu işdə Azərbaycanın dövlət orqanları ilə ailənin və məktəbin ortaq fəaliyyəti yoxdurmu? Əlbəttə, bu sualların hər birinin cavabı müsbətdir. Azərbaycan dinamik fəaliyyət göstərən və məqsədini bilən müstəqil dövlətdir. Və hamıya nümunə olan şəxsiyyət də vardır. O, Azərbaycan Prezidentidir!

Azərbaycan Prezidenti 21 ildir ki, çox dinamik və intensiv fəaliyyətdədir. Vətən müharibəsində İlham Əliyev həm dövlət başçısı, həm lider, həm də Ali Baş Komandan kimi yüksək çalışqanlıq nümunəsi göstərdi. Bunu Azərbaycanda hamı görür və qiymətləndirir! Məhz bu nümunə milyonlarla azərbaycanlını savaş meydanına səsləyirdi!

Azərbaycan Prezidenti həm də təkbaşına informasiya müharibəsində müxtəlif ölkələrdən gəlmiş jurnalistlərlə mübarizə apardı və qalib gəldi. Bununla İlham Əliyev yüksək dövlətçilik məsuliyyətinə malik olduğunu dünyaya sübut etdi!

Dövlətçiliyə yüksək bağlılığını minlərlə azərbaycanlı gənc döyüş meydanında göstərdi. Azərbaycan vətəndaşları Vətən və dövlət müstəqilliyi uğrunda mərd-mərdanə savaşdılar! Ölkənin bütün təbəqələrindən olan insanlar qələbə üçün əlindən gələni etdilər.

Bütün bunlar və burada nümunə kimi gətirilməyən çoxsayda faktlar Azərbaycanda hazırkı mərhələdə dövlətçilik məsuliyyətinin bütövlükdə mövcud olduğu nəticəsini çıxarmağa imkan verir. Lakin məsələ bununla yekunlaşmır. Məncə, bir sıra məsələlər vardır ki, onlara diqqət artırılmalıdır.

## Koordinasiyalı fəaliyyət

Dövlət təşkilatlarının hər birinin qarşısında konkret vəzifələr qoyulmuşdur. Onlar "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası"  və digər sənədlərdə ifadə edilmişdir. Strateji inkişaf kursuna aid sənədlərdə hər bir icraçı təşkilat qarşısında duran vəzifələr konkret müəyyən edilmişdir. Deməli, həmin vəzifələrin öhdəsindən layiqli gəlmək üçün hər bir təşkilatın yeni tələblərə uyğun yeniləşmə konsepsiyasının olması vacibdir. Burada iki istiqamətin qarşılıqlı əlaqəsi gərəklidir.

Təşkilat strateji sənədlərdə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsinə istiqamətlənmiş yeniləşmə kursu seçməlidir. Bu zəruridir. Çünki söhbət yeni tarixi mərhələdə qarşıya qoyulan məqsədlərdən gedir ki, onlar prinsipcə yenidir. Buna görə də onları həll etmyə imkan verən və bu zaman dövlətçilik xəttindən çıxmayan addımlar ardıcıllığı müəyyən edilməlidir.

İkinci istiqamət təşkilatların yeniləşmə kursları arasında uyğunluğun, məqsəd baxımından bir-birini tamamlamanın olması vacibdir. Konkret ifadə etsək, söhbət koordinasiyalı yenləşmə prosesindən gedir. Bunun üçün isə təşkilatların öz yeniləşmə konsepsiyalarını təqdim edərək müzakirə əsasında fəaliyyətləri eyni məqsəd uğrunda fokuslandıra bilərlər. İkinci istiqamət həm də dövlət təşkilatlarının dövlətçiliyə vahid baxışlarının formalaşmasına və o əsasda da dövlətçilik məsuliyyətinin eyni mənada yüksəlməsinə imkan yaradacaqdır.

## Yeni tələblər və dövlətçilik məsuliyyəti

Dövlətçilik məsuliyyəti məsələsinin Azərbaycan üçün daha da aktuallaşmasının daxili və xarici (beynəlxalq) səbəbləri vardır. Daxili səbəblər Azərbaycan Respublikasının müstəqil dövlətin özünütəsdiqi üçün yetərli ola biləcək qədər uğurları, nailiyyətləri vardır. Azərbaycan həm müstəqil inkişaf qabiliyyətini ortaya qoydu, həm də Avrasiyada bütün geosiyasi konyukturaları və siyasi avantüraları sındıraraq, hərbi, siyasi, diplomatik və informasiya meydanlarında böyük qələbə əldə etdi – tarixi baxımdan çox qısa müddətdə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Azərbaycan bununla artıq müstəqil dövlət kimi özü üçün dövlət kimliyini (və ya identikliyini) müəyyən etmiş ölkədir! Dövlətçilik məsuliyyəti məsələsinin daha da aktuallaşmasının daxili səbəbləri bununla bağlıdır, lakin onunla məhdudlaşmır.

Məsələnin digər mühüm tərəfi dünya miqyasında geosiyasi proseslərin daha mürəkkəb və ziddiyyətli mərhələyə yüksəlməsi (bunu liderlər və təhlilçilər etiraf edirlər) ilə əlaqəlidir. Bu prosesin tərkibində Azərbaycanın dövlətçiliyinə qarşı qəsdlərin davam etməsi isə xüsusi yer tutur. Həmin qəsdlər haqqında Prezident İlham Əliyev müxtəlif kontekstlərdə konkret faktlar əsasında bəhs etmişdir. Vətən müharibəsindən sonra Azərbaycan dövlətçiliyinə qarşı aparılan kampaniyalar barədə Prezident andiçmə mərasimində söylədiyi nitqdə,  II Şuşa Qlobal Media Forumunda və başqa tədbirlərdə açıq fikirlər ifadə etmişdir.

Həmin fikirlərdən aydın olur ki, qlobal miqyasda bir sıra dairələr anti-Azərbaycan fəaliyyətlərini davam etdirirlər və onun əhatə dairəsi genişlənir. Buna, təbii ki, Azərbaycan adekvat reaksiya verməlidir. Müasir dünyada müstəqil dövlətlərin beynəlxalq miqyasda fəaliyyəti üçün bu, təbii normadır. Əslində, dövlətin mövcud ola bilməsi üçün zəruri şərtlərdən biridir. Bir nəzəri arqumentə baxaq.

Henri Kissincer 1994-cü ildə qələmə aldığı "Diplomatiya" adlı əsərində yazırdı ki, hər bir dövlətin həyati əhəmiyyəti olan maraqları olur. Həmin maraqlar daxili və xarici mənzərənin qarşılıqlı əlaqəsi müstəvisində dövlətin müstəqilliyinin və dövlətçiliyinin saxlanması fonunda müəyyən edilir. Burada baza rolunu dövlətin özü haqqında ideoloji və siyasi mövqeyi oynayır. H.Kissincerin bu istiqamətdə apardığı araşdırmalardan gəldiyi qənaət ondan ibarətdir ki, əgər cəmiyyət və dövlət həyati əhəmiyyətli maraqlarını mövcud şərtlərə adekvat müəyyən etməsə, onda daxildə və ətraf aləmdə elə vəziyyət yaranar ki, dövlətin milli təhlükəsizliyi çox ciddi risklər altına düşə bilər.

Deməli, əsl müstəqil olmaq istəyən dövlət gözlənilən təhlükələrə qarşı dayanmaq qüdrətində və real imkanında olmalıdır. Bunun üçün isə konseptual səviyyədə dövlət özünün həm müstəqillik identikliyini müəyyən etməli, həm də dövlətçilik məsuliyyətini dəyişən situasiyalara adekvat ola biləcək səviyyədə dinamik olaraq inkişaf etdirməlidir.

Məsələnin bu cür qoyuluşu avtomatik olaraq müasir şərtlər daxilində dövlətin özünü daxildən daim yeniləşdirməyə məhkum olduğunu ifadə edir. İndiki şəraitdə bunu bacarmayan dövlətin müstəqil aktor kimi dünya proseslərində iştirakı mümkün deyildir. Ondan başqa, Azərbaycan artıq regional liderdir. Bu statusda onun dünyada rolu yeniləşir və imici də yeni səviyyəyə yüksəlir. Zirvədə qalıcı olmaq üçün daimi yeniləşmə və daha məsuliyyətli cəmiyyət formalaşdırmaq mühüm şərtdir.

Azərbaycanda dövlətçilik məsuliyyətinin inkişafını şərtləndirən faktorlar sırasında regional təşkilatlar çərçivəsində dövlətin fəaliyyətinin faktiki olaraq yeni mərhələyə qədəm qoymasını mütləq nəzərə almaq gərəkdir. Məsələ ondan ibarətdir ki, Azərbaycan Qoşulmama Hərəkatı, MDB və TDT-də birləşdirici, inteqrasiyaedici və regionlararası əməkdaşlığa yönləndirici güc rolunu oynayır. Bu, asan məsələ deyildir və Azərbaycan cəmiyyətinin öz dövlətinin fəaliyyətinə ciddi dəstək verməsi zəruridir. Bunun üçün hər şeydən öncə, dövlətçilik qarşısında məsuliyyət daşımaq duyğumuz olmalıdır. Cəmiyyət daha da güclənməlidir ki, dövlətin potensial imkanlarını reallaşdırmaq üçün əlavə imkanlar yaransın.

Nəhayət, Azərbaycan II Qarabağ müharibəsində əldə etdiyi Qələbə ilə regionda və qlobal miqyasda geosiyasi dinamikaya yeni çalarlar gətirdi. Bu nailiyyət dövlətlə yanaşı, cəmiyyət qarşısında da yeni məsuliyyət tələbləri qoyur. Dövlətçilik məsuliyyətinin bu sırada ilk yerdə olması şübhə doğurmur.

Bütün bunlardan məntiqi olaraq belə nəticə çıxarmaq olar: dövlətçilik məsuliyyəti faktiki olaraq cəmiyyəti daxili və xarici risklərdən sığortalaya bilən əsas mənəvi faktor rolunu oynaya bilər. Onun cəmiyyətdəki rolu birləşdirici və motivəedicidir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Zəfər marafonunun 28-ci günü**

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan  möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 24 oktyabr



• Cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Azərbaycan Ordusunun bölmələri cəbhənin müəyyənləşdirilmiş istiqamətlərində döyüş fəaliyyətlərini davam etdirib. Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələrinin bölmələrinə sarsıdıcı zərbələr vurulub. Düşmənin silah-sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılıb, bir neçə dayaq məntəqəsi dağıdılıb, əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülüb və mühüm yüksəkliklər azad olunub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda qeyd edilib ki, hazırda bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

• Prezident İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verib. Dövlətimizin başçısı müsahibədə – "Siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir" sualına cavabında bildirib: "Biz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçmişdir. Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olmuşdur. Bu, üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üçüncü hərbi təxribat idi. Onlar birinci dəfə bizə Qarabağ bölgəsindən uzaqda olan Ermənistan–Azərbaycan dövlət sərhədində hücum etdilər. Beynəlxalq müşahidəçilərin yekdil rəyi ondan ibarət idi ki, Ermənistan bizə qarşı hücum etmişdir. Onlar yeni əraziləri işğal etmək istəyirdilər".



Ali Baş Komandan müsahibədə Ermənistanın bü müharibəyə başlaması ilə ərazi işğalı ilə bərabər, işğalçının dövlət sərhədindən bir neçə kilometr məsafədə yerləşən Azərbaycanın strateji enerji infrastrukturunu – tamamlanmaqda olan Trans-Adriatik boru kəməri üzərində nəzarəti ələ keçirmək və bizi, ola bilsin Avropa istehlakçılarını şantaj etmək istədiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev daha sonra deyib: "Onlara ciddi cavab verildi. Biz onların geriyə çəkilməsinə nail olduq. Lakin əfsuslar olsun ki, növbəti avqust ayında onlar azərbaycanlılara qarşı terror aktları törətməyi planlaşdıran diversiya qrupunu göndərdilər. Bu sabotaj qrupunun başçısı bizim hərbi qulluqçular tərəfindən saxlanılmışdır və o ifadə verir. Beləliklə, bu, danışıqları pozmaq və Azərbaycana hücum etmək üçün qəsdən edilən bir cəhddir. Bu hücumu etməklə Ermənistanın güddüyü siyasi məqsədlərə gəlincə, bunlar status-kvonun dəyişməz olaraq qalmasından, bu eskalasiyaya görə günahı bizim üstümüzə atmaqdan, danışıqların tamamilə pozulmasından, üçüncü ölkələri münaqişəyə cəlb etməkdən və münaqişəni beynəlmiləlləşdirməkdən ibarət idi. Biz onlara yalnız adekvat cavab verdik. Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik".

• Düşmənin məhv edilən çoxsaylı döyüş texnikalarının videogörüntüləri təqdim olunub.

• Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi və Ağdərə istiqamətində uçuş keçirməyə cəhd göstərən pilotsuz uçuş aparatını məhv edib. Bölmələrimiz Cəbrayıl rayonu istiqamətində "BZEZ" zərbə pilotsuz uçuş aparatını aşkarlayaraq xüsusi texniki vasitələrlə yerə endiriblər.

• Artilleriyaçılarımız düşmənin atəş nöqtələrinə dəqiq zərbələr endirirlər.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin üç tankını, iki sığınacağını və dörd dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edib.

• Laçın və Qubadlı istiqamətlərində Azərbaycan Ordusunun hücumlarına qarşı müqavimət göstərə bilməyən və döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus və Qafan rayonları ərazisindən raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı ərazilərini güclü atəşə tutub. Ordumuz əməliyyat planına uyğun olaraq cəbhənin müxtəlif istiqamətlərində əks-hücumu davam etdirib. Ermənilərin könüllülərdən ibarət dəstələri və döyüş texnikası məhv edilərək bir neçə vacib yüksəkliklər azad olunub. Peşəkar Azərbaycan Ordusu yalnız düşmənin silahlı birləşmələrini və legitim hərbi obyektləri hədəfə alır.

• Ermənistanın siyasi-hərbi rəhbərliyi uşaqları da Qarabağda gedən hərbi əməliyyatlara cəlb edir.

İşğalçı ölkə rəhbərliyinin beynəlxalq konvensiyaları və normaları kobud şəkildə pozmasını sübut edən videogörüntülər sosial şəbəkələrdə elə ermənilərin özləri tərəfindən yayılıb. Görüntülərdə erməni hərbçilərinin 12–13 yaşlı yeniyetmədən istifadə etdiyi əks olunur.

Bütün bunlar onu göstərir ki, ermənilər Azərbaycan Ordusuna qarşı döyüşlərdə yeniyetmələrdən də istifadə edirlər. Bununla da döyüş meydanında heç bir qanun tanımayan düşmənin çoxsaylı beynəlxalq qanunları, o cümlədən BMT-nin, UNICEF-in, Paris konvensiyasının uşaq hüquqları ilə bağlı sənədlərini və normalarını pozması sübuta yetirilir.

Ermənistanın baş naziri Nikol Paşinyanın hərbi xidmətə çağırılmış orta yaşlılarla və qocalarla görüşünü əks etdirən videogörüntülərdə də onun  orta yaşlı, qoca əsgərlər qarşısındakı "ürəyinizdə qələbə ilə gedin" şüarını səsləndirməsi hərbi qulluq üçün yararlı olmayan bu şəxslərin cəbhəyə yola salındığını göstərir.

• Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriya və raket atəşinə tutması nəticəsində ümumilikdə 65 mülki şəxs həlak olub. Onların 18-i qadın, 10-u uşaqdır. Oktyabrın 4-də, 11-də və 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncədə 10-u qadın, 6-sı uşaq olmaqla 26 nəfər həyatını itirib, 138 nəfər yaralanıb. Bu barədə Baş Prokurorluq məlumat verib.

• ANAMA cəbhəyanı ərazilərdə 175 partlamamış hərbi sursat və iki dron aşkarlayıb.

• Ermənistan ordusu Goranboyda yaşayış məntəqəsinə "Smerç" raketləri atıb.

***XQ***

# Ümummilli lider Heydər Əliyevə Koqalımda abidə ucaldılıb

**Rusiyanın Xantı-Mansi Muxtar Dairəsinin Koqalım şəhərində ümummilli lider Heydər Əliyevə abidə ucaldılıb.**




Görkəmli dövlət xadimi Heydər Əliyev 1980-ci illərin əvvəlində o vaxt hələ qəsəbə olan, indi isə şəhərə çevrilən Koqalımın və ümumilikdə ölkənin neft sənayesinin inkişafına mühüm töhfə verib. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində idi və onun tapşırığına əsasən, qəsəbənin, həmçinin Sibirin neft hasilatçısı rayonlarının yol infrastrukturunun inkişafı üçün, o cümlədən Azərbaycandan podratçı təşkilatlar cəlb olunmuşdu. Bu şəhərin "Bakı" küçəsi Azərbaycan xalqının Koqalımın formalaşmasına verdiyi töhfəni xatırladır.

Abidənin müəllifi Aydın Zeynalov deyib ki, iş il yarıma yaxın davam edib. "Biz Heydər Əliyevin görkəmli şəxsiyyətini, onun təkcə bu şəhərin deyil, bütün Sovet İttifaqının inkişafındakı rolunu təsvir etməyi qarşımıza vəzifə qoymuşduq. Nəticədə diametri 15 metr və hündürlüyü 4 metr olan kifayət qədər möhtəşəm kompleks yaradılıb. İş prosesində Heydər Əliyevin müxtəlif illərdə çəkilmiş fotoşəkilləri diqqətlə tədqiq edilib. Onun çöhrəsində xəfif təbəssüm təsvir olunub. Mənə elə gəlirdi ki, Heydər Əliyev təkcə güclü, iradəli şəxsiyyət deyil, həm də çox mehriban, istiqanlı, gülərüz insandır. Mən bu keyfiyyətləri Ulu öndərin obrazında çatdırmağa çalışdım,"- deyə o vurğulayıb.

Xatırladaq ki, Koqalım şəhərində Ümummilli liderin gələcək abidəsinin yerindəki rəmzi daş 2023-cü ildə qoyulub. Həmin vaxt şəhərin rəhbəri Nikolay Palçikov özünün "Telegram" kanalında abidənin Heydər Əliyevin 100 illik yubileyi şərəfinə ucaldılacağını qeyd edib: "Azərbaycanlılar neft-qaz sənayesinin (Rusiya Federasiyasının Xantı-Mansi Muxtar Dairəsində - red.) inkişafına mühüm töhfələr veriblər. Bu görkəmli insanlara ehtiramımı ifadə edərək, bu gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi münasibətilə gələcək abidənin yerinə rəmzi daş qoyuldu".

**XQ**

# "Yer kürəsi uşaqların gözü ilə"

**IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Yer kürəsi uşaqların gözü ilə" adlı beynəlxalq fotomüsabiqə elan edilib.**




Fotomüsabiqə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunur. Layihə dünyaşöhrətli fotoqraf, "Reza Visual Academy"nin təsisçisi Reza Deqatinin iştirakı ilə reallaşdırılır.

"Yer kürəsi uşaqların gözü ilə" təkcə fotomüsabiqə deyil, eyni zamanda, gələcək nəslin ətraf mühitə dair maarifləndirmədə və təbliğatda fəaliyyət göstərməsinə çağırışdır. Müsabiqəyə dünyanın hər yerindən 18 yaşına qədər uşaq və yeniyetmələr təbiətin gözəllikləri, çirklənmə və iqlim dəyişikliyinin yaratdığı problemlər barədə fərqli baxışlarını fotolar vasitəsilə təqdim etməyə dəvət olunur.

"Mən təbiəti sevirəm, çirklənmədən qorxuram" devizi altında keçirilən müsabiqə gəncləri ətraf mühitə sevgilərini və planetimizin gələcəyi ilə bağlı narahatlıqlarını əks etdirən cəlbedici fotoşəkillər çəkməyə təşviq edir.

Qalib gələn fotoşəkillər COP29 çərçivəsində noyabrın 11-dən etibarən Bakıda Heydər Əliyev Mərkəzində sərgilənəcək.

Xatırladaq ki, bundan əvvəlki "Yer kürəsi uşaqların gözü ilə" beynəlxalq fotomüsabiqəsi gənc fotoqrafların bədii istedadlarını, ətraf mühitə dair məlumatlılığını nümayiş etdirərək qlobal diqqət toplayıb, fotoqrafiyanın maarifləndirmə və sənətin unikal və effektiv bir formada birləşdirici rolunu göstərib.

Müsabiqə gənclərə ətraf mühitin mühafizəsində mövqe tutmaq və fotoqrafiyanın universal dili ilə dəyişikliklərə ilham vermək məqsədi daşıyır.

Fotoqrafiyada təcrübə və bacarıq səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdən 18 yaşa qədər uşaq və yeniyetmələr müsabiqədə iştirak etmək üçün mövzuya uyğun gələn 1-dən 20-dək fotoşəkil (şəkillərin kontekstini və mövzu ilə əlaqəsini təsvir edən qısa izah qeyd etməklə) təqdim edə bilərlər. Oktyabrın 31-i müraciət üçün son tarixdir.

Münsiflər heyəti fotoşəkilləri yaradıcılıq, mövzuya uyğunluq, düşüncə və emosiya oyatmaq bacarığı əsasında qiymətləndirəcək. Qaliblər qlobal səviyyədə tanınma fürsətindən əlavə, sənət nailiyyətlərinə görə SRL kameralar qazanacaqlar.

Təqdimatlar müsabiqənin rəsmi internet səhifəsi vasitəsilə onlayn verilə bilər. Ətraflı məlumatı https://childreneyes.earth veb-saytından əldə etmək olar.

Sosial media hesabları: instaqram: @childrenseyesonearth; feysbuk: @childrenseyesonearth

Əlaqə: photocontest@childreneyes.earth

**XQ**

# Martinikada etirazlar yenidən şiddətlənib

**Fransanın Martinika departamentində komendant saatının vaxtının uzadılması etirazlara səbəb olub.**



"Figaro" nəşri xəbər verir ki, narazı kütlə departamentin mərkəzi Fort de Fransda yolları bağlayıb, barrikadalar qurub.

Polis aksiyanı yatırmaq üçün güc tətbiq edib. Qarşıdurma zamanı çox sayda avtomobil, iş yeri və ticarət obyekti yandırılıb. Hadisə nəticəsində bir neçə nəfər xəsarət alıb, 3 etirazçı saxlanılıb. Onlardan ikisi həbs edilib.

Qeyd edək ki, bahalığa qarşı aksiyaların davam etdiyi Martinika departamentində komendant saatının vaxtı oktyabrın 28-dək uzadılıb.

**XQ**

**Dostluq duyğuları**

# Mən qərib olmadım tacik elində



*Birinci yazı*

**Bu qeydlərim dost Tacikistanın dövlət müstəqilliyinin elan edilməsinin 33, Emoməli Rəhmonun prezident seçilməsinin 30, onun Azərbaycana axırıncı səfərinin ildönümü günlərinə düşür. Maraqlıdır ki, bu faktların hamısı məhz oktyabr – noyabr aylarına təsadüf edir.**

Ötən həftə türk televiziyalarından hansındasa verilişin qonağı olan din xadimindən belə bir ifadə eşitmişdim: "Kimsə sizə xoş arzular söyləyibsə, on illərdən sonra olsa da, həmin arzular reallaşacaq". Doğrusu, həmin tezis mənə inandırıcı gəlməmişdi və o qədər də inanmamışdım. Amma dörd gün Düşənbədə qalandan sonra həmin məntiqin həqiqət olduğunu anladım.



Söhbət ondan gedir ki, İncəsənət İnstitutunda oxuduğumuz illərdə sənətşünaslıq fənnindən bizə dərs deyən Sevil Əliyeva (Allah ona rəhmət eləsin!) böyük sənətkar, heykəltəraş Fuad Əbdürrəhmanovun yaratdığı Nizami ( Gəncədə və Bakıda), Səməd Vurğun, "Azad qadın", Mehdi Hüseynzadə heykəlləri barədə danışdıqdan sonra demişdi ki, onun iki böyük əl işi – Rudəki və Sədrəddin Ayni heykəlləri Düşənbədə, İbn Sina heykəli isə Səmərqənddə ucaldılıb. O zaman demişdim ki, kaş o heykəlləri görə biləydim. Sevil xanım qətiyyətli idi: "Ürəkdən arzulasan, görəcəksən!"

Düşənbədə Rudəkinin də, Sədrəddin Ayninin də abidəsi önündə dayananda bir vaxt deyilənlərə inanmadığıma görə xəcalət çəkdim. Elə oradaca türk din xadiminə, Fuad Əbdürrəhmanova, Rudəkiyə və Sədrəddin Ayniyə və həmçinin müəllimim Sevil xanıma min rəhmət oxudum. Elə Fuad Əbdürrəhmanovun həmin əsərlərinin memarı Mikayıl Hüseynova da. Sədrəddin Ayninin Düşənbədəki başqa bir heykəlinin müəllifi isə görkəmli sənətkarımız Ömər Eldarovdur. Ona isə Allah kömək olsun.

## Tacikistan dostumuz, taciklər sirdaşlarımızdır

Ötən ay "Xalq qəzeti"ndə bu barədə bir yazım verildiyinə görə indi təfərrüata varmaq istəmirəm. Ancaq bəzi faktları xatırlatmaq lazım gəlir. Belə ki, respublikamızın xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq xüsusi yer tutur. Çünki xalqlarımızın əsrlərlə davam edən tarixi, mədəni, dini bağlılığına ehtiramla yanaşmalıyıq və yanaşırıq. Prezident İlham Əliyevin son 2-3 il ərzində Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana gəlmələri yenidən qütbləşən dünyada zamanın çağırışlarına, əslində, cavabdır. Rəsmi Bakının Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığında Tacikistan ilə münasibətlərin özünəməxsus yeri var.

Tarixi ənənələr üzərində qurulmuş bu münasibətlər Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən sonra daha böyük əhəmiyyət kəsb edir. Hamı bilir ki, bu gün Çindən Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımalar məhz Mərkəzi Asiya ölkələrindən və Azərbaycandan keçir. Tacikistanlı mütəxəssislərin hazırladıqları elektron resurslarda tez-tez vurğulanır ki, Çindən başlanan qədim İpək Yolu məhz Tacikistan ərazisindən keçirdi. Üstəlik, beynəlxalq aləmdəki son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi Orta dəhlizin əhəmiyyəti artmaqdadır. Mütəxəssislərin fikrincə, bu gün Orta dəhlizə artan maraq heç də təsadüfi deyil. O da faktdır ki, Zəngəzur dəhlizi həmin nəhəng layihənin mühüm tərkib hissələrindən biri olacaq. Bu fakt isə regionda yeni əməkdaşlıq formatının yaranmasına, sülhün və tərəqqinin təmin olunmasına xidmət göstərəcək.

Tacikistanla münasibətlərə gəlincə isə xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun şəxsi dostluq münasibətləri haqqında ölkəmizdə öyrəndiklərimin əksəriyyətini Düşənbədə də eşitdim. Xatırladım ki, Prezident İlham Əliyev Tacikistana indiyədək altı dəfə səfər edib. Ötən il dövlətlərimiz arasında ali səfərlər baxımından olduqca məhsuldar il olub. Azərbaycan Prezidenti 2023-cü ildə dost ölkədə iki dəfə səfərdə olub. Dövlətimizin başçısı 2023-cü il aprelin 5-6-da Tacikistana dövlət səfəri edib. Məlum olduğu kimi, Prezident İlham Əliyev ötən il sentyabrın 14-də Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının Düşənbədə keçirilən iclasında Prezident Emoməli Rəhmonun dəvəti ilə yeganə fəxri qonaq qismində iştirak edib. Tacikistan Prezidenti Emoməli Rəhmon isə ötən il noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün Bakıda səfərdə olub.

Ölkələrimiz arasında, ümumilikdə, 70-dən çox sənəd, o cümlədən 2007-ci il martın 15-də "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında" Müqavilə imzalanıb. Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin başçısının ötən il Tacikistana dövlət səfəri çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair daha 14 sənəd imzalanıb.

Bu ilin may ayında Prezident Emoməli Rəhmonun ölkəmizə dövlət səfəri ərəfəsində isə Bakıda keçirilən Azərbaycan –Tacikistan İnvestisiya Forumu çərçivəsində şirkətlər arasında ticarət, dağ-mədən və kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair daha 8 sənəd imzalanıb. Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında memorandumun imzalanması da mühüm faktdır. Bundan başqa, Xocənd ilə Gəncə qardaşlaşmış şəhərlərdir.

## "O Tacikistanda vətəndaş müharibəsinə son qoyub"

Düşənbə səfərim ezamiyyə və ya hansısa tapşırığın yerinə yetirilməsi məqsədi daşımadığına görə heç bir rəsmi quruma və ya təşkilata müraciət etmədim. Milli Dövlət Kitabxanasına, Etnoqrafiya muzeyinə və bu dost ölkədə çıxan "Narodnaya qazeta"nın redaksiyasına getməyim isə bu ilin yayında ərsəyə gəlmiş iki kitabımın tacik oxucularına və oradakı həmkarlarımıza təqdim etmək məqsədi daşıyırdı. Aşağıda həmin görüşlər barədə söhbət açacağam.

Qərəz, Ayni küçəsində həmsöhbətim olan (məmnuniyyətlə xatırladıram ki, Düşənbədə rastlaşdığım yaşlı adamların hamısı əcnəbi turist və ya qonaq görəndə əlini sinəsinə qoyaraq başını əyməklə, ehtiramla salam verir) Əlişir müəllimlə söhbətimiz doğmaların və ya köhnə tanışların ünsiyyətini xatırlatdı. Həmsöhbətim Azərbaycanın sürətlə inkişaf etdiyini və bütün planlarını istədiyi şəkildə reallaşdırdığını xatırlatdı. Mən isə Düşənbənin də sürətlə yeniləşməsini, şəhərin başdan-başa yeni binalarla gözəlləşdirildiyini xatırlatdım. Həmsöhbətim daha böyük əhəmiyyət kəsb edən başqa bir məsələdən söz açdı:

"Emoməli Rəhmonun tacik xalqına ən böyük xidməti 90-cı illərin əvvəllərində alovlanmış vətəndaş müharibəsinə son qoyması idi. Təbii ki, bütün müharibələr faciə və fəlakətlər gətirir. Ancaq vətəndaş müharibəsi təkcə itkilər, faciələr gətirmir, həm də xalqın ruhunu zədələyir, mənəviyyatına zərbələr vurur, millətə üz-qaralığı gətirir".

## "Dahi sözü yetərli deyil"

Şəhəri daha yaxşı görə bilmək üçün taksidən az istifadə etdim. Ona görə də Rudəki prospektinə çatmaq üçün Sədrəddin Ayni küçəsi ilə xeyli piyada getməli oldum. Rudəki prospekti isə demək olar ki, bitib-tükənmək bilmirdi. Prospektin sonundakı Rudəki parkını ( taciklər Boqi Rudaki – Rudəki bağı deyirlər) isə yaxşı görmək üçün ən azı üç-dörd gün gəzmək lazımdır. Yəni özümü çox yordum. Ona görə də bir az əvvəl kəsilmiş yağışın yuduğu klassik oturacaqlardan birində əyləşdim.

Məndən bir az aralıda iki ağsaqqal əyləşmişdi. Onlardan biri aşıq demiş, əl sinəyə qoyaraq, məni öz yanlarına dəvət etdi. Azərbaycanlı olduğumu biləndə dövlət başçımızın qazandığı uğurlardan və xüsusən, torpaqlarımızın düşmən tapdağından azad edilməsindən məmnunluqla danışdılar.

Həmsöhbətlərimdən biri dedi ki, Prezident İlham Əliyev dahi siyasətçidir. Digəri isə etiraz etdi: "Dahi sözünü şairlər, yazıçılar, alimlər, xüsusən, fiziklər, kimyaçılar haqqında demək olur. İlham Əliyevin böyüklüyünü xarakterizə etmək üçün isə dahi sözü yetərli deyil.

Söhbətin bu məcraya yönəldiyini görəndə mən onların kimliyi ilə maraqlandım. Məlum oldu ki, hər ikisi uzun illər ali məktəb müəllimi olub və indi pensiyaçıdır.

## "And və əməl" regionun ən böyük kitabxanasında

Düşənbəyə gedəndə bu ilin yayında "Xalq qəzeti" baş redaktorunun təşəbbüsü ilə ərsəyə gətirdiyim "And və əməl" və "Baş redaktorlarımız haqqında yazılanlar" adlı kitablardan bir neçəsini götürmüşdüm. Həmin kitablardan ikisini təqdim etmək üçün Tacikistan Prezidenti İcra Aparatı nəzdindəki Milli Kitabxanaya getdim.

Kitabxana direktorunun birinci müavini Salima xanım Racabzado, sözün həqiqi mənasında, söz vurğunu, kitab aşiqi imiş. Bu xanım "Odlar yurdu" təmsilçisinin onlara iki kitab bağışlamasını əlamətdar bir gün kimi qəbul etdi. Hətta, mən Düşənbədən Bakıya qayıdanadək həmin görüş haqqındakı məlumatı xəbər şəklinə salaraq öz oxucularına təqdim etdilər.

Onu da əlavə edim ki, "Xalq qəzeti"nin kitabxanası seriyasından olan həmin kitablar Mərkəzi Asiyanın ən böyük kitabxanası adlandırılan bu bilik mənbəyinin Xarici ədəbiyyat şöbəsində yaradılmış "Azərbaycan" guşəsində nümayiş etdiriləcək.

## Qarabağ Azərbaycandır!

Rudəki prospekti ilə Milli Kitabxana tərəfə gedəndə Sovet dönəmindən qalmış, üstündə heç bir yazısı, qeydi olmayan bir bina ilə maraqlandım. Bir nəfərdən soruşdum ki, bu bina nə məqsədlə tikilmişdi? Təbii ki, rus dilində soruşdum. Dedi ki, əfəndim, mən rus dilini bilmirəm. Mən Türkiyədənəm.

Mənim azərbaycanlı olduğumu biləndə sanki sevindi. O biri tindəki yaraşıqlı binanı göstərərək dedi ki, ora bizim səfirliyimizdir.

Məlum oldu ki, Ədhəm adlı bu şəxs Mirzoxan adlı özbək dostunu gözləyir. Mirzoxanla da salamlaşdıq və mən yoluma davam etdim.

Günortaya yaxın yenə də həmin prospektlə otelə qayıdanda yanımda bir maşın dayandı fərqinə varmadım. Siqnal verdilər. Çevrilib gördüm Ədhəmlə Mizoxandır. "Əfəndim, hara gedirsənsə biz bırakak" – deyə Ədhəm təklif etdi. Mən heç bir köməyə ehtiyac olmadığnı deyəndə isə özbək oğlan əlini maşının şüşəsindən kənara çıxararaq prospektdə hamının eşitməsi üçün deyirmiş kimi ucadan səsləndi: "Qarabağ Azərbaycandır!"

## Çörəyimiz diz üstündə yox, göz üstündədir...

Düşənbəyə gedəndə Bakı aeroportunda Mədəniyyət nazirinin müşaviri, eyni zamanda Azərbaycan Respublikası Kino Agentliyi baş direktorunun vəzifəsini icra edən Orxan Fikrətoğlu ilə görüşdük. O, Düşənbəyə mədəniyyət nazirlərinin beynəlxalq forumunda iştirak etmək üçün gedirdi. Xeyli söhbət etdik və çay içdik.

İş elə gətirdi ki, qayıdanda da onunla eyni təyyarədə gəlməli olduq. Zəngin təəssüratları var idi. Mən isə həm Qazaxıstana səfərlərimdə, həm də Düşənbə səfərimdə Azərbaycan haqqında kifayət qədər xoş söz eşitdiyimi söylədim: "Məmnun oldum. Bizim haqqımızda ağız dolusu danışırlar!"

– Çünki bizim çörəyimiz diz üstündə yox, göz üstündədir" – deyə Orxan Fikrətoğlu gülümsədi. Əlavə etdi ki, dünya tamam dəyişib: "Hamı saxta münasibətlə səmimi münasibəti çox rahatlıqla seçə bilir. Azərbaycana olan inam bundan sonra daha da çoxalacaq".

**İttifaq MİRZƏBƏYLİ,**
**Əməkdar jurnalist**

**Bakı – Düşənbə – Bakı**

# Cənub Qaz Dəhlizi enerji bazarına önəmli çıxışdır

## *Bu layihənin yarımillik gəliri 24 faiz artıb*

**(əvvəli 1-ci səhifədə)**

"Cənub Qaz Dəhlizi" Səhmdar Cəmiyyətinin maliyyə hesabatına əsasən, qurum bu ilin ilk yarısında 901,554 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 24,1faiz çox) xalis mənfəət əldə edib. Səhmdar Cəmiyyətin yanvar-iyun aylarında əməliyyat gəlirləri 1 milyard 632 milyon ABŞ dolları (illik müqayisədə 17,2 faiz çox), satışının maya dəyəri 365,617 milyon ABŞ dolları (49,2 faiz çox), ümumi-inzibati xərcləri 185,175 milyon ABŞ dolları (12,7faiz çox), nəqletmə xərcləri 107,775 milyon ABŞ dolları (55,8 faiz çox), digər gəlirləri 35,296 milyon ABŞ dolları (26,3 faiz çox), faiz gəlirləri 80,87 milyon ABŞ dolları (75,2 faiz çox) təşkil edib.

25 fevral 2014-cü il tarixli sərəncamı ilə "Şahdəniz" qaz-kondensat yatağının tam miqyaslı istismarı, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələrində dövlətin iştirak paylarının birləşdirilməsi, idarə edilməsi və maliyyələşdirilməsi məqsədi ilə yaradılıb. Səhmdar Cəmiyyətin nizamnamə kapitalı 2 milyard 416 milyon ABŞ dolları olub, səhmlərinin 51 faizi İqtisadiyyat Nazirliyinə, 49 faizi isə Dövlət Neft Şirkətinə verilib.

Azərbaycanın təbii qazını Avropa bazarlarına çatdıran Cənub Qaz Dəhlizinin dörd seqmentdən biri olan TAP boru kəməri ilə ticarət əməliyyatlarının başlandığı gündən buvaxtadək "köhnə qitəyə" 40 milyard kubmetrdən çox qaz nəql edilib. Avropanın enerji təhlükəsizliyini və davamlılığını dəstəkləyən boru ölkələrinə qaz tədarükünü asanlaşdıracaq. TAP-ın Yunanıstan və Albaniyadakı çıxışları, İtaliyaya uzanması ilə birlikdə Azərbaycan qazının daha geniş Avropa bazarlarına nəqli üçün çoxsaylı imkanlar yaradır. TAP Cənub Qaz Dəhlizinin əsas hissəsi kimi Avropa üçün strateji və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycan qazının Avropanın cənubuna nəql olunduğu Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP-ın ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetrə çatıb.TAP-ın tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Kəmərin ümumi uzunluğu 878 kilometrdir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 km-i Albaniya ərazisindən, 105 km-i Adriatik dənizinin dibi ilə, 8 km-i isə İtaliya ərazisindən keçir.




Bu il iyulun 1-nə "Cənub Qaz Dəhlizi"nin vəsaitləri 14 milyard 750 milyon ABŞ dolları (ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz çox) olub. Hesabat dövründə şirkətin öhdəlikləri 9,8 faiz azalaraq 7 milyard 468 milyon ABŞ dollarına düşüb, balans kapitalı isə 13,2 faiz artaraq 7 milyard 284 milyon ABŞ dollarına çatıb.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" Səhmdar Cəmiyyəti ölkə Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının II mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" kəməri ilə 2026-cı ilə qədər ildə əlavə 1,2 milyard kubmetr qaz nəql olunması planlaşdırılıb.

Qeyd edək ki, TAP kommersiya qaz nəqlinə 2020-ci ilin dekabrında başlayıb. Boru kəməri Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağından çıxarılan təbii qazı Avropaya çatdırır. TAP Türkiyə –Yunanıstan sərhədində TANAP boru kəmərinə birləşir, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın cənubunda sahilə çıxır.

Boru kəməri perspektivli interkonnektorlar vasitəsilə Cənub–Şərqi Avropa

Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü 2020-ci il dekabrın 31-dən başlayıb.

Türkiyəyə Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən təbii qaz nəql olunur. Təbii qaz həcmləri Cənubi Qafqaz Boru Kəməri (Bakı-Tbilisi-Ərzurum) və TANAP vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı-Tbilisi-Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb.

**İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,88 milyard manat olan 157 sahibkarlıq subyektinə rezident statusu verilib. Sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb.**

# Sənaye parkları milli iqtisadiyyatımızı modernləşdirir

## *Yeni istehsal zonalarında 14,5 milyard manatlıq məhsul buraxılıb*

Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manatdan çox investisiyanın yatırılması və 9400-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub. Bundan başqa, 2015-ci ildən bu il oktyabrın 1-dək sənaye zonalarında 14,5 milyard manatlıq məhsul satışı həyata keçirilib. Bunun 4,7 milyard manatlıq hissəsi ixrac edilib.



Azərbaycan iqtisadiyyatın bütün sahələrində, eləcə də sənayenin inkişafında böyük uğurlar əldə edir. Bu gün iqtisadi fəallığın artırılması, dayanıqlı inkişafın təmin olunması məqsədilə ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal obyektlərinin, sənaye parklarının yaradılması da intensiv xarakter daşıyır.

Qeyri-neft-qaz sektorunda nəzərə çarpan müsbət dinamika həm də ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların geniş cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Sənaye parklarının yaradılmasında əsas məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafına, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasına və mövcud sahədə sahibkarlığın dəstəklənməsinə nail olmaqdır. Eyni zamanda, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlər də qarşıda mühüm vəzifələr kimi durur.

Qarabağın dirçəlməsində də sənayeləşmə siyasətinə mühüm önəm verilir. Başqa sözlə, işğaldan azad edilmiş ərazilərimizdə sənaye parklarının yaradılması və bu sahəyə investisiya cəlb olunması bölgənin resurslarından, həmçinin iqtisadi imkanlardan yararlanaraq Qarabağın ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır.

Düşməndən xilas olunan torpaqlarımızın dirçəldilməsi və sənaye potensialının inkişaf etdirilməsi məqsədilə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb, bu da əhalinin bu sözügedən sənaye zonalarına marağının artmasına səbəb olub.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə quruculuq və abadlıq işlərinin uğurla həyata keçirilməsi, eləcə də əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi məqsədilə rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılması, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı və zəruri stimulların tətbiqinin xüsusi əhəmiyyəti nəzərə alınaraq dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə Ağdam şəhərində 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb.

Hazırda Ağdam Sənaye Parkında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində işlər mərhələli şəkildə həyata keçirilir və artıq burada sosial zonanın təşkili yekunlaşıb, parka ayrılan 190 hektar ərazi minalardan təmizlənib, elektrik enerjisi və su təchizatı sistemi qurulub. Həmçinin rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri aparılıb.

İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi İdarə Heyətinin sədri Seymur Adıgözəlovun sözlərinə görə, cari il ərzində Ağdam Sənaye Parkında 5-dən çox müəssisənin fəaliyyətə başlaması nəzərdə tutulub. Artıq parkın ərazisinin 60 faizindən çox hissəsi sahibkarların uzun müddətlik istifadəsinə verilib.

Azad olunmuş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsində, eləcə də sənaye sahəsində məşğulluğun təmin olunmasında mühüm rol oynayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı isə "Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında" Prezident İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli Fərmanı ilə Cəbrayıl rayonunda yaradılıb.

Parkın logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi də onun uğurlu fəaliyyəti üçün zəmin yaradır. Belə ki, parkın ərazisindən həmin magistral yollara birbaşa giriş-çıxışın təmin edilməsi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınmasına imkan verir.

Sənaye parklarının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi mühüm vəzifə kimi qoyulub. Bütün bunlarla yanaşı, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının gerçəkləşdirilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlərə xüsusi önəm verilib.

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında indiyədək bir sıra stimullaşdırıcı tədbirlər tətbiq olunub. Məsələn, Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna uyğun olaraq, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

# Aqrar Sığorta Fondu Türkiyə təcrübəsini öyrənir

**Aqrar Sığorta Fondunun nümayəndə heyəti respublikamızda aqrar sığorta mexanizminin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə Türkiyə təcrübəsinin və yeniliklərin öyrənilməsi məqsədilə qardaş ölkədə görüşlər keçirib.**



Fonddan verilən məlumata görə, görüşlərdə aqrar sığorta müqavilələrinin bağlanması, sığorta hadisələrinin tənzimlənməsi, sığorta ödənişlərinin daha sürətlə reallaşması, əkin sahələrinə dəyən zərərlərin qiymətləndirilməsi ilə bağlı Türkiyə təcrübəsinin öyrənilməsi ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələrdə müstəqil aqrar sığorta ekspertləri institutunun təkmilləşdirilməsi, ekspertlərlə işin qurulması, onların göstərdiyi xidmətlərin keyfiyyətinə nəzarət məsələlərinə də toxunulub.

Xatırladaq ki, Azərbaycanda 2020-ci ildən dövlət dəstəyi ilə fəaliyyətə başlayan aqrar sığorta mexanizmi Türkiyə Respublikasının Tarım Sığortaları Sisteminin "TARSİM" təcrübəsi və dəstəyi ilə yaradılıb.

Hazırda Aqrar Sığorta Fondu vasitəsilə 41 bitki növü üzrə 48 bitki məhsulunu çoxsaylı risklərdən sığortalamaq mümkündür. Bu isə ölkə üzrə əkin sahələrinin 96 faizini əhatə edir. Aqrar sığorta zamanı hesablanan sığorta haqqının 50 faizi fermerlərə dəstək məqsədilə dövlət tərəfindən ödənilir. Nəticədə fermer təsərrüfatlarında cüzi məbləğ ödənilməklə sığorta həyata keçirilir. Aqrar sığorta əkin sahələrini təbii fəlakətlər, dolu, qasırğa, fırtına, leysan yağışları, 3-cü şəxslərin hərəkəti, yanğın, vəhşi heyvanların hücumu və s. risklərdən sığortalayır.

Aqrar sığortadan faydalanan fermerlərin sayı sürətlə artır. Fondun fermer və təsərrüfatlara ödənilən sığorta ödənişləri artıq 10 milyon manatı keçir.



# Ölkəmiz İsveçrədə elektroliz zavodu tikəcək

**Azərbaycan Dövlət Neft Şirkətinin "2023-cü il üzrə davamlı inkişaf haqqında hesabat"ında bildirilib ki, qurum 2026-cı ilə qədər gücü 10 meqavata qədər olan elektroliz zavodunun inşa edilməsini planlaşdırıb.**

Ümumilikdə isə 2025-ci ildə başlanacaq tikintinin sonunda zavodun tam genişləndirilməsi nəticəsində ildə 1–1,2 min tona qədər yaşıl hidrogen istehsalı nəzərdə tutulub. Əldə ediləcək hidrogenin boru kəməri vasitəsilə şirkətin bu ölkədəki yanacaqdoldurma stansiyalarına daşınacağı qərara alınıb.

Qeyd edək ki, Azərbaycan Dövlət Neft Şirkəti Bern şəhəri yaxınlığındakı ayda 150-ə yaxın yük maşınını yanacaqla təmin edən ilk hidrogen yanacaqdoldurma məntəqəsini işə salıb. Qurum, həmçinin elektrikli akkumulyatorla işləyən avtomobillər üçün enerji doldurma biznesini genişləndirməyə başlayıb. Şirkət 2023-cü ilin sonuna qədər İsveçrədəki yanacaqdoldurma məntəqələrinin sayını 206-a çatdırıb.

# Sahibkarlara güzəştli kredit "asan"laşdırılacaq

**İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu İdarə Heyətinin sədri Osman Xaliyev Bakıda "Dayanıqlı mikromaliyyə üçün innovativ həllər" mövzusunda keçirilən konfransda Azərbaycanda güzəştli kredit mexanizminin tam elektron platforma üzərindən həyata keçirilməsinin planlaşdırıldığını bildirib.**

Onun sözlərinə görə, artıq bununla bağlı işlər başa çatmaq üzrədir. Bu addın sahibkarların maliyyəyə, xüsusilə güzəştli maliyyəyə çıxışını asanlaşdırmaq məqsədi daşıyır. Hazırda isə həm sahibkarlıq subyektləri, həm də kredit təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi hədəflənir. İllər ərzində atılan addımlar nəticəsində mikro, kiçik və orta sahibkarlıq subyektlərinin Sahibkarlığın İnkişafı Fondunun təklif etdiyi güzəştli kreditlərdə payı indi



həm say və həm də məbləğ baxımından artır. Belə ki, bu gün verilən güzəştli kreditlərin say olaraq 99 faizi, məbləğ olaraq isə 93 faizi mikro, kiçik və orta sahibkarların payına düşür.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# Xəzər imdad diləyir

**Xəzər dənizi Rusiya, Azərbaycan, Qazaxıstan, İran və Türkmənistan da daxil olmaqla 5 ölkənin ərazisini yuyan ən böyük su hövzəsi olmaqla bərabər, həm də sahilyanı dövlətlər üçün qlobal əhəmiyyətli zəngin təbii sərvətlər xəzinəsidir. Bu gün Xəzər çirklənmə və iqlim dəyişikliyinin fəsadları ilə üz-üzədir. Dənizin ekosistemi sürətlə deqradasiyaya uğrayır. Bunun nəticəsində bəzi dəniz heyvanları tələf olur, bir çoxu isə təhlükə altındadır. Sahil xətti ciddi təsirlərə məruz qalır.**

ETN Coğrafiya İnstitutunun Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov bütün bunlarla bağlı XQ-yə bildirdi:

– Xəzər dənizinin səviyyəsi son 5 il ərzində 69 santimetr, son 10 ildə isə 114 santimetr enib. 1990-cı illərin ortasından bəri su hövzəsinin səviyyəsi 2 metrdən çox aşağı düşüb. Bu azalma iqlim istiləşməsi, Xəzər hövzəsinə aid çaylar boyu əhalinin, su istehlakı standartlarının artması və çay hövzələrində yağıntıların azalması səbəbindən daha da artıb. Artıq bu, bütün Xəzəryanı ölkələri ciddi narahat edən problemlərdən birinə çevrilib.

Dənizin səviyyəsinin aşağı düşməsi ilə bağlı çox sayda versiyalar var. Onlardan biri Avrasiyanın daxili ərazilərində iqlimin quraqlaşması və bunun bir sıra su obyektlərinin, o cümlədən Xəzərin səviyyəsinin aşağı düşməsi ilə bağlıdır. Digər versiyaya görə, dənizinin cənub hissəsi tektonik cəhətdən aktivdir. Ola bilsin ki, su hövzəsinin cənub hissəsindəki dərin səth dalğalanmaları həddindən artıq dayaz olan şimal hissəsində suyun səviyyəsində dəyişikliyə səbəb olur. Suyun bir hissəsi cənuba doğru çəkilir. Üçüncü versiya isə dənizin səviyyəsinin dəyişməsi onun su balansı ilə əlaqələndirilir. Xəzərdə quraq iqlimə görə dəniz səthindən illik yağıntının miqdarından çox su buxarlanır.

Çayların suyunun azalması da təsirsiz ötüşmür. Dənizin qidalanmasında Volqa çayının xüsusi əhəmiyyəti var. Bu çay vasitəsilə ona ümumi illik axar 80 faiz, digər çaylar – Kür 6 faiz, Ural 5 faiz, Terek, Sulaq və Samur birlikdə 4,5 faiz, İran ərazisindən Səfidrud, Şirrud, Gürgan və s. 4-4,5 faiz təşkil edir. Amma indi Volqa və digər çaylar əvvəlki kimi dənizə bol su gətirmir.

**– Xəzər dənizində çirklənmənin artması hansı təhlükəli nəticələr törədir?**

– Dənizin əsas çirkləndiricisi təbii ki, neftdir. Bu, Xəzərin mavi–yaşıl yosunlarının və fitoplanktonlarının inkişafını zəiflədir, oksigen istehsalını azaldır və dib çöküntülərində toplanır. Nəticədə dəniz heyvanlarının yem və oksgen qıtlığı yaranır. Çirklənmənin artması su səthi ilə atmosfer arasında istiliyə, qaz mübadiləsinə mənfi təsir göstərir. Neft ləkələrinin geniş ərazilərə yayılması ilə buxarlanma sürəti bir neçə dəfə azalır.

Neft çirklənməsi ilə yanaşı, sənaye müəssisələrindən müxtəlif tullantı suları Xəzər dənizinə axıdılır. Çayların rolu da az deyil. Mütəxəssislərin fikrincə, hər il Xəzər dənizinə 100 milyon kubmetr çirkab su axıdılır. Bu da dənizin ekologiyasına ziyan vurur, eyni zamanda, insan sağlamlığı üçün təhlükəli olan yoluxucu xəstəliklərin mənbəyinə çevrilir.

Beləliklə, dənizdə karbohidrogen ehtiyatlarının axtarışı, hasilatı və nəqli zamanı ekoloji tələblərin gözlənilməməsi, sənaye tullantıları, çay suları ilə dənizə müxtəlif çirkləndirici maddələrin gətirilməsi, məişət tullantı sularının təmizlənmədən Xəzər dənizinə axıdılması, kənd təsərrüfatında istifadə olunan gübrələrin yağıntı və suvarma suları ilə çaylar–kanallar vasitəsilə dənizə buraxılması da onu çirkləndirir.

**– Xəzər bəzi heyvan növləri üçün risk zonasına çevrilib. Mütəxəssislər onların tamamilə yox olacağını proqnozlaşdırırlar.**

– Çirklənmə nəticəsində təkcə bir növün deyil, bütün yaşayış yerlərinin itirilməsi daha təhlükəlidir. Hazırda su sahəsi qurğuşun, civə, kadmium, arsen, sink, nikel, vanadium və bir çox digər təhlükəli maddələrlə çirklənib. Ən böyük zərəri fenollar – neftin emalı zamanı əmələ gələn maddələr vurur. Onların miqdarı icazə verilən normadan bir neçə dəfə çoxdur.



Digər tərəfdən suyun səviyyəsinin aşağı düşməsi və onun səth sahəsinin azalması duzluluğu dəyişir, flora və faunanın bir çox növləri üçün təhlükə yaradır. Bundan əlavə, suyun həcmi azaldıqca çirkləndiricilərin qatılığı artır. Ekosistemdəki dəyişikliklər növlərin miqrasiyasına, qida zəncirlərinin pozulmasına və rəqabətin artmasına səbəb olur.

Məsələn, Xəzər suitiləri risk zonasındadır. Onlar endemikdir (yalnız müəyyən coğrafi ərazidə və başqa heç yerdə rast gəlinməyən canlı orqanizm növü) və sağlamlığı bütün Xəzər dənizinin ekoloji rifahının göstəricisi hesab olunur. Ekoloji dəyişikliklər suitilərin kilkə və siyənəkdən ibarət qida təminatını pisləşdirir. Bütün bu amillər isə suitilərin həyatı üçün ciddi təhlükələr yaradır və onların sayının azalmasına səbəb olur.

Mütəxəssislər onların tamamilə yox olacağını proqnozlaşdırırlar. Belə ki, 1990-cı ildən 2012-ci ilə qədər populyasiyanın sayı 1,2 milyondan 274 minə qədər azalıb. Sonrakı dövrlərdə də Xəzərin sahillərində vaxtaşırı heyvanların kütləvi ölümü qeydə alınıb.

Yuxarıda qeyd etdiyim kimi, balıqların sayı da sürətlə azalır. Bu, təkcə Azərbaycan ərazisində yox, Xəzəryanı ölkələrin hər birində nərəcinsli balıqların ehtiyatı ötən əsrin 80-ci illəri ilə müqayisədə, təqribən, 30 dəfə, 2005–2006-cı illərlə müqayisədə isə 10 dəfə azalıb. Sudak balığının kürüləmə, kiçik balıqların qidalanma sahələri əsasən, neft və qazlı ərazilərlə üst-üstə düşür. Kilkə balığının 50–60 faiz azaldığı bildirilir. Bu da iri balıqların yem ehtiyatının azalması və onların yox olmasına gətirib çıxara bilər.

Balıqların ölümünə həm də oksigen çatışmazlığı təsir edir. Kilkələr, kefallar və s. əsasən, iyuldan sentyabra qədər kürü tökmək üçün sahilyanı dayaz hissələrə miqrasiya edirlər. Burada onlar müsbət olmayan bir şəraitlə rastlaşdıqları üçün məhv olurlar. Çünki Xəzər dənizi dayazlaşır, bu zaman dərinlik azalır, su daha çox qızdığı üçün oksigenin miqdarı azalır.

Dənizin neftlə çirklənməsi su quşlarına da təsir edir. Yağla təmasda olan lələklər su itələyici və istilik izolyasiya xüsusiyyətlərini itirir, bu da quşların tez ölümünə səbəb olur. Abşeron rayonunda dəfələrlə quşların kütləvi tələfatı qeydə alınıb. 1998-ci ildə Ələt qəsəbəsinin yaxınlığındakı Gel adasının sahil zolağının neftlə çirklənməsi nəticəsində 30 min bataqlıq quşu tələf olub. Son illərdə isə bu ərazidə vəziyyət xeyli yaxşılaşıb.

Bundan 3 il əvvəl isə “Tengiz” quyusunda (Qazaxıstan) baş vermiş qəza nəticəsində 200 minə yaxın quş ölüb. 2020-ci və 2022-ci illərdə də kütləvi quş ölümləri qeydə alınıb.

**– Alimlər Xəzərin xilasını nədə görürlər?**

– Dənizin ekoloji vəziyyəti tədricən fəlakətə yaxınlaşır. 2006-cı ildə 5 ölkə Tehran Çərçivə Konvensiyasını imzalayıb ki, bu da Xəzər dənizində ətraf mühitin qorunması, atqıların idarə edilməsi, müxtəlif maddələrlə çirklənmədən qorunması, dəniz suyunun mühafizəsi və bərpası məqsədi daşıyır. Lakin bu, Xəzər dənizinin ekologiyasını xilas etmir və ildən–ilə vəziyyət daha da pisləşir.

2022-ci ildə Aşqabadda keçirilən VI Xəzər Zirvə toplantısı zamanı Xəzəryanı ölkələrin dövlət başçıları bu çağırışdan narahat olduqlarını bildiriblər. Toplantıda problemin həlli ilə əlaqədar əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb. Azərbaycan tərəfi həmin problemin hərtərəfli öyrənilməsi, habelə səviyyə ssenariləri və müvafiq uyğunlaşma tədbirlərinin hazırlanması üçün ekspert qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Sevindirici haldır ki, Xəzəryanı ölkələr də həmin təşəbbüsə qoşulublar.

Ekspert qrupunun əsas məqsədi Xəzər dənizinin səviyyəsinə təsir edən amillərin tədqiqi, bu mühüm su hövzəsinin davamlı idarə olunması üçün tövsiyələrin formalaşdırılmasıdır. Hesab edirəm ki, ilk növbədə, Xəzər dənizinin dibindən başlayaraq onun sahil zonalarına qədər tam tədqiqi zəruridir. İkincisi, Xəzər dənizi ilə təmasda olan bütün çirkləndirici mənbələrin inventarlaşdırılması aparılmalıdır. Həmçinin, hər birimiz istirahətdən sonra sahilə zibil atmadan sadəcə olaraq dənizin ümumi ekoloji vəziyyətinin yaxşılaşdırılmasına öz töhfəmizi verə bilərik.

*Müsahibəni apardı:*
*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Britaniya lordları ADA Universitetində



**Böyük Britaniyanın Lordlar Palatasının iki üzvü – uzun müddət Mühafizəkarlar Partiyasının icraçı direktoru vəzifəsini icra etmiş lord Darren Mott və 7 il İşçi Partiyasının Baş katibi vəzifəsində işləmiş lord İain McNicol ADA Universitetində təşkil edilən “Azərbaycanın COP29-da strateji əhəmiyyəti” adlı konfransda çıxış etmək üçün “Qarabağ” Futbol Klubunun prezidenti, işadamı Tahir Gözəlin dəvəti ilə Bakıya səfər ediblər.**

Konfransda Azərbaycanın COP29-da strateji əhəmiyyəti, beynəlxalq əməkdaşlığın inkişafındakı rolu müzakirə edilib, tələbələrin sualları cavablandırılıb.

Lord McNicol və lord Mott COP29-a evsahibliyi edən ölkəmizi ziyarətdən məmnun olduqlarını söyləyib, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə töhfələrinə görə minnətdarlıqlarını bildiriblər.

# Neft Şirkətinin “yaşıl” layihələri

**Azərbaycan Dövlət Neft Şirkətinin 2023-cü il üzrə davamlı inkişaf haqqında hesabatına əsasən, qurum Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının karbon neytral zona kimi inkişaf etdirilməsini qarşıya mühüm vəzifə kimi qoyub.**



Şirkət bu məqsədlə perspektivdə emissiyaların azaldılması, enerji səmərəliyinin artırılması, karbonun tutulması, istifadəsi və saxlanması kimi imkanların tətbiqini nəzərdə tutub. Bütün bunlarla bərabər, işğaldan azad edilən ərazilərdə elektrikli nəqliyyat vasitələri üçün regional infrastrukturun qurulmasını da planlaşdırıb.

Neft Şirkəti Qarabağ və Şərqi Zəngəzurun karbon neytral zona kimi inkişafı məqsədilə qazın bərpaolunan enerji, $H_2$ və digər “yaşıl” enerji həlləri ilə əvəzlənməsini, həmçinin “yaşıl” yanacaq istehsalının artırılması və ənənəvi karbohidrogen yanacağının bioqaz və biodizellə əvəz edilməsini nəzərdə tutur.

# Karbonsuz enerjiyə keçid qlobal çağırışdır




**COP29 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumatda konfransın gedişində dayanıqlılığın təşviqi və ətraf mühitə təsirlərin minimuma endirilməsi öhdəliyinin bir hissəsi kimi dayanıqlı enerji həllərinin tətbiq ediləcəyi, Bakı Stadionunun mühüm enerji təchizatının hidratlaşdırılmış bitki yağı (HVO) hesabına gerçəkləşdiriləcəyi bildirilib.**

Vurğulanıb ki, COP29 Azərbaycan Əməliyyat Şirkəti COP29-un nəzərdə tutulan 7 əsas öhdəliyini dayanıqlılıq siyasətinə əsaslanaraq təşkil edir. Bu öhdəliklərin ən başlıcası bərpaolunan enerji istifadəsi, enerji səmərəliliyi və qaçılmaz emissiyaların balanslaşdırılması yolu ilə istixana qaz emissiyasını azaldaraq karbon neytrallığı konsepsiyasına nail olmaqdır. Birdəfəlik plastiklərin azaldılması, dayanıqlı nəqliyyat xidmətləri və ekoloji cəhətdən təmiz satış məhsullarının təchizatı kimi dayanıqlı təcrübələrin təşviqi də dayanıqlılıq siyasətinə əsasən, ikinci əsas öhdəlikdir.

Bu iki istiqamətin əsasını təşkil edən prioritet təşəbbüslərdən biri də konfrans məkanının əksər hissələrinin enerji təchizatı üçün qazıntı yanacağına alternativ olaraq hidratlaşdırılmış bitki yağının seçimi və istifadəsidir. Bu təşəbbüs konfrans məkanında enerjidən istifadə nəticəsində yaranan İXQ emissiyalarını əhəmiyyətli dərəcədə azaltmaq məqsədi daşıyır.

Hidratlaşdırılmış bitki yağı aşağı karbonlu yanacaq mənbəyidir və onun yanması zamanı yaranan karbon emissiyaları bu yağı hazırlamaq üçün istifadə olunan bitkilərin udduğu karbonla kompensasiya olunur. Bu isə hidratlaşdırılmış bitki yağını ənənəvi qazıntı yanacağından daha dayanıqlı alternativə çevirir. Bundan əlavə, hidratlaşdırılmış bitki yağı tədbir məkanlarında və ətrafda havanın keyfiyyətini yaxşılaşdıraraq bərk hissəciklər, azot oksidləri və kükürd oksidləri kimi zərərli tullantıları əhəmiyyətli dərəcədə azaldır. Hidratlaşdırılmış bitki yağı ilə yanaşı, tədbir məkanın bütün digər enerji ehtiyacları konfransın keçirildiyi günlərdə bərpaolunan enerji mənbələri hesabına gerçəkləşdirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, bu innovativ təşəbbüs COP29 Enerji keçidi üzrə Tərəfdaş –“SOCAR Green” şirkətinin dəstəyi ilə reallaşacaq. Sözügedən şirkət tədbir məkanını elektrik enerjisi ilə təmin etmək üçün lazımi hidratlaşdırılmış bitki yağı həcmlərinin təmin edilməsində əhəmiyyətli rol oynayır. Bu fakt Azərbaycanın daha dayanıqlı və aşağı karbonlu enerji gələcəyinə keçidlə bağlı böyük hədəflərini əks etdirir.

# Bakı konfransının əsas sənədləri

**COP29 Sədrliyi iqlim dəyişikliyi ilə mübarizədə ambisiyaların artırılmasına və fəaliyyətin sürətləndirilməsinə yönəlmiş bir sıra yeni təşəbbüs, bəyannamə və öhdəliklər təqdim edib.**



Bu barədə COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayevin Bakıda keçiriləcək BMT-nin iqlim sammitində sədrlik proqramı çərçivəsində 9 bəyannamə və öhdəliyin yekun variantlarının yer aldığı məktubunda deyilir.

Bu sənədlər bütün tərəflərin iqlim öhdəliklərinin artırılması prosesinə töhfə vermək məqsədi daşıyır.

Təqdim olunan təşəbbüslərə COP29 atəşkəs çağırışı, qlobal enerji anbarları və şəbəkələri öhdəliyi, yaşıl enerji üzrə zona və dəhlizlər öhdəliyi, hidrogen, yaşıl rəqəmsal fəaliyyət, üzvi tullantıların tərkibindəki metan qazının azaldılması və s. haqqında bəyannamələr aiddir. Onlar iqlim fəaliyyətinin əsas prioritetlərini əhatə edir, həmçinin diqqəti unudulmuş istiqamətlərə yönəldir.

Məktubda deyilir ki, COP29 Sədrliyi bütün ölkələri və qeyri–dövlət qurumlarını iqlim prosesinə etimadı artırmaq və keçmiş öhdəliklərin yerinə yetirilməsini təmin etmək üçün bu bəyannamə və öhdəliklərə qoşulmağa çağırır. Bir çox təşəbbüslər sürəti qorumaq üçün mövcud öhdəliklərə əsaslanır.

COP29 “Atəşkəs çağırışı” artıq 127 ölkəni və 1100-ə yaxın qeyri–dövlət subyektini səfərbər edib və buna görə Sədrlik onlara minnətdarlığını bildirib.

“Sədrlik bütün tərəfləri konfransın uğurlu keçməsi və qlobal iqlim fəaliyyətində əhəmiyyətli irəliləyişin əldə edilməsi üçün birgə işləməyə çağırır. Ambisiyaların artırılması və aydın hədəflərin müəyyən edilməsi iqlim böhranı ilə səmərəli mübarizənin açarıdır", – məktubda bildirilir.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# Enerji bazarında sabitlik və tənzimləmə zəruridir

**Energetika Nazirliyindən aldığımız məlumata görə, nazir Pərviz Şahbazov Çində energetika nazirlərinin “Kəmər və yol” konfransı çərçivəsində keçirilən forumda bazar sabitliyi, etibarlı təchizat və bərpaolunan enerjidə dəyişkənliyin səmərəli idarə edilməsində diversifikasiyanın vacib amil olduğunu bildirib.**




Çıxışda diversifikasiyanın bərpaolunan enerji mənbələrinə əsaslanan müasir qlobal enerji arxitekturasının da əsas prioritet olduğu vurğulanıb, eyni zamanda, enerji təhlükəsizliyi və şaxələndirmənin sadəcə seçim deyil, həm də həyati vacib zərurət kimi diqqət çəkdiyi qeyd edilib.

Bildirilib ki, Azərbaycanın təşəbbüsü olan Bakı–Tbilisi–Ceyhan və Cənub Qaz Dəhlizi layihələri ilə tarixdə ilk dəfə Xəzər Aralıq və Adriatik dənizləri ilə birləşdiriləcək, Avropanın enerji xəritəsini dəyişən, şaxələndirilmiş enerji mənbələri və marşrutlarının unikal modelinə çevrilib. Şaxələndirilmiş marşrutlar sayəsində Azərbaycan 10 ölkəni qaz, 30-a yaxın ölkəni isə neftlə təchiz edir. Ötən il neft ixracının 75 faizi, qaz tədarükünün isə 50 faizi Avropanın payına düşüb. Azərbaycan beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş olduğunu sübuta yetirib. İndi isə ölkəmizin enerji təchizatında rolunu “yaşıl” enerji ilə daha da şaxələndirən və genişləndirən strateji əhəmiyyətli gündəlik həyata keçirilir. Türkiyə, Avropa və Mərkəzi Asiya istiqamətlərində “yaşıl” enerji dəhlizlərinin yaradılması bu gündəliyin mühüm prioritetləridir.

“Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji dəhlizi” layihəsinin texniki–iqtisadi əsaslandırmasının ilkin hesabatının COP29 çərçivəsində keçiriləcək “Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi üzrə Liderlər Sammiti”ndə təqdim ediləcəyi, 2025-ci ildən isə layihənin fəal icra mərhələsinə daxil olacağı bildirilib. “Yaşıl Enerji Zonası” konsepsiyasının tərkib hissəsi kimi reallaşdırılan və 1 QVt ötürmə gücünə malik “Azərbaycan–Türkiyə –Avropa” “yaşıl” enerji dəhlizinin isə texniki–iqtisadi əsaslandırmasına başlanıldığı, həmçinin COP29 zamanı “Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Hökumətlərarası Saziş”in imzalanacağı barədə məlumat verilib.

Energetika naziri deyib ki, bu dəhlizlər şəbəkə dayanıqlığının artırılmasında, regionlar arasında daha geniş bərpa olunan enerjinin inteqrasiyasının dəstəklənməsində və balanlaşmanın təmin edilməsində interkonnektorların mühüm rolu ilə bağlı qlobal çağırışlara cavab verən unikal layihələrdir. Təchizatın təhlükəsizliyini gücləndirəcək, eyni zamanda, təmiz enerjiyə keçidi sürətləndirəcək bu “yaşıl” enerji dəhlizləri “Kəmər və yol” təşəbbüsünün də enerji təhlükəsizliyi, ekoloji dayanıqlılıq və iqtisadi inkişafla bağlı məqsədlərinə töhfə verəcək.

Konfransda Azərbaycanın “yaşıl” enerji dəhlizləri və interkonektorların inkişafını özünün COP29 Sədrliyinin əsas enerji təşəbbüsü kimi elan etdiyi də diqqətə çatdırılıb. Yeri gəlmişkən, bir müddət bundan əvvəl Macarıstanın Baş naziri Viktor Orbanın mətbuat katibi Zoltan Kovaç “X” sosial şəbəkəsində ölkəsinin xarici işlər naziri Peter Siyartoya istinadla Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyadan olan enerji operatorlarının tezliklə “yaşıl” enerji sahəsində tərəfdaşlıq haqqında yenilənmiş sazişi imzalamağı planlaşdırdıqlarını bildirib.

Z.Kovaç daha sonra “yaşıl” enerjinin Azərbaycan və Gürcüstandan Macarıstan və Rumıniyaya idxal etməyə imkan verən layihənin praktiki icrasına yaxınlaşdığını, bununla bağlı Macarıstan–Azərbaycan–Gürcüstan–Rumıniya tərəfdaşlığına dair Buxarestdə keçirilən görüşdə milli təhlükəsizliyin əsas elementi kimi enerji təhlükəsizliyinin vacibliyinin vurğulandığını, eyni zamanda, “Azərbaycan–Gürcüstan–Avropa Qara dəniz vasitəsilə “yaşıl” enerji dəhlizi” layihəsinin Gürcüstan və Azərbaycandan yeni enerji mənbələrinin reallaşacağına şərait yaradacağını, bununla da Macarıstanın enerji istehlakında dayanıqlığının artacağını qeyd edib.

Paylaşımda, həmçinin layihədə iştirakçı ölkələrin elektrik enerjisi şirkətlərinin birgə müəssisə yaradılması və tezliklə “yaşıl” enerji sahəsində tərəfdaşlıq haqqında dəyişdirilmiş sazişin imzalanmasının planlaşdırılması diqqətə çatdırılıb. Məlumatda belə layihələrin uğurunun çox vaxt maliyyələşdirmədən asılı olduğu, Avropa İttifaqının bu layihəyə lazım olan infrastrukturun inkişafı üçün maliyyə dəstəyi göstərəcəyinə ümid edildiyi bildirilib. Paylaşımın sonunda 1100 kilometrlik sualtı kabelin uzunluğuna görə rekord olacağı və layihə başa çatdıqdan sonra “yaşıl” enerjinin idxalının asanlaşacağı vurğulanıb.

Xatırladaq ki, Rumıniyanın paytaxtı Buxarest şəhərində “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası məqsədilə 8-ci Nazirlər–Rəhbər Komitənin iclası keçirilib. Energetika Nazirliyindən aldığımız məlumata görə, toplantıda Azərbaycanı energetika naziri Pərviz Şahbazov, Rumıniyanı energetika naziri Sebastian-İoan Burduja, baş katib Mirça Abrudean, Gürcüstanı Baş nazirin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Macarıstanı isə xarici işlər və ticarət naziri Peter Siyarto təmsil ediblər. Görüşə Bolqarıstan, Avropa Komissiyası, ötürücü sistem operatorları və CESI şirkətinin nümayəndələri də qatılıblar.

İclasda layihənin CESI şirkətinin həyata keçirdiyi texniki–iqtisadi əsaslandırmasının cari vəziyyəti, birgə müəssisənin təsis edilməsi ilə bağlı görülən işlər, “yaşıl” enerji dəhlizinin fiber–optik komponenti, həmçinin Bolqarıstanın layihəyə inteqrasiyası imkanlarına və digər istiqamətlərə dair məsələlər müzakirə edilib.

2022-ci il dekabr ayının 17-də imzalanan “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”də Rumıniya ilə respublikamız arasında bərpaolunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsi nəzərdə tutulub və 1000 meqavat gücündə 1195 kilometr (1,1 min kilometr sualtı və 95 kilometr yerüstü) uzunluğunda sualtı elektrik kabelinin tikintisi qərara alınıb. Bu anlaşma ilə Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi və Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsası qoyulub.

Layihənin əhəmiyyətini nəzərə alan Dünya Bankının İcraçı Direktorlar Şurası elektrik enerjisi və bərpaolunan enerji mənbələri proqramı vasitəsilə Qara dənizin dibinin geofiziki və geotexniki tədqiqatlarının aparılmasının maliyyələşdirilməsi üçün 35 milyon dollar məbləğində krediti təsdiqləyib. Avropa İttifaqı isə Şərq Tərəfdaşlığı İnvestisiya Planına əsaslanaraq layihəyə 2,3 milyard avro ayırmaq niyyətini bəyan edib. Eyni zamanda, Avropa Yenidənqurma və İnkişaf Bankı bu layihəyə dəstək məqsədilə müzakirələrə başlayıb.

Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, “yaşıl” enerji təchizatçısına çevrilməyi planlaşdırır. Çünki Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, respublikamızın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. “Yaşıl” enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən, külək enerjisi üzrə 3000 meqavat, günəş enerjisi üzrə 23000 meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Əlbəttə, bu göstəricilər xarici strateji investorların Azərbaycanın enerji bazarı üçün maraqlı olmasını deməyə əsas verir.

Xəzər regionundan Avropa İttifaqı ölkələrinə Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsi 4 qiqavata qədər “yaşıl” enerjinin ötürülməsini asanlaşdıracağı gözlənilir. Eyni zamanda, bu layihə ilə yanaşı, Xəzər regionundan Avropa İttifaqına “yaşıl” hidrogenin çatdırılması üçün sistemin yaradılması da diqqətdə saxlanılır. Artıq Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya istiqamət götürəcək bu layihənin texniki–iqtisadi əsaslandırılması sonuncu mərhələyə qədəm qoyub. Layihənin texniki-iqtisadi əsaslandırılmasını İtaliyanın CESİ şirkəti həyata keçirir. Texniki–iqtisadi əsaslandırmanın bu ilin sonuna qədər hazır olacağı gözlənilir.

# COP29: 32 mindən çox qonaq qeydiyyata alınıb




**Bu ilin 11–22 noyabrında Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak üçün müvafiq qeydiyyat prosesindən keçən iştirakçıların sayı 32 min nəfəri keçib.**

COP29 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumata görə, beynəlxalq iqlim konfransında iştirakla bağlı qeydiyyat prosesinə bu il iyunun 24-dən başlanılıb. Dünyanın müxtəlif ölkələrindən konfransda iştiraka göstərilən maraq qeydiyyatdan keçənlərin sayının günbəgün artması ilə müşayiət edilib. Davam edən qeydiyyat prosesi ərzində bu rəqəmin yaxın günlərdə daha da artması gözlənilir.

Bildirilib ki, COP29 konfransı beynəlxalq iqlim siyasətinin formalaşmasında əsas platforma olaraq dünya miqyasında iqlim dəyişmələrinə qarşı mübarizə məsələlərinin müzakirə mərkəzi olacaq. Dünyanın bir sıra ölkələrindən bu müzakirələrdə iştirak etmək üçün 10 minlərlə nümayəndənin Bakıda qarşılanması üçün yekun hazırlıq işləri davam etdirilir.

# Bakı konfransının hədəfi təmiz gələcək və ümumi tərəqqidir

**Avstriyalı siyasi analitik Klaus Jürgens mediaya müsahibəsində bildirib ki, Bakıda keçiriləcək COP29 təkcə iqlim dəyişmələri paktının bir parçası deyil, həm də iqtisadi məsələdir.**



Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizədə əsas diqqətin inkişaf etməkdə olan və qlobal istiləşmənin mənfi təsirinə daha çox məruz qalan ölkələrə yönləndirilməsi vacibdir: “COP29 çox mühüm tədbirdir. Hər şeydən öncə bu toplantı iqlim dəyişmələri, ətraf mühit və digər mühüm məsələlərlə əlaqədardır. Yəni belə konfranslar hansı ölkədə keçirilməsindən asılı olmayaraq çox əhəmiyyətlidir. İndiki şəraitdə isə inkişaf etmiş ölkələrin bu məsələdə dəstəyi önəmlidir”.

Tədbirin Bakıda keçirilməsinə gəlincə, analitikin fikrincə, Azərbaycan hökuməti COP29-la müsbət gündəmə nail olacaq, sürətli sosial-iqtisadi inkişafını bütün dünyaya nümayiş etdirəcək. Bununla da ölkənin beynəlxalq aləmdəki reputasiyası daha da yüksələcək. Təbii ki, bu, Azərbaycan üçün iqtisadı və siyasi baxımdan böyük bir avantaj, üstünlük olacaq.

Analtik daha sonra vurğulayıb ki, COP29-un broşürünə baxanda da mənzərədən aydın olur ki, Bakı artıq konfransa hazırdır. Azərbaycan hökuməti bu tədbirə gələcək nümayəndə heyətlərinə, diplomatlara, hər kəsə əvvəlcədən dəstək göstərir və COP29-dan istifadə edərək bəzi ölkələrə “Biz istənilən yerdə dostuq”, – deyir.

# Karbon tullantısının 15 faizi nəqliyyatın payına düşür

**Energetika nazirinin müavini, COP29-un Azərbaycan üzrə baş icraçı direktoru Elnur Soltanov “Gələcək üçün dayanıqlı nəqliyyat” mövzusunda keçirilən tədbirdə ölkəmizdəki emissiyaların, təxminən, 15 faizinin nəqliyyatın payına düşdüyünü bildirib. Nazir müavininin sözlərinə görə, 2022-ci ildə respublikamızın ümumi emissiyaları, təxminən, 61 milyon tondan çox olub. Azərbaycanın emissiyaları qlobal emissiyaların, təxminən, mində biri səviyyəsində qeydə alınıb.**



Baş icraçı direktor iqlim müzakirələrinin əsasını Azərbaycanın hazırladığı Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi təşkil etdiyini, burada ölkələrin öhdəliklərinin və iqlim fəaliyyət planlarının əksini tapdığını vurğulayıb.

Qeyd edək ki, Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədində ölkəmizin milli şəraiti və maraqları, eləcə də gələcək inkişaf perspektivləri nəzərə alınaraq, qlobal iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması təşəbbüslərinə töhfə olaraq baza ili (1990) ilə müqayisədə 2030-cu ilə istixana effektli qaz tullantılarının səviyyəsində 35 faiz azalmanın saxlanılmasını hədəf kimi götürülüb.

Son 100 ildə Azərbaycan ərazisində orta illik temperatur 0,4-1,3 dərəcəyə qədər artıb. Temperatur artımı regionlardan asılı olaraq qeyri–bərabər paylanıb. Belə ki, Böyük Qafqazın yüksək dağlıq ərazilərində orta illik temperaturun 1,1-1,3 dərəcə artması müşahidə olunub. Azərbaycanda aparılan tədqiqatlara əsasən, 1961-1990-cı illərlə müqayisədə 1991¬–2012-ci illərdə temperatur artımı 0,2–1,5 dərəcə intervalında dəyişib. Son 10 illiklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü də artıb.

Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə yüksək dərəcədə həssas, inkişaf etməkdə olan ölkədir. İstilik effekti yaradan qazların milli tullantıları qlobal tullantıların yalnız 0,1 faizini təşkil edir.

# İqlim tarazlığı üçün maliyyə islahatları

**COP29-un “X” hesabında COP29 sədrliyi ilə Beynəlxalq Valyuta Fondunun (IMF) icraçı direktoru Kristalina Georgievanın iqlim davamlılığı üçün maliyyə islahatlarını müzakirə etmələri barədə paylaşım edilib.**




Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev və maliyyə naziri Samir Şərifovun iştirak etdikləri görüşdə iqlim davamlılığı üçün maliyyə islahatları və həllərinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Müzakirələrdə diqqət dayanıqlı, iqlimə uyğun inkişafın gerçəkləşdirilməsi üçün qlobal maliyyə sistemlərinin COP29 məqsədləri ilə uzlaşdırmasının zəruriliyinə yönəldilib.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

# Avropanın “qurtuluşu” yaxınlaşır

## *Avropa İttifaqı “tələsindəki pendirə” daha yaxın düşən yoxdur*



**(əvvəli ötən sayımızda)**

2016-cı ildə İngiltərənin Aİ-da “Brext” adı alan “boşanma”sının əleyhinə olan “Britaniya Avropada daha güclüdür” kampaniyasının internet saytında Aİ-də qalmağın lehinə müxtəlif mənbələrdən bir sıra maraqlı statistik məlumatlar dərc etdilər. Məsələn, məlumatlardan birində qeyd edilirdi ki, Böyük Britaniya “Aİ-nin vahid bazarının üzvü olmaq üçün ildə 5,7 milyard funt-sterlinq xərcləyir və bunun nəticəsində Britaniya iqtisadiyyatı hər il 91 milyard funt-sterlinq (115 milyard avro) gəlir əldə edir. Ölkə Aİ-dən çıxsa, ərzaq, yanacaq və elektrik enerjisinin qiymətləri artacağından və bu hər bir britaniyalı ailənin xərclərini ildə 4,3 min funt sterlinq (5,4 min avro) artmasına səbəb olacaq”. Amma bunların bir faydası olmadı və əhali Britaniya krallığının Aİ-ni tərk etməsinə səs verdi. Şübhəsiz, burda ingilislərin tarixi, milli-mənəvi və ailə dəyərlərinə olan bağlılığı da böyük rol oynadı.

Avropa İttifaqının dağılmasına aparan dördüncü səbəb isə miqrantlardır. Avropanı çökdürmək üçün ABŞ hakimiyyət institutlarının başında duran elita köhnə mexanizmlərdən istifadə edir. Xüsusən də konkret bu və ya digər ölkənin cəmiyyətini daxildən sarsıdan qondarma miqrasiya layihəsini yenidən canlandırırlar. Yeganə fərq ondan ibarət idi ki, indiki variant Aİ-də artıq mövcud olan miqrant resurslarından istifadəni nəzərdə tuturdu.

Bu prosesin başlanmasının sübutu fransız “sarı jiletlilər” hərəkatının başlanmasıdır, daha dəqiq desək, onun tozlu və bulanıq pərdələri arxasında baş verənlərdir. Avropa Fransa polisinin, nümayişçilərin hərəkətlərini və hakimiyyətin addımlarını həvəslə müzakirə etdiyi bir vaxtda, respublika prezidenti sakitcə və gizlincə miqrasiya haqqında aktı imzalayır. Xatırlayırsınızsa, prezident Emmanuel Makron tətillər başlamazdan əvvəl Fransanın heç vaxt imzalamayacağına söz verdiyi sənədə imza atdı. Bundan sonra sərhədlərin bağlanmasından söhbət gedə bilməzdi və Paris miqrantların sayını azaltmaq əvəzinə, daha çox miqrant qəbul etməyə başladı.

Fransa mühitində, xüsusən də əhalinin miqrantların parazitizmindən hədsiz narazılığını nəzərə alsaq, adi məntiqi nöqteyi-nəzərdən bu, absurd görünür. Amma vəziyyətin ironiya doğuran tərəfi ondadır ki, süni etirazların təşkilatçıları ilə Aİ-nin dağılmasında maraqlı olanlar eyni adamlardır. Məhz buna görə də sənəd imzalanan vaxt fransız küçələri birdən-birə bu aktual məsələ ilə maraqlanmağı dayandırdı.

Cəmiyyətlə hakimiyyətin parçalanması üçün reallıqla mətbuatın mövqeyi arasında süni uçurumdan daha yaxşı heç nə ola bilməz. Buna görə də fransızlar miqrantların olduğu şəhərlərdən kütləvi şəkildə daha sakit yerlərə köçərkən, hakimiyyətin sifarişlərini yerinə yetirən media bunun tam əksini “üfürməyə” başladı.

Həmin ərəfədə Britaniyanın mediaya nəzarət orqanı olan Müstəqil Mətbuat Standartları Təşkilatının təzyiqi ilə məşhur tabloid “Daily Mail” düzəliş və əlavələr kolonunu dərc etməyə məcbur oldu. Qısaca desək, o, miqrantlarla bağlı işlərin real vəziyyəti haqqında hesabat dərc etməyə cəsarət etdiyi üçün hamıdan üzr istədi. Onların əvvəlcə dərc etdikləri materialda Aİ-nin müxtəlif şəhərlərində bütöv ərazilərin total islamlaşmasından, həmçinin Fransada bu məsələ ilə bağlı kritik vəziyyətdən bəhs edilirdi.

“Dünyanın ən azad mətbuatının” hakimiyyətin bir tələbi ilə xəbərlərinə düzəliş etməsi ilk baxışda təəccüblü görünə bilər, amma reallıq ondan ibarətdir ki, anqlosaksların mediası həmişə elitanın əlində alət olub. Yeganə fərq ondadır ki, əvvəllər onlar bunu xaricdə edirdilər, indi isə Avropa İttifaqının daxilində edirlər. Xalq kütlələrinin qəzəbini daşırmaq avrotolerantlığın uzun müddətdir qaynayan çaydanını daşırmaq məqsədi daşıyır və bu, Aİ-nin dağılması üçün daha bir şərtdir.

Beşinci səbəb kimi isə qlobal təxribatı qeyd etmək olar. Avropanın iqtisadi kəmərlərinin sıxılması daxili deyil, ilk növbədə xarici səbəblərdən qaynaqlanır. Problemin kökü kapitalizm böhranı və bazar qıtlığının getdikcə zahiri sivilizasiyalı Qərb dünyasını öz əsl “vəhşi” formasına qaytarmasındadır. Çin Qərbin “maliyyə parazitizmi” üçün yeni bazarlar açmasına mane olur. Rusiya yerli münaqişələrin, çevrilişlərin və müharibələrin qarşısını almağa nə qədər cəhd göstərsə də onu müharibəyə çəkə bilirlər və nəticədə iki xalqı bir-birinə qırdırırlar.

Birləşmiş Ştatların niyyətlərini sübut etmək üçün adi məntiq də kifayətdir. 2000-ci illərin əvvəllərində Aİ və Amerikanın bütün ehtiyaclarını ödəmək üçün Avropanın texnoloji imkanları və istehsal potensialı var idi. Eyni zamanda, Vaşinqton da həm Birləşmiş Ştatlar, həm də Avropa bazarlarını öz malları ilə tam təmin edəcək texnologiya və istehsal potensialına malik idi. Ona görə də onlardan biri getməli idi. Daha doğrusu, başqasının yeminə çevrilməli idi. Təbii ki, bu ABŞ ola bilməzdi, ona görə də Avropa oldu...

Belə şəraitin yaranmasına gətirib çıxaran əsas səbəblərindən biri də ABŞ-nin özünün iqtisadi vəziyyətidir. Daha dəqiq desək, qlobal borc iqtisadiyyatının artımının əsas drayverinin – yeni köpüklər yaratmaq qabiliyyətini itirməsidir. Əsasən ABŞ ordusu və investorların inamı üzərində qurulan dollar sisteminin işləməsi üçün Amerikaya daim yeni münaqişələr yaratmaq lazımdır. Dolların işğal etmədiyi bu və ya digər bölgəni açarı inqilablar və müharibələr ola bilər. Resursları milliləşdirilən ölkələr dağıdıldı, dolların mövcud olduğu sistemlər inqilablarla yenidən işə düşdü – İraq, Liviya, Suriya, Misir, Tunis. Köpükləri şişirtməklə və dolları xaricə ixrac etməklə pul çap edən maşınının gücü dayanmadan artırdı.

Lakin 2015-ci ildən və Rusiyanın Suriyaya gəlişindən sonra hər şey başqa cür inkişaf etməyə başladı. Amerikalıların ümid etdiyi böyük münaqişə baş vermədi. Suriya dövləti inqilabdan və dağıdıcı müharibədən salamat qurtardı. Milli dövlətlərin ləğvi və əvvəllər milliləşdirilmiş aktivlərə trilyonlarla dollar qoyulması baş vermədi, əsas marşrutlar və enerji mənbələri ABŞ-nin əlinə keçmədi. Digər tərəfdən onlar məhz özlərinin yaratdıqları və silahlandırdıqları terrorçu ordular üzərində nəzarət itirdilər.

O vaxtdan bəri, yeni maliyyə köpüyü və xaos yaratmaqla dollar sisteminin mövcudluğunu uzatmaq cəhdi Moskva və Pekinin birgə müqavimətilə qarşılaşmağa başladı. Dünyanın inkişaf etməkdə olan nəhəng iqtisadiyyatları BRİCS-də birləşdilər və dünyanın çox güclü bir iqtisadi birliyini qurmağa başladılar. İndi bu təşkilat ətrafına müstəqil iqtisadi və siyasi siyasət yürütmək arzusunda olan onlarla dövlət toplamaqdadır.

Aİ yenidən iki yanğın arasında qalıb. ABŞ-yə indi dollar iqtisadiyyatının böhranını təxirə salmaq üçün Avropanı “yemək”, bunun üçünsə əvvəlcə onu məhv etmək lazımdır. Bu planın reallaşdırılmasına başlamazdan 2 il əvvəl Rusiya–Ukrayna müharibəsi alovlandırıldı və bir il əvvəl isə İsrailin Yaxın Şərqdə qızışdırdığı müharibənin hansı cəhətdən yardımçı olacağını artıq görməkdəyik.

Rusiyaya sonsuz sanksiyalar tətbiq edən Qərb artıq ABŞ-nin qurduğu tələyə düşüb, desək, əsla yanılmarıq. Aİ iqtisadiyyatı son illər bir-birinin ardınca şok yaşamaqdadır. Beynəlxalq Valyuta Fondunun sitat gətirdiyi məlumatlara görə, 2019-cu ildən bəri Aİ-nin ÜDM-i real ifadədə təxminən 4,8 faiz artıb, ABŞ-da isə real ÜDM-in artımı təxminən 8 faiz olub. Aİ-nin ən böyük iqtisadiyyatı olan Almaniyada adambaşına düşən ÜDM faktiki olaraq azalıb. Avropa İttifaqı üçün rəsmi proqnozlar bu il artımın 1 faizdən az olacağını göstərir, müşahidəçilər isə gələcək vəziyyəti “qeyri-müəyyən” xarakterizə edirlər.

Əvvəlcə, koronavirus pandemiyası Avropa “birliyinin” kövrəkliyini əvvəllər heç vaxt yaşamadığı dərəcədə ifşa etdi. Sonra – Ukrayna ətrafında vəziyyətin kəskinləşməsinin yaratdığı “enerji şoku” baş verdi. İndi isə iki yeni “bədbəxtlik” gündəmə gəlib. Çin tərəfindən davamlı olaraq artan iqtisadi rəqabət və transatlantik ticarət müharibəsinin yeni mərhələsini vəd edən Donald Trampın gələn il ABŞ prezidentliyinə qayıtması təhlükəsi.

Doğrudur, Qərb optimistlərinin fikrincə, avropalılar üçün enerji qiymətlərində yeni fəlakətli sıçrayışlar təhlükəsi “artıq keçmişdə” qalıb. Lakin enerji qiymətləri nə qədər azalsa da, onlar Avropa İttifaqının əvvəlki iqtisadi modelinin effektiv fəaliyyət göstərməsinə imkan verən səviyyədən xeyli yüksək olaraq qalır. 2022-ci ilin payızında Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrell “Foreign Policy” nəşrinə müsahibəsində vəziyyəti belə şərh etmişdi: “Aİ-nin əvvəlki iqtisadi uğurlarının iki sütunu bunlar idi – Rusiyadan ucuz xammal və Çindən ucuz işçi qüvvəsi”. Hətta o zaman Avropa komissarı hər iki resursun tükəndiyini və “yeni modelə ehtiyac olduğunu” bildirirdi.

Çin bu minilliyin əvvəlindən, ÜTT-yə üzv olduqdan sonra Qərb şirkətləri üçün “montaj sexi”ndən dünyanın aparıcı iqtisadiyyatlarından birinə çevrilib. Bu isə Qərbi qorxudur. 2000-ci illərin sonlarında ABŞ və Avropa İttifaqının rəsmi dairələrində “kritik sahələrdə Çindən asılılığın qarşısının alınması” zərurəti haqqında ciddi söhbətlər gedirdi. Amma bu arada Çinin ixracatında sənaye məhsullarının payı durmadan artırdı. Bu gün “OECD TIVA Database”-nin yaydığı məlumatlara əsasən, Çinin qlobal sənaye istehsalında payı 35 faizə çatıb. Avropa İttifaqının iqtisadi inkişafının əsas drayveri olan Almaniyanın payı cəmi 4 faiz, Aİ-nin ikinci və üçüncü iqtisadiyyatları olan Fransa və İtaliya isə – hər biri 2 faiz təşkil edib.

Avropanın Çindən “asılılığını azaltmaq”, yəni bu ölkədən əsas resursların və malların tədarükünü azaltmaq, habelə Çinə investisiyaları və yüksək texnologiyalı malların ixracını məhdudlaşdırmaq cəhdləri yalnız xərclərin kəskin artmasına səbəb olacaqdır. “The Economist” nəşrinə görə, Çinlə ən sıx əlaqədə olan Avropa iqtisadiyyatı Almaniya üçün, hətta nizamlı bir şəkildə ayrılma belə ÜDM-in 1,2 faizini itirməsi hesabına başa gələcək. Digər iri Avropa ölkələri isə ÜDM-in təxminən 0,5 faizini itirəcək. Çinin itkiləri təxminən 2 faiz olacaq.

Bu məsələlərdən aydın görünür ki, Avropa rəsmilərinin ucadan danışmaq istəmədikləri əsas məsələ məhz ABŞ ilə geoiqtisadi münasibətlərdəki problemlərdir. Çünki Vaşinqtonun öz strateji maraqlarını həyata keçirməsi Qədim dünyadakı nominal müttəfiqlərinə çox vaxt zərər vurur. Avropa siyasi elitası ABŞ-nin belə əbədi və əzəli bir devizini əsla unudur: “Amerikanın əbədi dostları yox, əbədi maraqları var”. Əvvəldə qeyd etdiyimiz kimi, məsələnin kökü ondan ibarətdir ki, Avropa İttifaqı Amerika iqtisadiyyatını dəstəkləməyə çalışır... Avropa İttifaqı real olaraq ABŞ-ni, onun iqtisadiyyatını, iqtisadi siyasətini dəstəkləmək üçün Avropa ölkələrinin iqtisadiyyatlarını məhv etmək alətinə çevrilib.

Bu günün bir reallığına diqqət yetirin. Rusiya–Ukrayna münaqişəsinin alovlanması ABŞ və Avropa arasında silah alışı sahəsində rəqabətin yeni mərhələsinə səbəb olub. Həm Almaniyada, həm də Fransada hərbi sənaye müəssisələrinin mənafeyinə ciddi ziyan dəyir. Hər kəs başa düşür ki, hərbi-sənaye kompleksi şirkətlərinin əhəmiyyətli dövlət subsidiyaları aldığı Avropa bazarında ABŞ-dən silah tədarükünə məhdudiyyətlər olmadığı halda, öz hərbi sənaye istehsalını inkişaf etdirmək siyasəti iflasa uğrayacaq. Lakin Vaşinqton “Rusiya təhlükəsi”ni əsas gətirərək, Avropadakı müttəfiqlərindən mümkün qədər tez “müdafiə potensialını artırmağı” tələb edir. Belə olan halda, ABŞ-dən gələn təzyiqlərə boyun əyərək, əvvəlki onilliklərdə öz müdafiə sənayesinin problemlərinə məhəl qoymayan avropalı siyasətçilərin Amerika silahlarının idxalını artırmaqdan başqa çarəsi qalmır.

Bayden iqlim dəyişikliyi ilə mübarizədə “xeyirxah və ağlabatan” bəhanə ilə proteksionizmi gücləndirmək fürsətindən istifadə etdi. Onun Amerika sənayesi üçün elan etdiyi “yaşıl subsidiyaların” ölçüsü Avropada şok yaratdı. Avropanın “təmiz” texnologiya sənayesi, yeni kəşflərin okeanın o tayına axını üzündən artıq fəlakət yaşamaqdadır.

Belə bir şəraitdə nəticəni dərk etmədən iqtisadi məsələlərin ideologiyalaşdırılması, həmçinin Vaşinqtonun “Qərbi” təkcə Rusiyaya deyil, həm də Çinə qarşı yenidən “soyuq müharibə” konfiqurasiyasına çəkmək istəyinə yol vermək Avropa İttifaqının dağılmasına böyük təkan verəcək. Bununla belə, bir çox əvvəlki yüksək səviyyəli Avropa rəsmiləri kimi, Josep Borrell də karyerasını bitirməyə hazırlaşarkən Birliyin ciddi problemləri ilə bağlı səmimi bəyanatlar verməyə başlayıb: “Avropanın hakim dairələri yaxınlaşan problemlərin real miqyasını etiraf etməyə hazır görünür. Ancaq onlar üçün adekvat həll yolları tapa biləcəklərmi? Axı bunun üçün onlardan böyük siyasi iradə tələb olunacaq, çünki Vaşinqton uzun müddətdir Qərbdə də bunu inhisara alıb”.

Yekun olaraq demək istərdik ki, Avropa İttifaqının daim genişlənməsinə baxmayaraq, onun liderləri bu gün belə avropalı olmağın nə demək olduğu sualına dəqiq cavab verə bilməyiblər. Avropa dəyərləri müqaviləsində adı çəkilən – azadlıq, demokratiya, insan hüquqları, qanunun aliliyi bütün sivil dünya üçün universaldır. Onların heç biri xüsusi “avropalılıq” əlaməti ilə seçilmir. Avropanın xristian köklərinə istinadlar konstitusiyanın hazırlanması mərhələsində onun mətnindən çıxarılıb. Üstəlik, Aİ müasir Avropanın səlib yürüşləri, papalar və imperatorlar arasında qarşıdurma, renessans, kilsə islahatı və dini müharibələr, müstəmləkəçilik və maarifçilik irsi olmamasının ağlasığmaz olduğu barədə vətəndaşlarla danışmaqdan utanır.

Bu məqamda görkəmli rus nasiri Fyodor Dostoyevskinin aşağadakı fikri yadıma düşdü. Ədib hələ 1879-cu ildə yazırdı: “Avropaya getmək istəyirəm... Bilirəm ki, ancaq qəbiristanlığa gedəcəm... Yerə yıxılıb bu daşları öpüb ağlayacağam, - eyni zamanda bütün qəlbimlə əmin olacağam ki, bütün bunlar çoxdan qəbiristanlıqdır və başqa heç nə”.

Əlbəttə, biz Avropanın qəbiristanlıq olmasını istəməzdik, amma Avropa İttifaqının Brüsseldəki binasının qarşısına yaxın illərdə “Burada Avropa İttifaqının baş ofisi yerləşib” sözlərinin yazıldığı xatirə lövhəsinin vurulacağına əsla şübhə etmirik.

***İlqar RÜSTƏMOV***
***XQ***

---

*KÖŞƏ*

## Avropa Parlamenti yenə havanı silkələyir

**Azərbaycanın dünyanın önəmli aktoruna çevrilməsi “qoca qitə”də müəyyən siyasi dairələri ciddi narahat edir. Belə qüvvələr rəsmi Bakının Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratmasını həzm edə bilmir, müxtəlif böhtanlara əl atır, hüquqi müstəvilərdə perspektivsiz təşəbbüslər göstərirlər. Bu məsələdə xüsusilə də korrupsiya qalmaqalları ilə gündəmdən düşməyən Avropa Parlamenti “fərqlənir”. Ötən gün “Azərbaycanda siyasi vəziyyət və insan haqları problemləri” mövzusunda keçirilən müzakirələrdə Azərbaycan və Türkiyə düşmənləri gözlərini yumub ağızlarını açaraq, ölkəmizə qarşı böhtan, 30 il işğal siyasəti aparan Ermənistana isə bol-bol tərif yağdırıblar.**



**Səbuhi MƏMMƏDOV**
**sabuhi_m@hotmail.com**

Ümumiyyətlə, Avropa Parlamenti nədir? Azərbaycanda da gözəl bilirlər ki, Avropa İttifaqının bu qanunverici orqanı bəzi Qərb dairələrinin müstəqil siyasət yürüdən ölkələrə qarşı hərtərəfli təzyiq göstərməyə çalışdığı daha böyük mexanizmin sadəcə bir halqasıdır. “Qoca qitə”nin bəzi ölkələri Avropanın ideya və məramlarını, daha doğrusu, onun maraqlarını bölüşməyən ölkələrə qarşı “Səlib yürüşü”nə çıxır, böhtan kampaniyalarını işə salır, sanksiyalardan dəm vururlar. Avropa Parlamentinin xarici siyasətində bütün ölkələrlə qarşılıqlı hörmətə əsaslanan və mehriban əlaqələrin saxlanılmasına yönələn prinsiplərə əməl edən Azərbaycana qarşı qərəzli siyasət yürütməsi də buna bariz nümunədir. Bakı bölgədə, ümumiyyətlə, dünyada ayırıcı xətlərə qarşıdır və hər bir ölkənin öz inkişafını müstəqil şəkildə müəyyənləşdirilməsi prinsipini dəstəkləyir.

Bu, bir faktdır ki, Qərbdəki bəzi siyasi qüvvələr İkinci Qarabağ müharibəsində qalib gələrək, regionda yeni reallıq yaratdıqdan sonra Azərbaycana qarşı hücumları daha da artırıblar. Avropa Parlamentində Ermənistan və erməni lobbisinin təsiri altında olan bir sıra dairələr qərəzli müzakirələr keçirir və müəyyən qətnamələr qəbul edirlər. COP29-un Azərbaycanda keçirilməsini heç cür həzm edə bilməyən ermənipərəst deputatlar sərsəm bəyanatlar səsləndirirlər. Belə ki, ötən gün bu qanunverici orqanda keçirilən müzakirələrdə növbəti böhtan və yalanlara geniş yer veriblər. Bu məsələdə xüsusilə də fransız deputatlar canfəşanlıq ediblər. Avropa Parlamentinin Fransadan olan deputatı Nathali Lauzo ölkəsinin Azərbaycana düşmənçilik siyasətini tribunadan səsləndirib. O, BMT-nin ən mühüm tədbirlərindən biri olan COP29-u “boykot” etməyə çağırıb.

Əlbəttə, erməni lobbisinin əlində alətə çevrilmiş Natali Luazo kimi adamlar COP29-un əhəmiyyətini anlamırlar. Luazo da çox gözəl başa düşür ki, onun ölkəsi Fransa əsrlər boyu müstəmləkəçilik siyasəti yürüdür, işğal etdiyi ölkələrin və xalqların sərvətlərini talayır. Keçmişindən utanmayan fransızlar indi Azərbaycanı ittiham etməyə çalışırlar. Fransızların erməniləri “sevdiklərini” bilirik, amma dünyanın ekoloji problemlərinin müzakirəsinin Bakıda keçirilməsinə qarşı çıxış etmələrinin məntiqini anlamaqda çətinlik çəkirik.

Əslində, burada başa düşülməyəcək problem də yoxdur, fransızlar və digər ermənipərəst qüvvələr COP29-un Bakıda keçirilməsini bəhanə edərək, Azərbaycana qarşı böhtan kampaniyası aparırlar. Bu mənada digər fransalı deputat Fransua-Xavier Belami də “fərqlənməyə” çalışıb. Ermənilərə nə qədər “böyük məhəbbət” bəslədiyini nümayiş etdirməkdən özünü saxlaya bilməyən bu fransız ölkəmizə qarşı ağ yalanlar, böhtanlar səsləndirib. Azərbaycanı haqsız yerə ittiham etməyə çalışan və COP29-u hədəf alan bu zatın çıxışını oxuduqdan sonra düşünməyə bilmirsən ki, o da digər bəzi Avropa siyasətçiləri kimi türkofobiya və islamofobiya ilə bağlı təkəbbürlü fikirlərin əsiridir.

Bir sözlə, Azərbaycanın müstəqil siyasət yürütməsi, Qərbin regionda geosiyasi maraqlarının güclənməsinə kömək edən addımları dəstəkləməməsi “qoca qitə”dəki müxtəlif siyasi dairələri hiddətləndirir və bu qərəzli münasibət də ermənilərə dəstəkdə özünü büruzə verir. Amma Azərbaycana təzyiq göstərməyin və COP29-a hücumları davam etdirməyin heç bir perspektivi yoxdur. Erməni lobbisinin qanuni nümayəndəsinə çevrilən Avropa Parlamenti regionda gedən proseslərə mane ola bilməyəcək və belə qərəzli addımları ilə yalnız destruktivliyini və ikiüzlüyünü nümayiş etdirəcək.

# “Qlobus” yüksəkliyinin əbədiyyət ünvanı

## *Vətən Müharibəsi Qəhrəmanı Əfqan Abdurahmanovun zəfər tarixçəsi*

**“Biz son 3 ildə Qəbələdə həyət evində qalırdıq. Həftə sonu onun evə gələn vaxtına az qalmış bir zəng gəlirdi. Telefonu açırdım, deyirdi: “Əlibəyə de, qapını açsın, çatıram”. Bax, onda dünyalar bizim olurdu. Gəlib həyətə girəndə darvazadan evə qədər salınmış daş cığırda xüsusi bir səs yaranırdı. Bu, onun çəkmələrinin, atdığı nizamlı addımların səsi idi. O gedən gündən həmin səsi və içəri girəndəki görkəmini elə hey xəyalımda canlandırıram. Evə girəndə öncə uşaqlarla görüşər, sonra mənə “gəl, sən də mənim balamsan...”– deyərdi. Onun bizimlə o görüş anına qaytmaq üçün ömrümü verərdim.” Bu ağrılı xatirə Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Əfqan Abdurahmanovun həyat yoldaşı Rəqinə xanımın kövrək və nisgilli xatirələrindən bir parçadır.**

### Əfqan Abdurahmanov kim idi?

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Əfqan Abdurahmanov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ silsiləsindəki mühüm zirvələrdən birinin alınmasında şücaət göstərmiş, Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 10-da “Qlobus” yüksəkliyi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Polkovnik Qəbələ rayonunun Əmirvan kəndində dəfn olunmuşdur. Dövlət başçısının 09.12.2020-ci il tarixli sərəncamına əsasən, Əfqan Abdurahmanova “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmişdir.



### Həyatı

Əslən Qəbələ rayonunun Əmirvan kəndindən olan Əfqan Ağasəf oğlu Abdurahmanov 1976-cı ildə Bakı şəhərində dünyaya göz açıb. Qarabağ münaqişəsi başlayanda Əfqanın 12 yaşı vardı. Binəqədi rayonu Vahid Əzizov adına 30 nömrəli tam orta məktəbdə təhsil alırdı. Həmin vaxt çox qarışıq dövr idi. Ermənilər tərəfindən azərbaycanlılara qarşı təxribat xarakterli qırğınlar törədilirdi. Çox keçmədən I Qarabağ savaşı başladı. Torpaqlarımız işğal edildi, soydaşlarımız qaçqın-köçkünə çevrildi. Xocalı faciəsi baş verdi. Qarabağın incisi Şuşa işğala məruz qaldı.

Bütün bu hadisələr onun yaddaşında dərin iz buraxdı...



Əfqan Dağlıq Qarabağın düşmən tərəfindən işğal edilməsi ilə heç cür barışa bilmirdi. Buna görə də hərbçi olmaq və gələcəkdə işğal altında olan torpaqlarımızın azad olunmasında iştirak etməyi qarşısına məqsəd qoydu. 1993-cü ildə orta məktəbi bitirəndə qəti şəkildə hərbçi olmağı, tərəddüd etmədən bu məqsədin arxasınca getməyi qərarlaşdırdı. 1995–1997-ci illərdə həqiqi hərbi xidmətini başa vurandan sonra sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdi. İmtahanlardan uğurla keçən Əfqan ixtisasını dərindən, incəliklərinədək öyrəndi. O, 2001-ci ildə məzun oldu və 1 il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təcrübə keçdi. Burada Əfqanın bir zabit kimi peşəkarlıq səviyyəsi yüksəldi, daha müasir hərbi peşə bacarıqlarına və vərdişlərə yiyələndi. 2002-ci ilin iyul ayından Gəncə şəhəri N saylı hərbi hissədə xidmətə başladı. Xidmət etdiyi müddətdə Müdafiə Nazirliyinin sərəncamları ilə Türkiyə, Çexiya və Çində müxtəlif kurslara, hərbi təlimlərə başladı.

### Aprel döyüşləri

Əfqan Abdurahmanov 2016-cı ildə Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər istiqamətlərində başlanan döyüşlərdə iştirak edib. Aprel döyüşlərində ön cəbhədə olub. Bu döyüşlər Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri baş verən ən şiddətli döyüşlər idi. Azərbaycan Silahlı Qüvvələrinin hücumları ilə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, həmçinin Tərtər rayonunun Qazaxlar və Madagiz kəndi istiqamətindəki yollar düşməndən azad olundu.

Döyüşlər zamanı yaxın dostu, Milli Qəhrəman, polkovnik-leytenant Murad Mirzəyev şəhid oldu. O, dostunun ölümü ilə ilk sarsıntısını yaşadı. II Fəxri Xiyabanda dəfn olunmuş dostunu ziyarət etməyi həmişə özünə borc bilirdi.

Əfqan ikinci sarsıntını 2020-ci ilin iyul ayında yaşayır. Tovuz döyüşlərində general-mayor Polad Həşimovun şəhid olması xəbəri ona çox ağır təsir edir. Evə gəlib rəngi - ruhu ağarmış halda Poladın adını təkrarlayır. Məzuniyyətə cəmi 3 gün əvvəl çıxmasına baxmayaraq, bu xəbərdən sonra evdə qala bilmir, həyat yoldaşının daha bir neçə gün qalmasını israrla xahiş etməsinə baxmayaraq, elə ertəsi gün xidmət etdiyi hərbi hissəyə qayıdır. “Polad kimi oğul şəhid olub, mən istirahət edə bilmərəm”, –deyir.

### Vətən müharibəsi

Bu hadisədən 2 ay sonra Azərbaycan ordusunun əks-hücum əməliyyatı başladı. Əməliyyatların ilk günlərində Murovdağ silsiləsindəki zirvələrdən birinin azad olunmasına Əfqan Abdurahmanov rəhbərlik edirdi.




Döyüş zabitinin rəhbərliyi ilə əməliyyat keçirilən zaman hərbiçilərimiz qalın sis-dumana düşür. Getdikcə duman daha da artır və bir addım irəlini də görmək olmur. Ərazi qayalı, yarğanlı bir yer olduğundan adi bir səhv addım ölümlə, səhv istiqamətə getmək isə düşmən mühasirəsinə düşmək və ya döyüş əməliyyatının pozulması ilə nəticələnərdi. Əfqan Abdurahmanov komandir kimi əsgərlərinə cavabdeh olduğunu çox yaxşı başa düşürdü. Onları bu çətin vəziyyətdən çıxarmalı və döyüş tapşırığını yerinə yetirməli idi. O əsgərlərinə deyir: “Sıraya düzülün, öndə mən gedəcəyəm, bir-birinizin kəmərindən tutun və ardımca gəlin”.

Onun ən çətin anda doğru qərar verə bilmək peşəkarlığı, relyefi düzgün qiymətləndirməsi sayəsində hərbçilərimiz itki vermədən sağ-salamat döyüş mövqeyinə çıxırlar. O, Murovdağ silsiləsindəki mühüm zirvələrdən birinin düşməndən azad edilməsində qəhrəmanlıq göstərir və zirvəyə Azərbaycan bayrağı sancılır.

Bu əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis–Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin



atəş nöqtələri nəzarətə götürüldü. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verdi. Əməliyyatın uğurlu keçməsində Əfqan Abdurahmanov və onun döyüşçülərinin böyük rolu oldu.

Günbəgün hərbi hissələr, kəndlər, rayonlar işğaldan azad edilirdi. Suqovuşanın azad edilməsindən öncə Əfqan Abdurahmanovun dəstəsi mühasirəyə düşmək təhlükəsi ilə qarşılaşsalar da bu çətinliyin də öhdəsindən gəldilər. Əfqan Abdurahmanov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı yaxınlıqda olan şiddətli partlayış nəticəsində qəhrəmancasına şəhid oldu. Valideynlərinin istəyilə igidimiz Qəbələ rayonunun Əmirvan kəndində dəfn olundu.

Əfqan Abdurahmanov Vətənə xidmət etdiyi dövrdə hərbi nailiyyətləri və üstün şəxsi keyfiyyətlərinə görə, Azərbaycan Silahlı Qüvvələrinin yubiley, “Qüsursuz xidmətə görə” 3-cü, 2-ci, 1-ci, “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medallarla təltif olunub. O, həmçinin ölümündən sonra “Vətən uğrunda” medalı və “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

**İgid şəhidimizin Hilalə adlı qızı və Əlibəy adlı oğlu yadigar qalıb. Həyat yoldaşını dinlədikcə, qadınlarımızın necə güclü, iradəli, çətinliyə sinə gərən, fədakar olduğuna bir daha əmin oluruq. Əfqanın xanımı Rəqinənin arzusu övladlarının xoşbəxt olduğu günü görmək, bununla da həyat yoldaşının ruhunu şad etməkdir. Onunla görüşdüm. Kədərli, amma təbəssümlü sifəti təravətini itirməyib. Gözlərinin dərinliklərindəki qəm kölgəsi isə asanca sezilir. Böyük sevgisini yaşadan Rəqinə xanıma ilk sualım belə oldu:**

**– Necə tanış olmuşdunuz?**

– Əfqanla ata tərəfdən qohumluğumuz var. Amma mən sonuncu dəfə Əfqanı görəndə 12 yaşım vardı. Əfqan Bakıda yaşayırdı, mən kənddə. 1999-cu il avqust ayının 1-də qohumumuz Əmirvan kəndində toy edirdi. Mənim o zaman 18 yaşım vardı. Ailəmizlə həmin toya getdim. Əfqanın gələcəyini bilmirdim. Barmağımda üzük vardı, onun mənə ilk sözü o oldu ki, “o üzüyü barmağına doğurdan taxmısan?” Bu sözlə onun mənə nə demək istədiyini başa düşdüm, amma dedim ki, “yalandan da üzük taxarlar?” O, yəqin ki, inanmadı. Çünki toyda anama deyib ki, “mən hələ oxuyuram, amma bu qız mənimdir, heç kimə vermə”.

Toy bitdi, hərəmiz öz evimizə getdik. Həmin ilin dekabr ayında nişanlandıq. O vaxt Əfqan 3-cü kursda oxuyurdu, 2 il nişanlı qaldıq. Hərbi məktəbdə oxuduğuna görə, o ancaq tətil, ya da bayram vaxtı məni görməyə gəlirdi. 2001-ci il sentyabrın 1-də toyumuz oldu. Artıq məktəbi bitirib ilk leytenant rütbəsini almışdı. Evliliyimizin ilk ilində onun ata evində ailəsi ilə birlikdə yaşadıq. 2002-ci il iyul ayının 16-da qızımız Hilalə dunyaya gəldi. Əfqan hərbi akademiyanın təlim-tədris mərkəzində zabitlik təcrübəsini başa vurub təyinatla Gəncədəki “N” saylı hərbi hissəyə göndərildi.

### Gəncə həyatı

4 il Gəncədə yaşadıq. Təzə ailə, valideynlik məsuliyyəti. O, işdə növbədə olan vaxtlar mənə hər şey çətin gəlirdi: gecə tək qalmaq, körpə uşaqla yaxınında kimsən yox... Çöldən evə gələnimiz yalnız Əfqan idi. Növbədən sonra verilən istirahət günündə nə yatmazdı, nə dincəlməzdi, bizə vaxt ayırırdı. Gəncənin gəzməli, görməli yerlərinə gedirdik. Gəzməyə çox həvəsli idi, amma hərbçi həyatı buna imkan vermirdi. Təbii, mən də bilirdim ki, hərbçinin işi çətindir, üstəlik, torpağı işğal altında olan bir ölkədə.

O, çox qayğıkeş insan idi. Atam- anam dünyasını dəyişəndə mənə dedi ki, ağlama, mən var olduqca sənin hər şeyin mənəm. İndi onun o sözlərini xatırlamağın mənə nə qədər çətin olduğunu sözlə ifadə edə bilmirəm. Çətin həyat yaşadıq, amma, inanın, hər çətinlikdən sonra onu görmək bütün çətinlikləri unutdururdu. 2006 – 2008-ci illərdə o, ön xətdə xidmət edirdi. Naftalan şəhərində “N” saylı hərbi hissənin Tapqaraqoyunlu kəndində yerləşən bölməsində bölük komandiri vəzifəsində xidmət edirdi. Biz isə Bakıda onun ata- anası ilə qalırdıq. 2007-ci il may ayının 27-də oğlumuz Əlibəy dünyaya gəldi. Dağda, ön xətdə xidməti zaman hər məzuniyyətə gələndə övladlarını böyümüş görürdü. O üzgün halda “övladlarımın mənsiz, mənim onlarsız zamanımız gedir”– deyirdi. Sonda əlavə edirdi ki, “peşəm belə tələb edir”. Məzuniyyəti bitəndə onunla sağollaşmaq, yola salmaq çətin olurdu, uşaqlar ağlayırdı, ayrılmaq istəmirdilər. Birtəhər sakitləşdirib yola düşürdü. 2008-ci ildə onu ön xətdən Naftalan şəhərindəki hərbi hissəyə düşürdülər. Onda bizi də yanına apardı. Bir müddət orada gözəl günlər keçirdik, saymaqla, bitməz, deməklə anlatılmaz. İşə gedir, nahara evə gəlir, axşam yanımızda olurdu. Mən hər gün onu işə yola salanda içimdə onu itirmək qorxusu olurdu.

2009-cu il sentyabrın 15-də qızımız Hilalə Naftalan şəhər 2 saylı tam orta məktəbin 1-ci sinfinə getdi. Qızımızın atdığı ilk addımları izləyir, işi çətin olsa da hər gün dərslərilə maraqlanırdı. 2010-cu il avqust ayında yenə xidmət yeri dəyişdi. Bu dəfə Tərtər rayonunda az müddətdə xidmət etdi. 2011-ci ilin yanvar ayında Bakıya onunla birlikdə gəldik və 2015-ci ilin mart ayına qədər Bakıda yaşadıq.

### İllər ötüb keçirdi

Əfqan işi ilə bağlı xarici ölkələrdə olmuşdu. Deyirdi ki, təqaüdə çıxanda sizi də getdiyim ölkələrə aparacağam. O ən çox Çindən danışırdı. Bu gün bunu xatirə kimi danışmaq mənə çox çətindir. Dediklərim bizim həyata keçməyən arzularımız idi. Amma nə yaxşı ki, Əfqan bizim həyatımızda olub, nə yaxşı ki, bizim onun kimi ailə başçımız olub. O, bizim üçün cismən yoxdur, ruhən yanımızdadır. Bunu bizə hiss etdirir, yuxularımıza gəlir, özünün daim var olduğunu bildirir. O aramızda olmasa da mən onu hər gün gələcək deyə gözləyirəm. Qapımızı onun döyəcəyini eşitmək, açanda onu görəcəyəm ümidi məni yaşadır.

**– Müharibə başlayanda hansı hisslər keçirdiniz?**

– 2020-ci il sentyabrın 26-sı idi. Evə gələndən 3–4 saat keçmişdi ki, müharibənin başlanması xəbəri gəldi. Uşaqları mağazaya apardı, xeyli ərzaq aldı və geri qayıdacağını bildirdi. Samovar qaynatdım, çay dəmlədim, içdik. Nə edəcəyimi bilmədim, amma Əfqan üçün çox da narahat olmadım. Təcrübəli hərbçi olduğundan ona nəsə ola biləcəyini düşünmədim. Axşamüstü saat 5 – 6 arası onu yola saldıq. Əlibəy çox da başa



düşmürdü, amma Hilalə onu yola salmağa qapıya çıxdı, özünü saxlamayıb ağladı, mən özümü güclə toparladım ki, onun fikri bizdə qalmasın, maşın sürür, sükan arxasındadır. Hilalənin alnından öpdü, dedi, qızım, narahat olma, ata gələcək, dərslər başlayanda səni Bakıya aparacaq. Həmin il Hilalə Azərbaycan Dillər Universitetinə daxil olmuşdu. Amma sözlər onun boğazında düyünləndi, qızının göz yaşlarına dözmədi, üzünü yola tutub “hələlik”– dedi və bizdən ayrıldı. Hilalə bu il Azərbaycan Dillər Universitetindən məzun olub. Əlibəy isə Çexiyanın Praqa şəhərində yerləşən Çarles Universitetinə daxil olub, fizika-riyaziyyat fakültəsində təhsil alır.

**Hilalə (qızı):**

– Atam bizə çox xoş xatirələr qoyub. Hər yerdə qürur duya bilməyimiz üçün döyüşüb. Hara gedirəm, deyirlər qəhrəmanın qızıdır, Abdurahmanovun övladıdır. Bu, mənə güc verir. Atam qardaşımla da, mənimlə də dost kimi idi. Bizə həyatda hansı mövqeyə sahib olacağımızdan asılı olmayaraq, düzgün, ədalətli olmağı tövsiyə edirdi. Atam bütün qızların ağlında olan, arzuladıqları ideal bir ata tipi idi. Evdə olanda dərslərimizlə maraqlanar, başqa məşğuliyyətlərimizlə bağlı düzgün məsləhətlər verərdi.

**Rəqinə deyir:**

– Mən ömrümüzün sonunadək səs-küydən uzaq, sakit bir həyat yaşamağı arzulayırdım, amma arzum ürəyimdə qaldı. Əfqanda böyük ruh yüksəkliyi, qələbə əzmi vardı. Deyərdi ki, “siz düşmən üzərində qələbə çalıb xidməti başa çatdırmağın nə olduğunu bilirsinizmi?” İndi mənim üçün ən ağır olan bilirsiniz nədir? İstər müharibədə, istərsə də məclislərdə çəkilən




videolarda hərəkətini görürsən, səsini eşidirsən, əlini uzadıb toxunmaq istəyirsən, alınmır. Hər gün o uzanan, amma havada boş qalan ələ yazığım gəlir...

Azərbaycan dövlətinin göstərdiyi qayğı və diqqət bizi qane edir. Əfqanın şəhidliyindən sonra Vətən Müharibəsi Qəhrəmanının ailəsi kimi dövlət bizi 3 otaqlı mənzil və Prezident təqaüdü ilə təmin edib.

**Rəqinə xanımdan ayrılanda bir şəkil uzadıb “Bu yazılardan başladı Əfqansız həyatımız”– dedi. Baxdım: telefonla göndərilmiş mesaj, şəkil və tarix. Göndərən: Afgan Nar, tarix: 10 Ekim 2020, vaxt: saat 07.20 mesaj: Sabahınız xeyirli olsun və 2 öpüş, 1 ürək simvolu. Bəli, 4 il öncə göndərilmiş son mesaj, son şəkil. Və Vətən uğrunda qurban gedən şərəfli bir ömrün sonu...**

*Zərifə BƏŞİRQIZI*
*XQ*

Dirçəldilən şəhərlərimiz

# “Laçınım mənim”

**Xəbər verildiyi kimi, sentyabrın 17-də Rusiyanın Ufa şəhərində Dövlətlərarası Humanitar Əməkdaşlıq üzrə Fondun 17-ci forumunda Laçın şəhəri MDB-nin 2025-ci il paytaxtı elan edilib. Oradakı təqdimatda Laçının əsrarəngiz gözəlliyi hər kəsi valeh edib. Oktyabrın 8-də isə Moskvada keçirilmiş MDB Dövlət Başçıları Şurasının iclasında Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi barədə qərar təsdiqlənib.**



Laçın 28 il yarımlıq işğaldan sonra azad olunub, hazırda bu şəhərə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilir. Dövlətimizin başçısının Şura iclasında dediyi kimi, Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsini həm laçınlılar, həm də bütün Azərbaycan xalqı böyük minnətdarlıqla qarşılayıb.

Uca dağlar qoynunda qərar tutan Laçının təbii gözəlliyi ilə yanaşı, strateji önəmi də var. 1992-ci ilin mayında bu rayonun işğalı sayəsində Ermənistanla Qarabağ separatçıları arasında “dəhliz” açılmışdı və bütün hərbi texnika, silah-sursat daşınırdı. Suriyadan, Livandan gələn erməni ailələri Laçında yerləşdirilərək, özlərini ev sahibləri kimi aparırdılar. Nəhayət, qanlar və canlar bahasına haqq öz yerini tapdı və Laçın da yağıların “əyri” ayaq izlərindən və murdar nəfəsindən təmizləndi.

Əvvəllər Abdallar adlandırılan, 1924-cü ildən isə şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzi olub. XX əsrdə Azərbaycanın tanınmış yazıçılarından biri olmuş Tagı Şahbazi Simurq rayona yaxınlıqdakı dağın adını verməyi təklif edib. Laçın adı özündə azadlıq sevən, məğrur quş mənasını ehtiva edir. Elə hər iki Qarabağ müharibəsində bütün istiqamətlərdə dağlar diyarının igid övladları məhz laçın kimi, qartal kimi o yerlərdə qıy vurublar. Onlarından 285 nəfəri şəhadətə ucalıb, 66 nəfəri girov götürülüb, 120 nəfər əlil olub. Müharibədə xüsusi şücaət göstərmiş 6 laçınlı – İsrafil Şahverdiyev, Kamil Nəsibov, Fazil Mehdiyev, Oqtay Güləliyev, Ələsgər Novruzov və Qorxmaz Eyvazov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüblər.

...Anamın doğma yurd-yuvası olan Laçına hələ uşaq vaxtlarımdan dəfələrlə getmiş, gözəlliklərini gözümə-könlümə köçürmüşəm. İlk poetik yaşantılarımdan olan “Laçın” şeirimi bir qohumumun məndən xəbərsiz aparıb rayon qəzetində çapa verdiyini də yaxşı xatırlayıram. Onu da deyim ki, 2006-cı ildən “Xalq qəzeti”ndə çalışsam da, Laçından yazdığım ilk məqaləm hələ 1977-ci ildə bu qəzetdə dərc edilib. “Laçında mehman olsan...” adlanan həmin məktubumu hərbi xidmətdən qayıtdığımda o ulu dağlara ana babamla nənəmin görüşünə getməyimlə əlaqədar yazmışdım. Daha sonra işğala məruz qalan Laçının həsrəti ilə şeirlər qələmə almışdım:

**Çapam səməndimi, çatam dağlara,**
**İlham kəməndini atam dağlara.**
**Sinə dağlarımı qatam dağlara,**
**Günüm-güzəranım puçdu Laçınsız...**

Nəhayət, Laçın azad olundu, məskunlaşdırıldı. Həmkarlarım Tahir Aydınoğlu və Səbuhi Məmmədovla Laçına ötənilki unudulmaz səfərim bu yerlərlə bağlı həsrətimin sonu kimi tərənnüm misralarına çevrildi:

**Laçında yer göyə yaxın,**
**Mələklər göydəndüşmədi.**
**Gözüm öpdü bu növrağı,**
**Sözə yad ilmə düşmədi.**

Gələn il MDB-nin mədəniyyət paytaxtı olacaq Laçında milli-mənəvi dəyərlər həmişə yüksək olub. Xatırladım ki, ötən il – iyulun 31-də Prezidentin “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” sərəncamı ilə el bayramları keçirilməyə başlayıb. Həmin il avqustun 26-da Laçında ilk Şəhər günü keçirilib. Builki Şəhər günü isə Laçının dörd məkanında – Bayraq meydanı, "Lacinema" kinoteatrı, seyrəngah və Həkəri çayının sahilindəki bulvarda gerçəkləşib. Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri vətənpərvərlik ruhlu musiqilər ifa edərək dağlara möhtəşəm əks-səda salıb.

Şəhər günündə “Ata vəsiyyəti – oğul Zəfəri” və “Bir millət, iki dövlət” adlı xalçaların hanadan kəsimini böyük maraqla qarşılanıb. “Ata vəsiyyəti – Oğul Zəfəri” xalçası Ulu öndər Heydər Əliyevlə bağlı kövrək anları, müzəffər Ali Baş Komandan İlham Əliyevin “Zəfər Yürüşü” zamanı göstərdiyi sərkərdəlik qətiyyətini yada salıb. Digər xalça isə ümummilli lider Heydər Əliyevin Azərbaycan–Türkiyə qardaşlığı haqqındakı məşhur kəlamı əsasında hazırlanıb. Hər iki dövlətin bayrağının əks olunduğu xalçanın fonunda Qarabağın məşhur “Xətai” (XVII əsr) qrupuna aid “Əjdahalı” xalçasından və Türkiyənin “Lotto” (XVII əsr) xalçasından fraqmentlər verilib.

Yeni yaradılan “Lacinema” kinoteatrında rəsm və foto sərgiləri nümayiş etdirilməsi, filmlərə baxılması burada mədəniyyətə ciddi önəm verildiyinin aşkar göstəricisidir. Dünya şöhrətli fotoqraf Reza Deqatinin əsərləri maraqla qarşılanıb. Eyni zamanda şəhərdəki seyrəngahda xalq tətbiqi sənəti üzrə ustad dərsləri təşkil olunub. Şəbəkə, həsirçilik, keramika, misgərlik və s. sahələr üzrə məhsulların hazırlanması prosesi əyani nümayiş etdirilib. “Can Laçın” yarmarkasında yerli mətbəx nümunələri təqdim olunub. Uşaqlar da bayramda yetərincə əyləniblər.

Dağlar qoynunda “Poeziya saatı”, yeni çapdan çıxmış “Laçın – 100” ədəbi antologiyasının təqdimatı burada mədəni köklərin qədimlərə gedib çıxdığını göstərir. Həmin kitab Laçın şəhərinin salınmasının 100 (1924–2024) illiyinə həsr olunub. Nəşrdə Laçın ərazisində yaşamış şair, nasir və aşıqların yaradıcılığından nümunələr toplanıb. 400 illik dövrü əhatə edən antologiyanın poeziya bölümü Sarı Aşıq, Mir Həmzə Nigari kimi klassiklərin yaradıcılığı ilə açılır.

Laçında “Füzuli 530 – məclisi-üns” adlı muğam və poeziya məclisi, Şuşa Dövlət Musiqili Dram Teatrının aktyorlarının “Sarı Aşığın hekayəti” adlı bədii kompozisiyası da yaddaqalan tədbirlərdəndir. Musiqi şöləsində Xalq artisti Faiq Ağayev, Əməkdar artistlər Ehtiram Hüseynov, Lalə Məmmədova, İlkin Əhmədov, Rəşad İlyasov və digər ifaçılar, aşıq sənəti ustaları, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, “Laçın” muğam qrupu öz çıxışları ilə mədəni tədbirlərə əlavə rəng qatıblar. Mərhum müğənni Məhəbbət Kazımovun əzəli torpaqlar əldən gedəndən sonra oxuduğu “Laçınım” mahnısının səs yazısı xəyallarda silinməz izlər buraxıb. Beynəlxalq müsabiqələr laureatı, gənc tarzən İbrahim Babayevin solo çıxışı da ruh oxşayıb. Laçın Günü təntənələrinə möhtəşəm atəşfəşanlıqla yekun vurulub. Azad şəhərin səması rəngbərəng işıqlara bürünüb.



Ədəbi antologiyanın Bakıdakı Atatürk Mərkəzində də təqdimatı olub. Şifahi ədəbiyyat kitabxanamıza dəyərli töhfə olan bu topluda tanınmış klassiklərlə yanaşı, indiyə qədər ədəbi aləmə məlum olmayan Əmir Bəy, Şair Məmmədalı, Qara Kərim, Aşıq Alı (Suvatlı), Aşıq Abbas, Aşıq Cəfərqulu kimi el sənətkarlarının yaradıcılığından nümunələr verilib. Ümumilikdə, 98 müəlifin yaradıcılığı əks olunub. Nəşrdə xeyli tarixi məlumat da var.

Antologiyanın tərtibçisi şair İlham Qəhrəman “Laçın folkloru”, “Laçın lətifələri”, Sarı Aşığa həsr olunan “Gül dəftəri” kimi kitabları ilə də ədəbi aləmdə yurdsevər yazar kimi tanınır. Onun dedikləri:

– Bu antologiya yurdumuzun bədii salnaməsidir. Kitabda elə söz adamları var ki, onların adları Laçınla qoşa çəkilir. Hüseyn Kürdoğlu, Ağa Laçınlı, Xasay Cabbarov, İlyas İbrahimov, Aşıq Umbay, Malik Fərrux və digər şairlərin adları Laçına şərəf gətirir. Laçına qəlbən bağlı olan Rəşad Məcidin şeirlərini də sevə-sevə topluya daxil etmişik.

Hazırda Ermənistanın da daxil olduğu MDB-nin mədəniyyət paytaxtı qədim Səmərqənddir. Düz 9 həftədən sonra estafeti qəbul etməyə hazırlaşan Laçın şəhəri bu faktla düşmənlərə daha bir gözdağı olub. Dünya dağ vüqarlı Laçını həm də mədəniyyət mərkəzi kimi tanıyacaq. Gələn il MDB çərçivəsində, o cümlədən ayrı-ayrı üzv ölkələrdə Laçın şəhərinə həsr olunan müxtəlif mədəni tədbirlər keçiriləcək.

Bir sözlə, Laçının MDB-nin mədəniyyət paytaxtı seçilməsi barədə qəbul olunan tarixi qərar Azərbaycanın həm diplomatik, həm də mədəni qələbəsidir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# “İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər”

**Azərbaycanın indiki hüquqi və siyasi sərhədlərindən kənarda qalan Qərbi Azərbaycanda min illər boyu yaşayan ata-babalarımız zəngin maddi və mənəvi mədəniyyət nümunələri yaradıblar. Bu isə ümumən Azərbaycanın elm, təhsil və dövlətçilik tarixinin ayrılmaz bir hissədir. Filologiya elmləri doktoru, professor Fəridə Səfiyevanın “İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər” kitabı bu baxımdan mühüm elmi-nəzəri və praktik əhəmiyyət daşıyır.**




Bugünlərdə təqdimatı keçirilən vacib mənbə İrəvanın tarixi, mədəni, demoqrafik və sosial məsələlərinə işıq tutaraq, zaman-zaman orada baş verən ictimai-siyasi və mədəni hadisələrin xronologiyasını, azərbaycanlıların bu prosesdəki yerini və rolunu göstərir. Gərgin zəhmətin, ciddi elmi axtarışların nəticəsində ərsəyə gələn foto-albomun əhəmiyyətini bir neçə aspektdən dəyərləndirmək olar.

Kitab, hər şeydən əvvəl, tarixi həqiqətlərin bərpasına xidmət edir. Azərbaycanlıların İrəvanın qədim sakinləri olmasını, onu qurub-yaratmasını, əsrlərlə orada yaşamasını, zəngin maddi-mənəvi sərvətlər, təhsil-tərbiyə ənənələri yaratmasını arxiv materiallarının və şəkillərin dili ilə sənədləşdirərək geniş oxucu kütləsinə çatdırır, zamanla təhrif olunmuş və ya unudulmuş həqiqətlərin yenidən işıqlandırılmasına kömək edir. Nəşr İrəvanın tarixi və mədəni irsinin doğru bir şəkildə gələcək nəsillərə çatdırılmasına, digər tərəfdən erməni yalanlarının və saxtakarlıqlarının ifşasına xidmət edir.

İrəvan şəhərində vaxtilə mövcud olan tarixi abidələr, mədəni irs və memarlıq nümunələri xalqımızın tarixi yaddaşıdır. Ermənilər bu möhtəşəm tarixi abidələri – məscidləri, sarayları, məqbərələri, karvansaraları, hamamları, qalaları məhv etməklə mədəni irsimizə ağır zərbə vurublar. Kitabda verilən şəkillər həmin tarixi abidələrin bir vaxtlar mövcud olduğunu və hansı məqsədlə erməni vandalizminin qurbanına çevrildiyini sübut edən canlı sənədlərdir. Bu fotoşəkillər yazılı sənədlərdən fərqli olaraq daha təsirli şəkildə baş verən dağıntıların real miqyasını insanlara çatdırır.

Bu kitab həm də İrəvanda yaşayan tarixi şəxsiyyətlərin irsi və kimliyini təsdiq edən mötəbər mənbədir. Kitabda İrəvanda yaşayan və milli mühitin formalaşmasında böyük xidmətləri olan tanınmış azərbaycanlı şəxsiyyətlərin kimliyi və irsi sənədləşdirilir, onların ailələrinin cəmiyyətə və milli kimliyə verdiyi töhfələr əyani şəkildə göstərilir. Şəkillər vasitəsilə İrəvanskilər, Əliyevlər, Qədimbəyovlar, Topçubaşovlar, Makinskilər, Seyidzadələr, Mirbağırovlar, Mirbabayevlər, Məmmədzadələr, Qazıyevlər, Qazızadələr, Bağırbəyovlar, Nəcəfovlar və başqa nəsillərin tanınmış şəxsiyyətlərinin həyatına, geniş ictimai-siyasi və elmi-mədəni fəaliyyətlərinə nəzər salmaq mümkün olur. Bu da oxuculara həmin dövrün mədəni və ictimai mənzərəsini daha yaxından başa düşməyə imkan yaradır. Ailə şəcərəsi şəkilləri milli kimliyin qorunmasında və ailə dəyərlərinin saxlanılmasında mühüm əhəmiyyət daşıyır. İrəvan milli mühitinin yetirdiyi azərbaycanlılar təkcə öz dövrünün liderləri, alimləri və mədəniyyət xadimləri deyil, həm də bu dəyərləri ailələri vasitəsilə gələcək nəsillərə ötürmüş şəxslərdir.

Zamana şahidlik edən bu şəkillər həm də dövrün yaşayış tərzini, o vaxtın adət-ənənələrini, geyimlərini və həyat tərzini əks etdirir. Şəxsi və ailə şəkillərinə baxmaqla İrəvan şəhərinin tarixi, mədəniyyəti, təhsil ocaqları (qəza məktəbi, progimnaziya, gimnaziya, seminariya, rus-tatar (Azərbaycan) məktəbi) haqqında geniş məlumat almaq mümkündür.

Foto-albomda etnik gərginliklər nəticəsində İrəvandakı azərbaycanlıların necə sıxışdırıldığı, qanlı münaqişələrin, deportasiyaların, etnik təmizləmələrin qurbanına çevrilməsinin əyani şəkildə göstərilməsi müasir dövrdə Cənubi Qafqazda gedən proseslərin daha dərindən başa düşülməsinə kömək edir.

Professor Fəridə Səfiyevanın “İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər” toplusu İrəvandakı zəngin mədəni sübutlu-dəlilli təqdimatı, həm də bu sahədə çalışan tədqiqatçılar, tarixçilər üçün qiymətli bir mənbədir. Qədim şəhərimizin tarixinə bir pəncərə açaraq, bizləri həmin dövrün tarixi, mədəni-mənəvi irsi, təhsil ocaqları və şəxsiyyətləri ilə sanki əyani şəkildə görüşdürür.

***Fərrux RÜSTƏMOV,***
***Əməkdar elm xadimi,***
***Beynəlxalq Pedaqoji***
***Akademiyanın üzvü***

Yaddaşlarda yaşayanlar

# Dərviş Cavanşir Vətən pərvanəsi idi

**Tanrı bizə onunla da bir kollektivdə işləmək imkanı vermişdi. Ömrü xəyallarla, fikirlərlə, sözlərlə, ifadələrlə keçən adam idi. Tanıdığım azsaylı ziyansız adamlardan idi. Həm də çox maraqlı həmsöhbət idi.**

Bu yaxınlarda onu yuxuda gördüm. Dedi, Allahdan gözlədiyimi verdi, səndən gözlədiyimi isə gecikdirirsən...

Onun redaksiyada tez-tez söhbətləşdiyi iki nəfər vardı: Telman Heydərovla (Allah ömrünü uzun eləsin) mən.

Bir dəfə dedi ki, Telman müəllim, mən yanvarda doğulmuşam, dekabrda ölsəm, gedib o dünyada deyərəm ki, ili başa vurdum.

Cavanşir yanvarın 9-da dünyaya gəlmişdi, dekabrın 14-də dünyadan getdi. Sanki Allah onun səsini eşitmişdi.

Söhbət zamanı dedi ki, Mirzəbəyli, mənim haqqımdakı məqaləni (“İki sahil” qəzetində verilmişdi – İ.M.) çox ürəkdən yazmısan. Elə bilirəm ki, mən öləndən sonra da xatırlayanlardan biri sən olacaqsan.

Çox təəssüf ki, onun ölümündən keçən on ildə Dərviş, Eloğlu, Məmmədov Cavanşir haqqında heç nə yazmamışam. Amma yazmağa dəyərdi. Onun şeirlərinin hərəsi bir lövhə idi. Kənd lövhəsi, ailə lövhəsi, adət-ənənə lövhəsi.

... Bu sətirlərdən sonra “İli istədiyi kimi başa vuran” şairin bəzi şeirlərinin hərəsindən bir bəndi xatırlatmaq istəyirəm:

**Tənha, yalqız bir ulu yurd,**
**Bir mən qaldım, bir quru yurd.**
**İçimdə boz qurd uluyur,**
**Çölümdə quzu mələşir...**



*

**Cavanşir bir qoca dərviş,**
**Cənnət almasını dərmiş.**
**Ölməyə qalsa – ölərmiş,**
**Qorxur, düşmən sevindirə.**

*

**Mən qəlbimlə öc eylədim,**
**Oda saldım, puç eylədim.**
**“Köçəri” çal, köç eyləyim,**
**Havada durna səsi var.**

*

**Qurban olum torpağına, daşına,**
**Qaldır məni, Əlincənin qaşına.**
**Qoy dolanım, Vətən, sənin başına,**
**Deməsinlər pərvanəsi çatışmır.**

***İ.MƏMMƏDCANOĞLU***

# “Meydan” aşıqları Tbilisi Festivalında

**Borçalıdakı soydaşlarımızdan ibarət “Meydan” Aşıqlar Qrupu bu ölkənin paytaxtında keçirilən Uşaq və Gənclər Etnoqrafik Ansamblları Festivalında təmsil olunub.**

Müxtəlif xalqların xor və orkestrləri ilə yanaşı səhnəyə çıxan “Meydan”çılar aşıq sənəti nümunələrini məharətlə ifa ediblər. Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev tədbirin təşkilinə görə Tbilisi şəhər Bələdiyyə Məclisinə təşəkkürünü bildirib. Onun sözlərinə görə, Gürcüstanın çoxkonfessiyalı ölkə olaraq tədbir iştirakçılarına mədəniyyətlərinin yaşadılması və tərənnümü üçün şərait yaratması razılıq doğurub. Azərbaycan və Gürcüstan arasında mədəniyyət sahəsindəki əməkdaşlıq münasibətlərindən də bəhs edən səfir tədbir iştirakçılarına bu yöndə həyata keçirilmiş birgə layihə və təşəbbüslər barədə məlumat verib.

Festivalın sonunda təltifetmə mərasimi olub. Əsas mükafatlardan biri “Meydan” Aşıqlar Qrupunun rəhbəri, tanınmış saz ifaçısı Nargilə Mehdiyevaya təqdim edilib.

***XQ***



Beynəlxalq həyat

# Ən güclü orduların reytinqi: ABŞ birinci yerdədir



**Dünya ölkələri hazırda hamıdan güclü olmaq, hətta dünyaya ağalıq etmək uğrunda mübarizə aparırlar. Bu baxımdan, ölkələrin hərbi gücü mühüm əhəmiyyət kəsb edir. Bu gün dünyada tendensiya belədir ki, hərbi sahəyə xərclər artırılır. Son illərdə NATO kimi güclü hərbi-siyasi alyansda da üzv ölkələrin hərbi xərclərinin artırılmasının vacibliyi ilə bağlı çağırışlar eşidilir.**

Bütün bunlara baxmayaraq, dünyadakı ölkələrin iqtisadi potensialı eyni olmadığından hərbi gücləri də uyğunsuzluq təşkil edir. Bu yaxınlarda Avstraliya İqtisadiyyat və Sülh İnstitutunun (IEP) yeni hesabatı dərc edilib və burada hərbi cəhətdən güclü olan ölkələrin reytinqi qeyd olunub. İnstitut ekspertlərinin hesablamalarına görə, hazırda dünyada ən böyük hərbi gücə malik ölkə ABŞ-dir. Ən böyük hərbi potensiala malik ölkələrin siyahısına Çin, Rusiya, Fransa, Böyük Britaniya, Hindistan, Yaponiya, Cənubi Koreya və İtaliya daxil edilib.

“Militarizasiyada müasir tendensiyalar” adlanan hesabatda vurğulanır ki, bu gün planetdə 59 hərbi münaqişə var: bu, İkinci Dünya müharibəsindən bəri maksimumdur. 2024-cü ildə 92 ölkə bu və ya digər şəkildə öz ərazilərindən kənarda silahlı münaqişələrə cəlb olunub. Hesabat müəllifləri bununla bağlı bir neçə qlobal tendensiyaya diqqət çəkirlər. Onlardan biri də bu xərclərin milli ÜDM-lərdə payının eyni vaxtda azalması ilə hərbi xərclərin artmasıdır. Üstəlik, qlobal iqtisadiyyatda hərbi büdcənin payı “soyuq müharibə”nin qızğın çağında olduğunun təxminən yarısıdır.

Digər tendensiya qoşunların sayının azalmasıdır. Ekspertlər bunu ordunun texnoloji innovasiyalardan artan asılılığı ilə əlaqələndirirlər. Oxşar dinamika - hərbi personalın sayının və iqtisadiyyatda hərbi xərclərin payının azalması son 3 onillikdə davam edib.

Hesabat müəlliflərinin fikrincə, Şimali Koreyanın milli iqtisadiyyatında hərbi sektor ən mühüm yeri tutur (2023-cü ilin məlumatlarına görə, ÜDM-in ən azı 24 faizi). Əfqanıstanın hərbi xəcləri ÜDM-də 10 faiz, Yaxın Şərq və Afrika ölkələrindən Omanda 5,9 faiz, Əlcəzairdə 4,8 faiz, Mali, Mərakeş və Səudiyyə Ərəbistanında 4,5 faiz təşkil edir.

Hesabatda keçmiş SSRİ dövlətləri də diqqətdən kənarda qalmayıb. Ermənistanın 4,2 və Azərbaycanın 3,8 faizlə siyahıda daha yüksək yerlərdə qərarlaşdığı, üstəlik, bu ölkələrin uzun müddət müharibə vəziyyətində olduqları bildirilir.

ABŞ iqtisadiyyatında hərbi xərclər 3,1 faiz təşkil edir. 15 il əvvəl bu rəqəm 4,7 faizə bərabər idi. 2022-ci ildə ABŞ müdafiə məsələlərinə 736 milyard dollar xərcləyib ki, bu da Çinin (282 milyard), Hindistanın (75 milyard), Böyük Britaniyanın (69 milyard) və Rusiyanın (63 milyard) hərbi xərclərini əhəmiyyətli dərəcədə üstələyir.

Tədqiqat müəllifləri dünyanın əksər ölkələrinin silahlı qüvvələrində şəxsi heyətin sayının azaldığını bildiriblər. Əgər 1995-ci ildə dünyada hərbi qulluqçuların ümumi sayı 30 milyonu ötürdüsə, 2019-cu ildə bu rəqəm 28 milyondan az olub. Şəxsi heyətin ən çox artdığı ölkə kimi Hindistan seçilib. ABŞ, Rusiya və Çində isə, əksinə, əhəmiyyətli azalma qeydə alınıb.

İnstitut ekspertləri ölkələrdə hər 100 min əhaliyə düşən hərbi qulluqçuların sayını da müəyyənləşdiriblər. Onların fikrincə, bu göstərici üzrə rekordçu Eritreyadır. Afrikanın şimal-şərqindəki bu kiçik ölkədə 100 min əhaliyə 5476 hərbi qulluqçu düşür. Şimali Koreyada bu rəqəm 4837, İsraildə 1875, Ermənistanda 1542, Yunanıstanda 1384, Cənubi Koreyada 1303, Tayvanda 1240, Şri-Lankada 1168 və Livanda 1092-dir.

Dünyada hərbiləşmənin ümumi səviyyəsindən danışan analitiklər hesab edirlər ki, 2008-ci ildən bu rəqəm qlobal miqyasda azalmağa doğru getsə də, 2022-ci ildə tərsinə çevrilib. Hesabat müəlliflərinin fikrincə, planetimizdə hərbiləşmənin səviyyəsi ən azı beş il artmaqda davam edəcək.

Hazırda dünyada İslandiya, İrlandiya, Avstriya, Yeni Zelandiya və Sinqapur ən dinc ölkələr kimi tanınır. Ən çətin ölkələr isə Yəmən, Sudan, Cənubi Sudan, Əfqanıstan, Ukrayna, Konqo Demokratik Respublikası və Rusiyadır. Təəssüf ki, hesabat müəllifləri Suriya, Fələstin (Qəzza) və Livan kimi Yaxın Şərq ölkələrindəki vəziyyəti unudublar.

***Paşa ƏMİRCANOV***
***XQ***

İnsan fenomeni

**Biz vaxtımızın çoxunu xəyallar aləmində keçiririk. Müstəsna, coşqun yaradıcılıq anlarında isə inadla nəticə əldə etməyə çalışırıq. İç dünyamızdan çıxıb ətraf aləmə, insanlara, gerçəkliyə bağlanırıq. Bir yerdə qərar tutmayan fikirlərimizə meydan vermək əvəzinə ağlımız bir səmtə tuşlanır. Bizə elə gəlir ki, düşüncəmizdə ətraf aləmdən işıq seli axır, yeni fikirlər doğulur, bu, bizi ruhlandırır, içimizdə yaradıcılıq gücü qabarır. İş həll olunandan sonra isə yaradıcılıq gücü zəifləyir, biz əvvəlki sakit halımıza qayıdırıq. Daha o gücün hökmünü hiss edə bilmirik. Kaş bu hissin ömrünü uzatmaq mümkün olardı...**

Təsəvvür edək ki, yaradıcılıq qüvvəsi anadangəlmə qabiliyyətdir. Bu mistik anlayışı açmaq o qədər də asan deyil. Amma onun köklərini tapmaq heç də pis olmazdı. Hər halda insan bilmək istəyir ki, bu halı necə yenidən yaratmaq və onun müddətini necə uzatmaq olar. Biz bu hisləri çox nadir

# İçimizdəki möcüzə

## Onu zəka və özünəinam oyadır




hallarda yaşayırıq. Amma elə insanlar var ki, bu hal onlar üçün həyat tərzinə çevrilib. Onlar istədikləri zamanda özlərini həmin əhvala kökləyə bilirlər, bu, onlar üçün dünyanı dərk etmək vasitəsidir. Sadə insanlar da bu qabiliyyətə yiyələnə bilərlər, sadəcə, müvafiq alqoritmləri qavramaq lazım gəlir.

Özünəinam, müşahidə bacarığı, hissləri cilovlamaq, iradə... Bu xüsusiyyətlər vasitəsilə insan qanunauyğunluqların necə işlədiyini dərk edir, təcrübə qazanır. Beləliklə, mövzunu daha dərindən başa düşməyə yaxınlaşırıq. Biz həyatın məğzinə yetirik, insan təbiətinin və təbii fenomenlərin mahiyyətinə enirik. Bunun sayəsində görkəmli alimlər fizikanın yeni qanunlarını kəşf edir, ixtiraçı və ya sahibkar hər hansı bir məsələnin əvvəllər heç kimin ağlına gəlməyən həllini tapır.

Bu, intuisiyadır. İntuisiya hiss və düşüncələrin naviqatorudur, o, insanı düzgün ünvana aparıb çıxarır. İntuisiya o deməkdir ki, iradi ya qeyri-iradi, insani ya heyvani – instinkt və ağıl qovuşur. Bu proses baş verənlərin mexanizmini dərk etməyə imkan verir.

Məşhur ingilis dramaturqu Robert Qrin “Ustalıq” əsərində yazır ki, uşaqlıqda hamımız intuitiv və spontan əhvalı yaşamışıq. Amma zaman keçdikcə beynimizə axın edən informasiya o gücləri zəiflədir. Ustalar bu əhvalı yenidən yaşaya bilirlər, təsadüfi deyil ki, onların yaradıcılıq nümunələri uşaq səmimiyyəti ilə seçilir – ürəkdən gəlmədir, qeyri-iradi, amma daha yüksək səviyyədə üzə çıxır.

Rus yazıçısı Aleksandr Qrinin “Al yelkənlər” romanını oxuyarkən müəllifin uşaq heyrətinə məəttəl qalırsan. Yazıçı balaca Assolun nağıl dünyasına o qədər ustalıqla daxil olur ki, biz qızcığazın xəyallar aləmində necə xoşbəxt olduğuna və bu xəyalların necə gerçəkliyə çevrildiyinə sidq-ürəkdən inanırıq.

Ekzüperinin “Balaca şahzadə”si də bu qəbil əsərlərdəndir. Uşaq yazıçılarının səmimiyyəti məhz bu ustalıq sayəsində əldə edilib. Hərçənd bizim mövzumuz heç də ədəbiyyat deyil. Lakin yaradıcı qüvvədən danışırıqsa, ədəbiyyatdan yan ötmək mümkünsüzdür. Ədəbiyyat məhz onun sayəsində yaranır.

İstənilən bədii mətnə professional alətlərlə yanaşsaq, oradan mütləq bugün üçün də aktuallığını itirməyən maraqlı şeylər tapmaq olar. Bəs peşəkar alətləri haradan tapmalı? Bunun üçün sadəcə, professionallığa yiyələnmək lazımdır. Bu yolda zəhmət çəkməsən, yaradıcı qüvvə sənə tabe olmayacaq.

A.Qrinə görə, insanlar yüz illər boyu ustalığın ətrafında hündür hasarlar hörüblər. Ona dahilik təzahürü deyib adi adamlar üçün əlçatmaz olduğunu düşünüblər. Seçilmiş insanlara anadangəlmə istedad kimi baxıblar. Nəticədə ustalıq da magiya kimi əlçatmaz görünüb. Amma bu hasar yalnız təsəvvürdədir axı. Əsl sirr isə bundadır – bizim beynimiz altı milyon illik inkişaf yolu keçib və təkamül prosesində elə bir səviyyəyə çatıb ki, hər birimiz bu ustalığa, içimizdə gizlənən o yüksək gücə yiyələnə bilərik.



Təsəvvür edin, altı milyon il əvvəl Şərqi Afrika düzənliklərində gəzən qədim əcdadlarımız təəccüblü dərəcədə zəif məxluqlar olublar. Boyları metr yarımdan artıq olmayıb. Zəif və sayca az olmaları üzündən onları məhv olmaq təhlükəsi gözləyirdi. Buna baxmayaraq, bir neçə milyon il ərzində insanlığın təkamül prosesi nəticəsində əcdadlarımız planetdə ən güclü varlığa çevrildilər. Bu fantastik çevrilmə necə baş verdi? Bu mental çevrilmənin əsasında iki sadə bioloji xüsusiyyət dayanır. Vizual və sosial xüsusiyyət – ibtidai insanlar onları gücə çevirməyi bacardılar.

İnsanın xoşbəxtliyi ondadır ki, təbiətin irsi olaraq bizə verdiyi beyin möcüzəli şəkildə çevik və mütəhərrikdir. Bu fakt insanın təkrarolunmaz olduğunu göstərir. Bu da Tanrının lütfüdür, Yaradan insanı belə xəlq edib. Ustalıq hər birimizin içində gizlənib. Onu aşkara çıxarmaq üçün beynimizi səfərbər etməliyik.

***Kənan HACI,***
***yazıçı-publisist***

Maraq dünyamız

# Dünyanın ikinci hündür bəndi

*10 il əvvələdək bu hidroqurğu birinci yerdə idi*

**Tacikistan paytaxtından 70 kilometr aralıda – Nurek şəhərinin yaxınlığındakı Polisənki dərəsində, Vaxş çayı üzərində Su Elektrik Stansiyasının inşası məqsədi ilə tikilmiş bu bənd, təxminən, 50 il dünyanın ən hündür anoloji qurğusu olmuşdur. Vaxş Amudəryaya axan çaylardandır. Mənbəyini Pamirin Zaalay silsiləsindən götürən bu çayın həmin ərazilərdəki adı Kızıl sudur. Bu ifadə qırğız dilində qırmızı su deməkdir. Çay Tacikistan ərazisinə keçəndən sonra isə Surxob adlanır. Amma yenə də qırmızı su – taciklər ab sözünü ob kimi işlədirlər.**



Xatırladaq ki, inşaasında bilavasitə yerli materiallardan istifadə edilmiş bəndin hündürlüyü 300 metrdir. Bu, Nurek SES-in dünyanın ən hündür ikinci bəndi edirdi. 2013-cü ilə qədər dünyanın ən hündür bəndi olan Nurek SES-in rekordunu Çin Xalq Respublikasının Tsinpin-I SES-i əlindən almışdır. Nurek SES-in binasının uzunluğu isə 200 metrdir.

Tacik dostlardan götürdüyüm bukletdə qeyd edilir ki, Nurek Su Elektrik Stansiyasının tikintisinə 1961-ci ildə başlanılmış, 1972-ci ildə ilk iki aqreqatı işə salınmışdır. 1979-cu ilin oktyabrında 9-cu, yəni sonuncu aqreqatın işə düşməsi ilə layihə gücünə çatdırılmışdır. 1982-ci ildə gücü 3 milyon kvt-dək artırılmışdır.

4 il il əvvəl stansiyanın modernləşdirilməsi layihəsinə start verilmiş, bu il avqustun 30-da isə Tacikistan Prezidenti Emoməli Rəhmon Nurek SES-in dördüncü hidroaqreqatının müasirləşdirmədən sonrakı açılışında iştirak etmiş və qurğunu işə salmışdır. Bildirilir ki, 2028-ci ilədək burada başqa yenidənqurma işləri də aparılacaq.

***İ.QAÇAYEV***

# Qırğız qonaqlar Ədəbiyyat Muzeyində

**Qırğızıstan Milli Elmlər Akademiyasının Çingiz Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru, akademik Abdıldacan Akmatalıyev və institutun bir qrup əməkdaşı Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində qonaq olublar.**

Muzeydən bildirilib ki, elmi işçi Aygün Abbasquliyeva ekspozisiya ilə tanış olan qonaqlara qırğız ədəbiyyatının nümunəsi “Manas” dastanının “Kitabi-Dədə Qorqud” ilə bənzərliyindən, həmçinin ortaq türk ədəbiyyatının nümunələrindən – Mahmud Kaşğarinin “Divanü lüğat-it-türk”, Yusif Balasaqunlunun “Qudatqu-bilik” və Orxon-Yenisey kitabələrindən bəhs edib.

Qırğızıstanlı alimlər çoxəsrlik Azərbaycan ədəbiyyatının təqdim və təbliğindən məmnun qaldıqlarını bildiriblər. Onlar “Rəy kitabı”na doğma dildə ürək sözlərini yazıblar.



Sonda qonaqlara muzeyin direktoru akademik Rafael Hüseynovun müəllifi olduğu “Söz məbədi” bukleti (rus dilində) hədiyyə olunub.

***XQ***


**“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti**

*Cəmiyyətə məxsus nəqliyyat vasitələri üçün təmir xidmətlərinin satın alınması məqsədilə*

**Kotirovka Sorğusu (açıq müsabiqə) Elan Edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 5 noyabr 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (+994 12) 599 00 03 (daxili 3706).

Ünvan – AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Rəssamlıq Akademiyası**

PUBLİK HÜQUQİ ŞƏXS

*Kafedralarda vakant vəzifələri tutmaq üçün*

Müsabiqə Elan Edir

Akademik rəngkarlıq və kompozisiya – 0,5 ştat dosent -1 yer, 1 ştat baş müəllim - 1 yer.

İncəsənət tarixi –1 ştat baş müəllim – 1 yer, 0,5 ştat baş müəllim – 1 yer.

Dizayn – 1 ştat baş müəllim – 2 yer, 0,5 ştat baş müəllim – 1 yer.

Memarlıq – 0,5 ştat dosent - 1 yer, 0,5 ştat baş müəllim - 1 yer.

Humanitar və ictimai fənlər- 1 ştat baş müəllim - 2yer.

Geyim dizaynı – 0,5 ştat dosent – 1yer, 1 ştat baş müəllim - 2 yer.

Bədii keramika, şüşə və metal – 1 ştat dosent - 1yer.

Rəsm – 1 ştat baş müəllim - 1 yer.

Heykəltəraşlıq - 1 ştat dosent - 1yer.

Qrafika - 1 ştat dosent - 1yer

Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.

Sənədlər təlimata uyğun olaraq aşağıdakı ünvana göndərilməlidir.

Ünvan- Bakı şəhəri, H.Əliyev prospekti 58.

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 234 (30638) 24 oktyabr 2024-cü il, cümə axşamı

## İdman xəbərləri

# Azərbaycanın gimnaziyada bayraqdarları

**Azərbaycan komandasının Bəhreynin paytaxtı Manama şəhərində keçiriləcək Gimnaziyada İdman Oyunlarındakı bayraqdarları bəlli olub.**




Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, yarışın açılış mərasimində Azərbaycanın üçrəngli bayrağını paraüzgüçü Əli Vəliyev və taekvondoçu Xuraman Cavadzadə daşıyacaqlar.

Qeyd edək ki, gimnaziyada bu gün start götürür və oktyabrın 30-dək davam edəcək. Yarışda 26 növ üzrə, ümumilikdə, 3 min 687 idmançı mübarizə aparacaq. Azərbaycanı gimnaziyada da 160 idmançı təmsil edəcək.

# U-23-də bürünc medal

**Albaniyanın paytaxtı Tiranada keçirilən güləş üzrə U-23 dünya çempionatına start verilib.**




Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, əvvəlcə yunan-Roma güləşçilərimiz mübarizəyə başlayıblar. Komandamızın üzvü Nihad Quluzadə (60 kq) bürünc medal qazanıb.

Mundialda daha sonra sərbəst və qadın güləşçilərimiz güclərini sınayacaqlar.

# Kişi boksçularımızın yeni baş məşqçisi

**Kişi boksçulardan ibarət Azərbaycan millisinə yeni baş məşqçi təyin olunub.**




Yığma ötən ildən Azərbaycan Boks Federasiyasında texniki direktor kimi çalışan özbəkistanlı Ravşan Xocayevə tapşırılıb. 44 yaşlı yeni baş məşqçi Özbəkistanın boks üzrə idman ustasıdır. O, məşqçilik fəaliyyətinə 1998-ci ildə başlayıb. Karyerası ərzində Özbəkistan, Asiya, Dünya və Olimpiya çempionları yetişdirib.

2016–23-cü illərdə Özbəkistan Boks Federasiyasının Məşqçilər Şurasında çalışıb. İBA-nın 3 ulduz kateqoriyalı məşqçisi olan Xocayev, həmçinin Özbəkistan Respublikasının əməkdar məşqçisidir. "Dostluq Ordeni" ilə təltif olunub. 2016-cı ildə beynəlxalq premiyanın laureatı olub. Nəzəriyyə, metodika və idman üzrə professor elmi dərəcəsinə malikdir.

Qeyd edək ki, Xocayev bu postda müqaviləsi başa çatan kubalı Pedro Rokeni əvəzləyib.

*Leyla QURBANOVA*
*XQ*

Avroliqa: 3-cü raund

# "Qarabağ" "Ayaks"ı yenəcəkmi?

**"Qarabağ" Azərbaycan və niderlandlı qonağımız "Ayaks" Amsterdam bu axşam Tofiq Bəhramov adına Respublika Stadionunda UEFA Avropa Liqası turnirinin əsas mərhələsinin 3-cü raundu çərçivəsində bir-birini sınağa çəkəcəkləri görüşdə meydançaya müxtəlif nəticələr, deməli, həm də müxtəlif əhvalla çıxacaqlar. Mərhələnin ilk iki turunda Londonda "Tottenhem"lə, Bakıda isə İsveçin "Malmö" klubu ilə oyunlardan məğlubiyyətlə ayrılan (müvafiq surətdə 0:3 və 1:2) ölkə çempionumuz turnir mövqeyi baxımından qibtəedilməz vəziyyətdədir və onu yaxşılaşdırmaq vaxtıdır.**



Rəqib isə, əksinə, 36 komandanın nəticələrini əks etdirən cədvəldə kifayət qədər yüksək, 6-cı pillədə irəliləməsindən razı qala bilər. Əfsanəvi Yohan Kroyfun həmvətənləri bu mövqeyə evdə İstanbulun "Beşiktaş" klubu üzərində böyük hesablı qələbə (4:0) və Çexiyada Praqa "Sparta"sı ilə heç-heçə (1:1) sayəsində yüksəlmişlər.

Göründüyü kimi, ümumi turnir cədvəlində 34-cü yerdə olan "Qarabağ"la onun rəqibi arasında məsafəcə çox böyük fərq yaranıb. Ancaq vəziyyəti düzəltmək üçün imkan var. Bugünkü oyunda qələbə həm Qurban Qurbanovun komandasına hollandlarla öz arasındakı məsafəni qısaltmağa, xal fərqini minimuma endirməyə, həm də pley-off mərhələsinə aparan yolun qalan hissəsində özünü daha inamlı hiss etməyə, qol-qanad açmağa şərait yaradar. Lakin bunun üçün meydanda ağır mübarizəyə tam hazır olmaq, son anadək var qüvvə ilə döyüşmək, başlıcası isə, yaradılacaq qol vəziyyətlərindən ustalıqla istifadə etmək, maksimum fayda götürmək lazımdır. Maraqlıdır, komandamız buna nə dərəcədə müvəffəq olacaq?

"Ayaks" beynəlxalq futbol dairələrində geniş nüfuz qazanmış güclü, üstəlik də, zəhmli bir komanda kimi tanınsa da, "Qarabağ" da çoxdandır ki, elə-belə kollektiv deyil, futbol pərəstişkarları onun əzmkar, məzmunlu, məhsuldar, hərdən də çox mükəmməl oyununa alqışlarını əsirgəməmişlər.

Bu səbəbdən də Azərbaycanın idman ictimaiyyəti ardıcıl iki məğlubiyyətdən sonra komandadan üz döndərmək fikrində deyil, əksinə, bu gün onu daha fəal şəkildə dəstəkləməyə hazırdır. Təsadüfi deyil ki, yenə hamı oyunu böyük ümidlə gözləyir.

Əhsən bizim azarkeşlərə! Oyuna hələ altı gün qalmış, oktyabrın 18-də 18.500 bilet satıldığı elan olundu. Bundan sonra qalan 12 min biletin də tezliklə öz xoşbəxt sahiblərini tapacağına şübhə etməmək olardı. Həqiqətən, "Qarabağ"a sevgimiz hədsizdir.

İndiki vəziyyətdə kollektivə belə inam, dəstək daha çox vacibdir. "Qarabağ" qələbə təqdirində, demək olar, rəqibinə çatacaq, cədvəldə bir neçə klubdan irəli çıxacaq və gələn il yanvarın sonunda yekunlaşacaq Avroliqa turnirinin əsas mərhələsinin son beş görüşü qarşısında perspektivlərimiz haqqında daha ucadan danışa biləcəyik.

Biz də öz növbəmizdə nikbin olaq, həmişəki kimi, çempionumuza dəstəyimizi əsirgəməyək, "Ayaks" kimi komandanı Bakıya gətirdiyinə görə, məmnunluğumuzu ifadə edək.

Onu da əlavə edək ki, Niderland futbolçuları da dəstəksiz qalmayacaqlar. Yayılan məlumata görə, "Zanbaqlar ölkəsi"ndən paytaxtımıza 500-ə qədər azarkeş gəlir.

Bu dəfə oyunumuza şotlandiyalı hakimlər briqadasının təyinat aldığını da diqqətə çatdıraq. Baş hakim rolunda ədaləti Nikolas Uols qoruyacaq. Ona da, köməkçilərinə də dəqiq hakimlik arzulayıb, görək saat 20:45-də başlayacaq görüşdə kimin zərbələri daha dəqiq olacaq, qələbəyə kim sevinəcək.

Azərbaycan çempionunun növbəti oyununun tarixini də xatırladaq. "Qarabağ" noyabrın 7-də Norveçdə "Bodo Qlimt" klubunun qonağı olacaq. Bununla da əsas mərhələnin birinci yarısı arxada qalacaq. Əlbəttə, səfərə yaxşı əhvalla çıxmaq xoş olardı.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Zeytun yağı + limon şirəsi – toksinlərin çarəsi

**Tərkibindəki zəngin E vitamini ilə diqqət çəkən zeytun yağı nizamlı olaraq istehlak edildikdə öd yollarının açılmasına və qaraciyərin stimullaşdırılmasına kömək edir. Yağ bu şəkildə qəbul edildikdə qaraciyərin təmizlənməsində böyük rol oynayır.**



Limon turşusu qaraciyər fermentlərini aktivləşdirir və onun zədələnməsini minimuma endirməyə kömək edir. Hər səhər acqarına bir xörək qaşığı zeytun yağına iki damcı limon sıxaraq istehlak edildikdə, bədəndən toksinləri çıxarmaq asanlaşır. Həzm sistemi yaxşılaşır. Bu qarışıq öd daşı əmələ gəlməsinin qarşısını almaq üçün də faydalıdır.

Fitoterapevtlər tövsiyə edirlər ki, 5 qaşıq zeytun yağına 10–15 damcı limon suyu əlavə edib hər səhər 1 qaşıq içmək toksinləri çıxarmaq üçün çox faydalıdır. Amma unutmaq olmaz ki, limonun yüksək turşu tərkibi mədə problemlərinə səbəb ola bilər. Ona görə də ailə həkimi ilə məsləhətləşməkdə fayda var.

*Z.HÜSEYNLİ*
*XQ*

# Yağmursuz, duman və şaxta

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 24-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 9-11°, gündüz 15-19° isti olacaq. Atmosfer təzyiqi 775 mm civə sütunundan 770 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-9°, gündüz 14-19° isti, dağlarda gecə 0-4°, yüksək dağlıq ərazilərdə 4-7° şaxta, gündüz 1-6° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# "Payız xəzanı"



*✓ 2022- ci il yanvarın 21-də "SEVİNC-M" MMC tərəfindən Osmanlı Sevinc Yunis qızının adına Bakı şəhəri, N.Nərimanov rayonu, F.Yusifov küçəsi 40,1-ci yaşayış binası, 26 nömrəli mənzilə verilmiş alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00